# ABB DAYANIQLI İNKİŞAF HESABATI 2022

Potensial böyümə istiqamətlərinin araşdırılması

Qabaqcıl analitika və data imkanlarının tətbiqi

Rəqəmsallaşma və əsas bankçılıq əməliyyatlarının mükəmməlləşdirilməsi

ABB
Azərbaycan Beynəlxalq Bankı

Yeni trendlər

İnsan kapitalı və korporativ mədəniyyət

ABB
Azərbaycan Beynəlxalq Bankı

Dayanıqlı
İnkişaf Hesabatı
2022

# MÜNDƏRİCAT


1. İdarə Heyəti Sədrindən ........ 5

2. Haqqımızda ........ 10
2.1. Bank haqqında qısaca ........ 11
2.2. Missiyamız və strateji baxışımız ........ 12
2.3. Məqsədimiz və dəyərlərimiz ........ 12
2.4. Mükafatlar ........ 14
2.5. Nizamnamə kapitalının strukturu ........ 15
2.6. ABB-nin beynəlxalq reytinqləri ........ 17

3. Hesabat haqqında ........ 20
3.1. Hesabatın profili ........ 20

4. İdarəetmə təhlili ........ 28

5. Azərbaycanda bank sektorunun icmalı ........ 32

6. Biz dinamikik ........ 40
6.1. Transformasiya yolumuz ........ 40
6.2. Strateji məqsədlər və göstəricilər (2023-2025) ........ 45

7. Biz müştəriyönümlüyük ........ 50
7.1. Satış şəbəkəsinin inkişafı ........ 50
7.2. Xidmət nöqtələri ........ 50
7.3. Filialların optimizasiyası ........ 51
7.4. Xidmətlərin keyfiyyəti ........ 51
7.5. Xidmətlərimizin rəqəmsallaşdırılması ........ 52
7.6. Yeni İnternet Bankçılığın inkişafı ........ 53
7.7. Pərakəndə müştərilər ........ 54
7.8. Korporativ müştərilər ........ 58

8. Biz məsuliyyətliyik ........ 64
8.1. Məsuliyyətli maliyyəyə yanaşmamız ........ 64
8.2. Əməkdaşlarımız üçün üstünlüklərin artırılması ........ 66
8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi ........ 72
8.4. Ətraf mühitə təsirimizin idarə edilməsi ........ 82

9. Biz dayanıqlıyıq ........ 88
9.1. İdarəetmə ........ 88
9.2. Risklərin idarə edilməsi ........ 112
9.3. Məlumat məxfiliyi və kibertəhlükəsizlik ........ 118

10. Yekun qeydlər və məsuliyyət həddi ........ 121

11. GRI standartlarına uyğunluq cədvəli ........ 122




ABB Dayanıqlı İnkişaf Hesabatı 2022

# İDARƏ HEYƏTİ SƏDRİNDƏN

1.



## Abbas İbrahimov

İdarə Heyətinin Sədri

Hörmətli səhmdarlar, müştərilər və bütün tərəfdaşlar!

ABB-nin strateji inkişafında xüsusi əhəmiyyət daşıyan 2022-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatımızı sizə təqdim etməkdən məmnunam. 2022-ci ildə ABB-nin üç illik inkişaf strategiyasının bir dövrü (2020-2022) başa çatdı və Bank yeni strateji mərhələyə daxil oldu.

Son üç ildə biz gələcək inkişafımız üçün möhkəm təməllər formalaşdıran geniş transformasiya proseslərindən keçdik.

**Bu gün 3000-dən çox əməkdaşı özündə birləşdirən böyük ABB komandası ilə 2020-2022-ci illərdə müxtəlif təşəbbüslər irəli sürərək onları uğurla icra etdik.** Məhsul və xidmətlərimizin keyfiyyətinə, onların müxtəlif sosial qruplar və regionlar üçün əlçatanlığına diqqət yetirdik. Korporativ müştərilərimiz üçün xidmət modelimizi yenidən formalaşdırdıq və mövcud müştərilərimizlə əlaqələrimizi gücləndirdik.

Son bir neçə il dünya iqtisadiyyatı üçün müxtəlif çətinliklərlə xarakterik oldu. COVID-19 böhranı, iqlim anomaliyaları və geosiyasi qeyri-sabitliyin yaratdığı mənfi təsirlər inflyasiya meyllərini yüksəltdi, bizneslər üçün bir sıra problemlər yaratdı.

Azərbaycan Respublikası Mərkəzi Bankı 2022-ci ildə öz mandatına uyğun olaraq ölkədə makroiqtisadi və maliyyə sabitliyinin qorunmasına yönəlmiş addımlar atdı. O cümlədən 2022-ci ildə inflyasiya təzyiqinin yumşaldılması məqsədilə müvafiq tədbirlər həyata keçirildi.

Həmçinin hökumət qeyri-neft sektorunun inkişafını stimullaşdırmaq, özəl sektorun milli iqtisadiyyatda payını artırmaq üçün aparılan islahatların davamı olaraq bir sıra dəstək proqramları həyata keçirdi. ABB-nin maliyyə

əməliyyatları, yerinə yetirdiyi strateji təşəbbüslər də Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasına tam uyğundur.

2020-ci ildən bəri kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin kreditləşdirilməsində 24%, fərdi sahibkarların kreditləşdirilməsində isə 72% artımla korporativ portfelimizdə kiçik və orta sahibkarlara ayrılan kreditlərin davamlı artımını müşahidə edirik.

Son illər Azərbaycan tarixində mühüm dönüş nöqtəsi oldu. İşğal altındakı rayonlarımızın azad edilməsi, Qarabağın, Şərqi Zəngəzurun dirçəldilməsinə böyük investisiyaların yönəlməsi həm yerli, həm də beynəlxalq biznes üçün yeni üfüqlər açdı. Biz də azad edilmiş regionlarımızın inkişafına dəstək olmaqdan məmnunuq.

## Strateji təşəbbüslər və uğurlar

Qlobal çağırışlara və iqtisadi böhrana baxmayaraq, Bankımız 2022-ci ildə də davamlılığını qoruyub saxladı. ABB Qrupun 2022-ci ildə qazandığı maliyyə nəticələri bizim sabit, dayanıqlı mövqeyimizi göstərir. 2022-ci ili biz 288 782 min manat xalis mənfəətlə başa vurmuşuq. Dövlət büdcəmizə 78 884 min manat gəlir vergisi ödəmişik. Bu da ölkəmizin iqtisadi inkişafına daha bir töhfəmizdir.

Son üç il ərzində Agile idarəetmə sisteminin tətbiqinə başlamışıq. Bank daxilində 11 Agile sahə yaratmış, Agile transformasiyada əhəmiyyətli nəticələr əldə etmişik. Korporativ idarəetmə sistemimiz inkişaf edərək müasir biznes tələblərinə uyğunlaşdırılıb. Data texnologiyaları prioritetlərimizin önündə gəlir, fəaliyyətimizin bütün sahələrində innovasiyaları təşviq edir.

ABB mobile tətbiqimiz dəyişən müştəri davranışlarına uyğunlaşaraq maliyyə inklüzivliyini artıran dinamik platformaya çevrilib. 2022-ci ilin sonuna kimi mobil tətbiqimizdə 1,23 milyondan çox müştəri qeydiyyatdan keçib. Korporativ və KOS müştərilərimiz yenilənmiş internet bankçılıq platformamızdan və ABB business mobil tətbiqimizdən faydalanaraq yeni bank təcrübələri qazanırlar. **2022-ci ilin sonuna olan məlumata görə, ABB-də korporativ əməliyyatların 91%-i rəqəmsal kanallar vasitəsilə həyata keçirilib.**

Xidmət şəbəkəmizi yeni brend kimliyimizə uyğunlaşdırmaq üçün filiallarımızın transformasiyası layihəsini uğurla həyata keçirməkdəyik. Son iki il ərzində 20 filialımızı yeni konseptdə qurduq. 2022-ci ildə 2 yeni filial yaratdıq, bununla müştərilərimizlə əlaqələrimizi genişləndirdik, onlar üçün daha əlçatan olduq. Üstün bank təcrübəsi yaratmaqdan ötrü filiallardakı xidmət modelimizi davamlı inkişaf etdiririk.

Həm korporativ, həm də pərakəndə seqmentdə məhsullarımızı müştərilərimiz üçün təkmilləşdirməklə və mənzil kreditləri sahəsində bazar payımızı gücləndirməklə biz Bankın bu seqmentlərdə lider mövqeyini təmin edirik. 2022-ci ildə kreditləşmə üzrə bazar payımızı 18%-ə çatdırmışıq. Qabaqcıl texnologiyalar və yeni təkliflər təqdim etməklə, ABB-nin nağdsız ödənişlərdəki bazar payını da tədricən artırırıq.

## Məsuliyyətli yanaşma

2022-ci ildə təhsilin dəstəklənməsinə, gənclərin peşəkar sferada yeni bilik və bacarıqlar qazanaraq güclənməsinə, cəmiyyətimizdə dayanıqlılığın artırılmasına yönəlmiş müxtəlif sosial dəstək və sponsorluq proqramları həyata keçirdik.

ABB İnnovasiya Mərkəzimiz informasiya texnologiyaları sahəsində yüksək istedadlar yetişdirir, sahibkarları innovativ konsepsiyalarla dəstəkləyir, inkişaf etməkdə olan texnologiyaların bütün potensialından yararlanır. **2020-ci ildən bəri 50-dən çox startap üçün inkişaf imkanları yaratmaqdan qürur duyuruq. Bu startaplardan 12-si 2022-ci ildə seçilib.**

ABB rəhbərliyi olaraq biz əməkdaşlarımız üçün pozitiv və sağlam iş mühiti yaradırıq. 2022-ci ildə həm şəxsi, həm də peşəkar inkişafı dəstəkləyən müxtəlif proqramlara, yeni imkanlara sərmayə qoymaqda davam etdik. Komanda üzvlərimizə inkişaf etməyə və öz potensiallarını reallaşdırmağa imkan yaratdıq. Hesabat ilində seçilmiş ABB menecerlərinin Mini Executive MBA proqramına cəlb olunması üçün Türkiyənin Koç Universiteti ilə əməkdaşlığa başladıq. Paralel olaraq, gənc istedadları və gələcək liderləri ABB-yə cəlb etmək, onlara karyera imkanları yaratmaq səylərimizi davam etdirdik.

## Növbəti addımlarımız

Bankımızın 2023-2025-ci illəri əhatə edən yeni inkişaf strategiyası seqmentlər üzrə bazar liderliyini, dataya əsaslanan rəqəmsal təcrübəni, üstün müştəriyönümlülüyü və maliyyə sektorunda ən yaxşı işəgötürən olmağı vurğulayır. Sürət və mükəmməllik yeni strateji dövrdə bizi irəli aparan əsas performans meyarlarımız olacaq.

Digər müştəri seqmentləri ilə yanaşı, gənclərlə də güclü və uzunmüddətli əlaqələr qurmaq üçün böyük potensial görürük. Biz gənc müştərilərin ehtiyaclarına uyğunlaşdırılmış yeni məhsul və xidmətləri təqdim etmək üçün daha böyük səylə çalışacağıq. Bu, bizim müasir və davamlı inkişaf edən bank olmaq məqsədimizi əks etdirir.

Biz "Beyond banking" təkliflərimizi genişləndirməyə davam edirik. Öhdəliyimiz ənənəvi maliyyə xidmətlərindən kənara çıxaraq maliyyə savadlılığını təşviq edən, cəmiyyətin inkişafını dəstəkləyən və davamlı gələcəyə töhfə verən təşəbbüsləri əhatə edir.

İqtisadiyyatın karbonsuzlaşdırılması istiqamətində artan tendensiya, iqlim dəyişikliyi ilə təxirəsalınmaz mübarizə, qlobal maliyyə artımı ABB üçün yeni imkanlar yaradır. Biz maliyyə resurslarının daha dayanıqlı və yaşıl layihələrə yönəldilməsində, iqlim dəyişikliyinin azaldılması istiqamətində aparılan fəaliyyətdə rol oynamağı planlaşdırırıq.

Kənd təsərrüfatında, regionun enerji keçidində imkan və riskləri düzgün qiymətləndirərək dayanıqlı maliyyəni strateji qərarların qəbuluna inteqrasiya etməyi nəzərdə tuturuq.

Məsuliyyətli biznes təcrübəmizə sadiqlik, uzunmüddətli dövr üzrə göstərdiyimiz səylərin bizi strateji məqsədlərimizə çatdıracağına inamımızı möhkəmləndirir.

**Bu Dayanıqlı İnkişaf Hesabatı bizim 2022-ci ildəki inkişaf yolumuzun, nailiyyətlərimizin və gələcəyə baxışımızın ümumi təsviridir. Sizi zaman ayırıb hesabatı oxumağa, nəticələrimizi araşdırıb performansımızı dəyərləndirməyə dəvət edirəm.**

Bu inkişaf yolumuzda bizimlə birgə olan hər kəsə dərin təşəkkürümü bildirirəm. Bütün uğurlarımızın arxasında Sizin zəhmətiniz və dəstəyiniz durur.

ABB-yə etibar etdiyiniz üçün minnətdarıq. Gəlin, önümüzdəki imkanlardan faydalanaq və cəmiyyətimiz üçün müsbət təsirlər yaratmağa davam edək!

*Hörmətlə,*
*Abbas İbrahimov*

# HAQQIMIZDA




# 2.

## Haqqımızda

Haqqımızda ........ 10
**2.1.** Bank haqqında qısaca ........ 11
**2.2.** Missiyamız və strateji baxışımız ........ 12
**2.3.** Məqsədimiz və dəyərlərimiz ........ 12
2.3.1. Dəyərlərimiz ........ 13
**2.4.** Mükafatlar ........ 14
**2.5.** Nizamnamə kapitalının strukturu ........ 15
**2.6.** ABB-nin beynəlxalq reytinqləri ........ 17

# 2. Haqqımızda

ABB - "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti 1992-ci ilin 10 yanvarında Açıq Səhmdar Cəmiyyət kimi fəaliyyətə başlayıb. ABB hazırda aktivlərinin həcminə, müştəri bazasına və beynəlxalq əməliyyat portfelinə görə Cənubi Qafqaz regionunun ən böyük banklarındandır.

> *Bu gün ABB ölkənin aparıcı maliyyə institutu olmaqda davam edir. Səmərəliliyə, müştəri məmnuniyyətinə və texnoloji tərəqqiyə diqqət yetirərək, qlobal bank arenasında etibarlı və rəqabətədavamlı oyunçu kimi mövqeyini möhkəmləndirməklə yanaşı, Azərbaycanın iqtisadi artımına və çiçəklənməsinə töhfə verir.*

**Tam adı:**
"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti

**Qeydiyyat tarixi:**
10 yanvar 1992-ci il

**Bankın lisenziyası:**
01 fevral 1992-ci il, Azərbaycan Respublikası Mərkəzi Bankının 06/06-224 nömrəli lisenziyası

**Veb sayt:**
www.abb-bank.az

**Qeydiyyat ünvanı:**
Nizami küçəsi 67, AZ1005, Bakı, Azərbaycan

**Üzvlüklər:**

- Azərbaycan Banklar Assosiasiyası
- Bakı Fond Birjası
- MasterCard International
- VISA International
- American Express®
- Union Pay
- SWIFT
- Reuters informasiya sistemi
- Bloomberg informasiya sistemi
- Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Konfederasiyası
- Azərbaycan-Amerika Ticarət Palatası
- İsrail-Azərbaycan Ticarət Palatası
- Caspian European Club



## 2.1. Bank haqqında qısaca

### Ümumi məlumat

**Xidmət ofislərinin ümumi sayı: 78**
- 29 Bakı
- 49 Regionlar

**ATM-lərin ümumi sayı: 938**
- 485 Bakı
- 453 Regionlar

| Göstərici | Dəyər |
|---|---|
| Ümumi aktivlər (AZN) | 14.2 mlrd |
| Pərakəndə kredit portfeli | 987 mln |
| Korporativ kredit portfeli | 1.7 mlrd |
| İpoteka portfeli | 885 mln |
| Depozit portfeli | 11.2 mlrd |
| Nizamnamə kapitalı | 1.2 mlrd |
| Ümumi kapital | 1.8 mlrd |
| Xalis gəlir | 289 mln |
| Aktiv pərakəndə müştərilər | 767 min |
| Aktiv korporativ müştərilər | 1.5 min |
| Aktiv KOS müştərilər | 3.3 min |
| Tam ştatlı işçilər | 3.1 min |
| Yeni qəbul edilmiş işçilər | 636 |
| İşçilərin dövriyyə nisbəti | 10% |

## 2.2. Missiyamız və strateji baxışımız




Müasir universal maliyyə qrupu kimi müştərilərimizin maliyyə ehtiyaclarını təmin etməkdir:

1. Maliyyə xidmətlərini hər kəs üçün əlçatan və əlverişli edərək
2. Ən qabaqcıl təcrübə və yenilikləri gətirərək
3. Biznes və insan kapitalını dəstəkləməklə ictimaiyyətimizi gücləndirərək
4. Azərbaycan iqtisadiyyatının inkişafına və dünyaya inteqrasiyasına töhfə verərək

Cənubi Qafqazda aparıcı universal maliyyə qrupu olmaqdır:

1. Müştərilərimizə üstün keyfiyyətli xidmət göstərməklə
2. İstedadlı və peşəkar liderlər üçün ən arzuolunan işəgötürən olmaqla
3. Səhmdarlarımıza ən yüksək mənfəət qazandırmaqla
4. Ən yüksək korporativ idarəetmə standartlarını tətbiq etməklə
5. Rəqəmsal gələcək üçün ən güclü tərəfdaşlıq yaratmaqla

## 2.3. Məqsədimiz və dəyərlərimiz

**Məqsədimiz: müasir maliyyə dünyasında etibarlı tərəfdaşınız olmaqdır.**



### 2.3.1. Dəyərlərimiz

| | | |
|---|---|---|
| Qətiyyətli dürüstlük | • Tərəfdaşlarımız qarşısında cavabdehlik əsas məsuliyyətimizdir.<br>• Gördüyümüz bütün işlərdə şəffaflığa riayət edirik. | • Öhdəliklərimizi ləyaqətlə yerinə yetiririk.<br>• Fəaliyyətimizdə nüfuzumuzu və etik davranış normalarını öndə tuturuq. |
| Müştəriyönümlü yanaşma | • Müştəriləri duyaraq onlara özəl xidmət təqdim edirik.<br>• Müştərlərimizə dəyər ötürərək onların inkişafına dəstək oluruq. | • Müştərilərimizlə qurduğumuz dərin münasibətlərlə onları daha yaxşı anlayırıq.<br>• Daha yüksək xidmət üçün müştəri ehtiyaclarından öndəyik. |
| İddialı liderlər | • Potensialımızı üzə çıxarmaq üçün komanda işinə üstünlük veririk.<br>• Fərdi nəticələri dəyərləndirir, nailiyyətləri alqışlayırıq. | • Ruhlandırıcı və çevik iş mühiti yaradaraq istedadları cəlb edir və inkişaf etdiririk.<br>• Missiyamızın daha yaxşı icrası üçün iddialı liderlər yetişdiririk. |
| İşimizdə mükəmməllik | • Bank olaraq vədlərimizi mükəmməl yerinə yetiririk.<br>• Yüksək standartlar üçün əzmkarlıqla inkişaf edirik. | • Düşünülmüş qərarlar verərək vaxtında addım atırıq.<br>• Hər işdə bütün təfərrüatları nəzərə alırıq. |
| Sahibkarlıq ruhu | • İnnovasiyaları tətbiq etməklə yeni imkanlar yaradırıq.<br>• Ən yaxşı məhsullar yaratmaq üçün işimizə kreativ yanaşırıq. | • Tərəfdaşlarla əlaqələr quraraq daha yaxşı nəticələr əldə edirik.<br>• Status-kvonu dəyişərək, bütün səviyyələrdə sahibkarlıq ruhunu dəstəkləyirik. |
| Ölçülmüş səmərəlilik | • Mövcud resurslardan səmərəli istifadə edərək müştərilər üçün daha çox dəyər yaradırıq.<br>• Ölçülmüş risklər götürərək yeni imkanlardan yararlanırıq. | • Hər işimizdə effektivliyi və məhsuldarlığı təşviq edirik.<br>• Məhdudiyyətlərdən ilhamlanaraq onları imkanlara çeviririk. |
| Vətəndaşlıq məsuliyyəti | • İctimai maraqlar naminə fəaliyyətimizdə məsuliyyətli davranırıq.<br>• Cəmiyyətimizin inkişafına dəstək oluruq. | • Ölkəmiz üçün yüksək ixtisaslı kadrlar yetişdiririk.<br>• Qısamüddətli çağırışlara rəğmən uzunmüddətli nəticələri düşünərək davranırıq. |

## 2.4. Mükafatlar

Cədvəl 1. Mükafatların illər üzrə bölgüsü

| İllər | Əsas nominasiyalarımız (2019-2022) | Təltif etmişdir |
|---|---|---|
| 2019 | MasterCard beynəlxalq ödəniş sistemi ABB-ni iki nominasiya üzrə mükafatlandırıb. ABB MasterCard debit kartlarının sayını ən çox artıran 1-ci bank mükafatına layiq görülüb. Bank Platinum kartlarının sayını ən çox artıran bank nominasiyası üzrə də lider olub. | MasterCard |
| | ABB Tech Akademiyası layihəsi | Beynəlxalq Əmək Təşkilatı və ASK |
| | "İlin Bankı" | "Euromoney" jurnalı |
| | ABB-nin fiziki məhdudiyyətli gənclərlə birgə həyata keçirdiyi "Kitabı dinlə" korporativ sosial məsuliyyət layihəsi "International CSR Excellence Award" mükafatına layiq görülüb. | International CSR Excellence Award |
| 2020 | "Ölkənin ən yaxşı bankı" | "Global Finance" jurnalı |
| 2021 | "Korporativ sosial məsuliyyət", "Ən fəal maliyyə savadlılığı dəstəkçisi", "Ən fəal təhsil dəstəkçisi", "Kiçik və Orta Biznesin maliyyə əlçatanlığının artırılması ilə əlaqədar tədbirlər keçirmiş ABA üzvü", "Nağdsız ödənişlərin təşviqi sahəsində tədbirlərlə fərqlənən ABA üzvü", "Elektron bankçılıq üzrə innovativ layihələr"nominasiyaları | Azərbaycan Banklar Assosiasiyası |
| | ABB MDB və Qafqaz ölkələri arasında kiçik və orta biznesə innovativ imkanlar yaradan 20 ən yaxşı bankın reytinqində öz yerini tutub. | SME Banking Club |
| | Ölkədə ilk dəfə dəmiryolu nəqliyyatında nağdsız ödənişlər texnologiyasının tətbiqi üzrə əməkdaşlığa görə | VISA |
| | ABB-nin yaratdığı ABB İnnovasiya Mərkəzi "Best Financial Innovation Labs" nominasiyasının qalibləri sırasındadır. | "Global Finance" jurnalı |
| | Pandemiya dövründə sürətlə dəyişən biznes mühitinə çevik uyğunlaşa bildiyinə və sağlam maliyyə vəziyyətinə görə "İlin Bankı" mükafatı | "The Banker" jurnalı |
| 2022 | Gənc mütəxəssislər üçün rəqəmsal bankçılıq və İT təlimləri istiqamətində aparılan işlərə, rebrendinq layihəsini uğurla həyata keçirdiyinə və kapital mövqeyinin güclənməsinə görə "İlin bankı" mükafatı | "The Banker" jurnalı |
| | Asiya və Sakit Okean regionunun il üzrə ən yaxşı banklarından biri | "Global Finance" jurnalı |



## 2.5. Nizamnamə kapitalının strukturu

**ABB-nin nizamnamə kapitalı 31.12.2022-ci il tarixinə 1,225,648 min AZN təşkil edib.**

31 dekabr 2022-ci il tarixində ABB-nin nizamnamə kapitalının strukturu belə olub:

Cədvəl 2. ABB-nin əsas səhmdarlarının siyahısı

| Səhmdarın adı | Məbləğ (min AZN-lə) | İştirak payı, % |
|---|---|---|
| Azərbaycan Respublikası | 1,181,121 | 96.37 |
| Aqrarkredit QSC | 2,815 | 0.23 |
| Müəssisələr | 4,255 | 0.35 |
| Fiziki şəxslər | 37,456 | 3.05 |

**ABB-nin törəmə müəssisələri:**

**ABB İnvest**

2020-ci ildə Bank "ABB-İnvest İnvestisiya Şirkəti" QSC (ABB İnvest) adı altında yeni törəmə müəssisə - investisiya şirkəti yaradıb. 2020-ci ildə ABB İnvest kapital bazarlarına nəzarət edən dövlət orqanından investisiya xidmətlərinin göstərilməsi üçün lisenziya alıb. Qısa müddət sonra Bakı Fond Birjasının və yerli mərkəzi depozitar və klirinq mərkəzi olan Milli Depozit Mərkəzinin üzvü olub. 2021-ci ilin yanvarında şirkət kapital bazarının peşəkar iştirakçılarının yerli assosiasiyası olan AFBIA-ya üzv qəbul edilərək tam miqyasda fəaliyyətə başlayıb.

ABB İnvest yerli və beynəlxalq kapital bazarlarında müştərilərinə həm əsas, həm əlavə investisiya xidmətləri göstərir. ABB İnvest-in əsas investisiya xidmətləri qiymətli kağızların anderraytinqini, brokerlik və marja ticarətini əhatə edir, lakin bunlarla da məhdudlaşmır. Şirkət qiymətli kağızların saxlanması, səhmlərin araşdırılması və əhatə olunmuş istiqrazların emitenti üçün etibarnamə xidmətləri kimi investisiya xidmətlərini də təmin edir.

**ABB Lizinq**

1999-cu ilə "Azərlizinq"in bazasında "Beynəlxalq Lizinq" QSC yaradılıb. 2002-ci ildə tam olaraq ABB-nin mülkiyyətinə keçib. 2007-ci ildə "Azərlizinq" Qapalı Səhmdar Cəmiyyəti statusunu alıb və transformasiya prosesindən keçərək "Beynəlxalq Lizinq Şirkəti" QSC kimi rebrendinq edilib. Mövcud olduğu müddətdə şirkət çoxsaylı yeniliklər tətbiq edib. Həm 2008, həm də 2013-cü illərdə ilin ən yaxşı lizinq şirkəti kimi tanınıb. Hazırda müxtəlif çeşidli lizinq məhsulları təqdim edir. 2022-ci ildə ABB müştəri sərmayələrinin təşviqi məqsədilə lizinq məhsullarını öz korporativ və KOS bölməsinə daxil edib.

**Azərikart**

Azərikart Azərbaycanın ilk prosessinq mərkəzidir. Hazırda yerli bankların əhəmiyyətli hissəsi bu prosessinq mərkəzi ilə əməkdaşlıq edir. Mərkəz hər il ardıcıl olaraq kibertəhlükəsizlik standartları üzrə PCI DS sertifikatına layiq görülür.

Azərikart VISA, MasterCard, American Express, Diners Club, Union Pay və JCB kimi qlobal liderlərlə əməkdaşlıq edir. Ölkədə NFC texnologiyası ilə ödəniş imkanı yaratmış ilk kart prosessinq mərkəzidir.

Ölkədə nağdsız ödəniş infrastrukturunun qurulması və inkişafında Azərikartın mühüm rolu var. Kart emissiyası, texniki xidmət, elektron əməliyyatlar şirkətin əsas gəlir mənbəyidir. 2022-ci ildən Azərikart yeni 3 illik strategiyanın icrasına başlayıb.

**ABB Moskva**

ABB Moskva 2002-ci ildə Rusiyada 100% Azərbaycan mülkiyyətində olan ilk bank kimi təsis edilib. Onun əsas fəaliyyətinə banklararası əməliyyatlar, həm korporativ, həm də pərakəndə müştərilərə xidmətlər daxildir. ABB Moskva Bankı məhdud məsuliyyətli cəmiyyət (MMC) statusunda fəaliyyət göstərir.



## 2.6. ABB-nin beynəlxalq reytinqləri

Cədvəl 3. Reytinq agentlikləri tərəfindən qiymətləndirmə

| Moody's | 16.04.2020 | 31.12.2021 | 09.09.2022 |
|---|---|---|---|
| Uzunmüddətli depozit | B1 | B1 | Ba3 |
| Qısamüddətli depozit | NP | NP | NP |
| Kredit ödəmə qabiliyyəti | B3 | B2 | b1 |
| Tənzimlənmiş kredit ödəmə qabiliyyəti | B3 | B2 | B1 |
| Uzunmüddətli qarşı tərəfin risk reytinqi | Ba3 | Ba3 | Ba2 |
| Qısamüddətli qarşı tərəfin risk reytinqi | NP | NP | NP |
| Proqnoz | Stabil | Pozitiv | Stabil |
| **Fitch** | **13.05.2020** | **31.12.2021** | **26.10.2022** |
| Uzunmüddətli emitentin defolt reytinqi | B- | B | BB- |
| Qısamüddətli emitentin defolt reytinqi | B | B | B |
| Dayanıqlılıq reytinqi | B- | B | bb- |
| Dəstək reytinqi | 5 | 5 | WD |
| SRF reytinqi | NF | NF | WD |
| Proqnoz | Stabil | Stabil | Stabil |

### Moody's

ABB-nin Ba3 uzunmüddətli depozit reytinqləri Bankın b1 səviyyəsindəki Baza Kredit Qiymətləndirilməsinə əsaslanır. Ehtiyac yarandıqda Azərbaycan hökumətinin dəstəyi ilə bağlı yüksək ehtimalı (Ba1 sabit) nəzərə alır. Bu ehtimal ABB-nin səhmlərinin əsas hissəsinin dövlətə aid olmasına, hökumətin bankın əmanət sahiblərinə maliyyə dəstəyi təcrübəsinə, eləcə də ABB-nin aktivlər üzrə, təxminən, 30%-ə yaxın bazar payı ilə Azərbaycanda sistem yaradan universal bank mövqeyinə əsaslanır. ABB-nin b1 səviyyəsində kredit ödəmə qabiliyyəti reytinqi Bankın güclü kapital adekvatlığı göstəriciləri, məhdud aktiv riski, yüksək likvidliyə malik balans hesabatı ilə dəstəklənir. Son bir neçə il ərzində ABB davamlı olaraq güclü kapital göstəriciləri nümayiş etdirməkdədir.

### Fitch

ABB-nin reytinqləri onun dayanıqlılıq reytinqi (VR; bb-) ilə əks olunan daxili kredit gücü ilə müəyyən edilir. ABB-nin dayanıqlılıq reytinqi Bankın güclü balans hesabatı strukturunu əks etdirir və bu, sağlam maliyyə göstəricilərinə çevrilir. Dayanıqlılıq reytinqi Bankın dövlətlə sıx əlaqələrinə də əsaslanır. 2022-ci ilin sonunda ümumi kreditlər cəmi aktivlərin 24%-ni təşkil edirdi. Qeyri-kredit riskləri isə, əsasən, ən azı "BB+" keyfiyyətindədir. Balans hesabatının belə strukturu ABB-nin aktivlərinin üstün keyfiyyətini, yüksək gəlirlilik əmsallarını göstərir, Bank üçün güclü kapital mövqeyinə və likvidlik buferinə çevrilir.

# HESABAT HAQQINDA




Hesabat haqqında ........ 20
3.1. Hesabatın profili ........ 20

3.

# 3. Hesabat haqqında

GRI 2021 Standartları maliyyə cəhətdən əhəmiyyətli davamlılıq məlumatlarını müəyyənləşdirmək və hesabat vermək üçün biznesə rəhbərlik etməkdə mühüm rol oynayır. GRI Standartları maraqlı tərəflərin gözləntilərinə və sektor təsirlərinə diqqət yönəldir, həmçinin şirkətləri davamlılıq performanslarını ölçmək, idarə etmək və şəffaf şəkildə hesabat vermək üçün təlimatlandırır. ABB 2022-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatını (bundan sonra "Hesabat") təqdim edir, burada beynəlxalq səviyyədə qəbul edilmiş prinsiplərə, qabaqcıl təcrübələrə istinadən Bankın əməliyyatları, təcrübələri və əhəmiyyətli mövzuları üzrə açıqlamalar verir.

## 3.1. Hesabatın profili

ABB inanır ki, dayanıqlılıq və uzunmüddətli dəyərləri təmin etmək bir-birindən asılıdır. Buna görə hesabata əməliyyat və maliyyə göstəriciləri ilə yanaşı, dayanıqlılıq üzrə öhdəliklərimiz və davamlı biznes təcrübələrimiz də əlavə edilmişdir. Hesabatda 1 yanvar 2022-ci il və 31 dekabr 2022-ci il tarixləri arasında olan dövr üzrə maliyyə və qeyri-maliyyə fəaliyyətimiz, nailiyyətlərimiz haqqında məlumatlar təqdim olunur.

Maliyyə hesabatı ABB Qrupunun, eləcə də onun əsas törəmə müəssisələrinin bütün maliyyə əməliyyatlarını əhatə edir. Qeyri-maliyyə açıqlamaları isə yalnız Bankın fəaliyyətinə aiddir.

Bu Hesabatda açıqlanan maliyyə göstəriciləri Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğundur. Bəzi əlavə iqtisadi açıqlamalar Bankın daxili sənədlərindən götürülüb. Səhmdarlarımıza və investorlarımıza faydalı məlumatlar vermək, onlarda fəaliyyət nəticələrimiz haqqında daha geniş təsəvvür yaratmaq üçün bu göstəriciləri daxil etmişik.

Hesabatın bütün əhəmiyyətli mövzuları əhatə etməsi və maraqlı tərəflərimizin gözləntilərinə cavab verməsi üçün Bank bu standartlara, təlimatlara, çərçivələrə istinad edib:

- GRI 2021 Standartları
- Dayanıqlılıq üzrə Mühasibat Uçotu Standartları Şurasının (SASB) Kommersiya Bankları üçün Müvəqqəti Standartı
- BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (SDG)

Növbəti hesabatlarımızda açıqlamaların əhatə dairəsini daha da genişləndirəcək və dayanıqlılıq sahəsində inkişaf etməkdə olan tələbləri nəzərə alacağıq.



### Aktiv müştəri meyarları

**Pərakəndə bankçılıq müştəriləri**

- Son 3 ay ərzində ən azı 1 debet əməliyyatı etmiş müştərilər
- Son 1 ayda balansında 100 AZN və daha yuxarı ödənilməmiş qalıq olan müştərilər
- Ödəmə müddəti 90 günü keçməmiş, aktiv kreditə malik müştərilər

**Biznes bankçılıq müştəriləri**

**İri korporativ müştərilər**

- İl ərzində üçün 100K+ AZN/USD/EUR/digər CFX dövriyyə

**Kiçik və orta sahibkarlar (KOS)**

- İl ərzində üçün 100K+ AZN/USD/EUR/digər CFX dövriyyə

**ABB mobile müştəriləri**

- Hesabat ayında ən azı bir əməliyyat və ya ödəniş həyata keçirmiş müştərilər (dekabr 2022)

**İnternet Bankçılıq müştəriləri**

- Hesabı açıq statusda olan müştərilər

### Gələcəyə baxış

Bu Hesabatda strateji inkişaf, əməliyyatlar, likvidlik, nailiyyətlərlə bağlı Bankın gələcək məqsədləri, inam və gözləntiləri əks olunur. Hesabat həmçinin təşkilatın strukturu, idarəetmə və əsas maraqlı tərəflər haqqında məlumatları, eləcə də təşkilatın missiyası, dəyərləri, strategiyalarını əks etdirir. Hesabat boyu gələcəyə dair bəyanatlar bazar və iqtisadi şəraitə, risklərə, tənzimləyici mühitə, məqsədlərimizin həyata keçirilməsinə təsir edə biləcək digər amillərə əsaslanır.

### Əhəmiyyətlilik təhlili

Əhəmiyyətlilik təhlili təşkilatın ən əhəmiyyətli iqtisadi, ətraf mühit və sosial təsirlərini müəyyənləşdirmək, prioritetləşdirmək üçün mühasibat uçotu, dayanıqlılıq hesabatı və risklərin idarə edilməsi də daxil olmaqla müxtəlif sahələrdə istifadə olunan prosesdir. O, təşkilatlara hansı məsələlərin biznes və maraqlı tərəflər üçün əhəmiyyətli, yaxud uyğun olduğunu müəyyənləşdirməyə kömək göstərir. Dayanıqlılıq hesabatı üçün təlimatları təmin edən GRI 2021 standartları əhəmiyyətlilik təhlilinin vacibliyini vurğulayır.

ABB olaraq anlayırıq ki, daxili və xarici maraqlı tərəflərimiz üçün vacib mövzuların müəyyənləşdirilməsi və təhlili əməliyyatlarımızın effektivliyini təmin etməkdən ötrü vacibdir. Biz müntəzəm olaraq maraqlı tərəfləri cəlb edərək onların qərarlarımızda, strategiya və hesabatlarımızda əks olunmasını təmin edirik.

Bank əhəmiyyətlilik prosesi vasitəsilə maraqlı tərəflər üçün ən vacib məsələləri müəyyənləşdirir. Bu Hesabat da bir neçə mənbəyə əsaslanan və təhlil vasitəsilə müəyyən edilmiş əhəmiyyətli məsələlər əsasında strukturlaşdırılıb.

Xarici maraqlı tərəflər üçün mövzunun əhəmiyyətini qiymətləndirməkdən ötrü bu mənbələri araşdırdıq:

- Media icmalı və ən yaxşı təcrübələrin təhlili;
- Sənaye trendləri və rəqib hesabatlarının təhlili;
- GRI, SASB, UNEP FI prinsipləri, IFC tövsiyələri və s. kimi universal və sektora xas çərçivələrin təhlili;

Daxili maraqlı tərəflər üçün müvafiq mövzuların əhəmiyyətliliyini qiymətləndirməkdən ötrü daxili mənbələrə də istinad etdik:

- Tətbiq olunan siyasətlər və ABB-nin 2020-2022-ci illər üzrə inkişaf strategiyası
- Daxili proseslərin və nəzarət vasitələrinin, məhsul və xidmətlərin nəzərdən keçirilməsi
- Müvafiq struktur bölmələrdə əsas heyət və icraçı rəhbərliklə müsahibələr

Əhəmiyyətlilik təhlilinin nəticələrinə əsasən biz Cədvəl 4-də təqdim olunduğu kimi 13 əhəmiyyətli mövzu müəyyən etdik.

### Əhəmiyyətli mövzuların DİM ilə əlaqələndirilməsi

Dayanıqlı İnkişaf Məqsədləri (DİM) dayanıqlı inkişaf üzrə 2030 gündəliyinin bir hissəsi kimi 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv dövlətlər tərəfindən qəbul edilmiş 17 qlobal məqsədin toplusudur.

Biz ölkənin ən böyük dövlət bankı kimi öz öhdəliklərimizi anlayır, Azərbaycan hökumətinin DİM-lərə əməl etmək öhdəliyinə töhfə verməyə çalışırıq. Aşağıda Bankımızın strategiyası çərçivəsində DİM-lərlə bağlı təşəbbüslərin, kampaniyaların struktur təsviri verilib:

## ABB-nin DİM-lərə töhfəsi

Banklar öz fəaliyyətlərini və əməliyyatlarını hədəflərə uyğunlaşdırmaqla və onlara nail olmaq üçün çalışmaqla DİM-lərə töhfə verməkdə mühüm rol oynayırlar. ABB DİM-lərə bu vasitələrlə töhfə verir:

**Cədvəl 4.** Əhəmiyyətli mövzuların siyahısı

| Əhəmiyyətli mövzular | Müvafiq məqsədlər | Töhfələr |
|---|---|---|
| Rəqəmsallaşma və innovasiya | 8 Layiqli əmək və iqtisadi artım; 9 Sənaye, innovasiya və infrastruktur | Xidmətlərin əlçatanlıq sürətinin saxlanılması, rəqəmsallaşma<br>Pərakəndə və korporativ müştərilər üçün ABB mobile tətbiqinin funksionallığının genişləndirilməsi<br>Hüquqi şəxslərin və sahibkarların Bankın korporativ xidmətlərinə daha sürətli və asan çıxışı üçün İnternet Bankçılıq xidmətinin təkmilləşdirilməsi<br>Gözləmə və xidmət müddətini azaltmaqdan ötrü xidmətlərin davamlı avtomatlaşdırılması və optimallaşdırılması<br>**Əlavə məlumat üçün hesabatın 6 və 7-ci bölmələrinə müraciət edin.** |
| Maliyyə | 1 Yoxsulluğa son; 8 Layiqli əmək və iqtisadi artım; 9 Sənaye, innovasiya və infrastruktur; 10 Bərabərsizliyin azaldılması; 17 Məqsədlər üçün tərəfdaşlıq | ABB mobile vasitəsilə maliyyə xidmətlərinə əlçatanlığın artırılması<br>Ölkənin bütün regionlarında geniş ATM və terminallar şəbəkəsinin təmin edilməsi<br>Sahibkarların təlimi, bacarıqlarının, maliyyə savadlılıqlarının artırılması üçün dövlət qurumları ilə əməkdaşlıq<br>Həm daxili, həm dövlət vəsaitləri hesabına sərfəli ipoteka kreditləri<br>Hesabatda ətraflı məlumat verilir. |



| Əhəmiyyətli mövzular | Müvafiq məqsədlər | Töhfələr |
|---|---|---|
| Maliyyə və iqtisadiyyat | 1 Yoxsulluğa son; 8 Layiqli əmək və iqtisadi artım; 9 Sənaye, innovasiya və infrastruktur; 17 Məqsədlər üçün tərəfdaşlıq | İnkişaf etməkdə olan bizneslər üçün şaxələndirilmiş maliyyə məhsulları hazırlamaq və təklif etməklə iqtisadi fəaliyyətə və sahibkarlığa təkan vermək<br>Müxtəlif müştəri qruplarına fərdi yanaşma təklif etmək üçün müştəri seqmentasiyasını genişləndirmək<br>Müştəri məmnuniyyətini və loyallığını artırmaq<br>Səhmdarlara dividendlərin sabit və təhlükəsiz ödənilməsini təmin etmək<br>**Əlavə məlumat üçün Hesabatın 7-ci bölməsinə baxın.** |
| Risklərin idarə edilməsi | 16 Sülh, ədalət və səmərəli institutlar; 17 Məqsədlər üçün tərəfdaşlıq | Risklərin idarə edilməsi strategiyası və risklərin qiymətləndirilməsi siyasəti ilə idarə olunan effektiv risk idarəetmə sisteminin həyata keçirilməsi<br>Pərakəndə satış seqmenti üçün qiymətləndirmə və avtomatlaşdırılmış qərar modellərinin hazırlanması, tətbiqi<br>İllik risk xəritəsinin mütəmadi nəzərdən keçirilməsi, xəritənin yenilənməsi<br>**Əlavə məlumat üçün Hesabatın 9-cu bölməsinə baxın.** |
| Öyrənmə və inkişaf | 4 Keyfiyyətli təhsil; 8 Layiqli əmək və iqtisadi artım; 10 Bərabərsizliyin azaldılması | Əməkdaşların əsas və əlavə bacarıqlarının inkişafı üçün müasir təlim proqramlarının keçirilməsi<br>Potensialın artırılması məqsədilə yeni Təlim Mərkəzinin istifadəyə verilməsi, istedadların inkişafı<br>Müxtəlif proqramlar vasitəsilə xarici maraqlı tərəflərin təlim, təhsil, kouçinq məqsədilə cəlbi<br>**Əlavə məlumat üçün Hesabatın 8-ci bölməsinə baxın.** |

| Əhəmiyyətli mövzular | Müvafiq məqsədlər | Töhfələr |
|---|---|---|
| Məşğulluq, müxtəliflik | 5 Gender bərabərliyi; 10 Bərabərsizliyin azaldılması; 16 Sülh, ədalət və səmərəli institutlar | İşəqəbul siyasətimizlə proseslərin ədalətliliyinin və müxtəlifliyin təşviqi.<br><br>Hərtərəfli daxili siyasət və qaydalar vasitəsilə müxtəlifliyin, bərabər imkanların təmin edilməsi<br><br>Yaranan narahatlıqları dərhal müəyyən etmək və azaltmaq üçün işçilərlə daimi ünsiyyət<br><br>İstedadların cəlbini, yetişdirilməsini təmin etmək üçün təhsil müəssisələri ilə əməkdaşlıq<br><br>**Əlavə məlumat üçün Hesabatın 8-ci bölməsinə baxın.** |
| Maraqlı tərəflərin iştirakı | 16 Sülh, ədalət və səmərəli institutlar; 17 Məqsədlər üçün tərəfdaşlıq | Daxili və xarici maraqlı tərəflərlə müntəzəm kommunikasiya kanallarının qurulması<br><br>Ardıcıl, şəffaf hesabatlar vasitəsilə illik fəaliyyət göstəricilərimizin, nəticələrimizin əsas maraqlı tərəflərə, tənzimləyicilərə açıqlanması<br><br>**Əlavə məlumat üçün Hesabatın 9-cu bölməsinə baxın.** |
| Sosial və icma investisiyaları | 1 Yoxsulluğa son; 5 Gender bərabərliyi; 10 Bərabərsizliyin azaldılması; 11 Dayanıqlı şəhərlər və icmalar; 16 Sülh, ədalət və səmərəli institutlar; 17 Məqsədlər üçün tərəfdaşlıq | Gənc istedadların cəlbi və gənclərin məşğulluq imkanlarının təmin edilməsi üçün sosial layihələrin həyata keçirilməsi<br><br>Yerli icmaların həyat səviyyəsini və sosial rifahını yaxşılaşdırmaq üçün dövlət qurumları ilə əməkdaşlıq<br><br>KSM təşəbbüslərimizin əhatə dairəsinin daim genişləndirilməsi<br><br>**Əlavə məlumat üçün Hesabatın 8-ci bölməsinə baxın.** |
| Korrupsiya, fırıldaqçılıq və çirkli pulların yuyulmasına qarşı mübarizə | 10 Bərabərsizliyin azaldılması; 16 Sülh, ədalət və səmərəli institutlar | Etik Kodeks və Korrupsiyaya Qarşı Mübarizə Siyasətimizə uyğun olaraq müntəzəm antikorrupsiya təlimlərinin keçirilməsi<br><br>Korrupsiyaya qarşı mübarizə proseslərinə Bankın Daxili Audit Departamenti tərəfindən nəzarət<br><br>**Əlavə məlumat üçün Hesabatın 9-cu bölməsinə baxın.** |



| Əhəmiyyətli mövzular | Müvafiq məqsədlər | Töhfələr |
|---|---|---|
| İdarəetmə və ESG meyarlarına inteqrasiya | 10 Bərabərsizliyin azaldılması; 13 İqlim dəyişkənliyinə qarşı mübarizə; 15 İqlim dəyişkənliyinə qarşı mübarizə; 16 Sülh, ədalət və səmərəli institutlar; 17 Məqsədlər üçün tərəfdaşlıq | Strateji qərarların qəbulunda ESG meyarlarına inteqrasiyanın inkişafı<br><br>Daxili və xarici resursların məsuliyyətlə istehlak olunmasının təşviqi<br><br>**Əlavə məlumat üçün Hesabatın 8-ci bölməsinə baxın.** |
| Korporativ idarəetmə və hesabatlılıq | 10 Bərabərsizliyin azaldılması; 16 Sülh, ədalət və səmərəli institutlar; 17 Məqsədlər üçün tərəfdaşlıq | Güclü korporativ dəyərlərin və strateji məqsədlərin baza xəttinin yaradılması<br><br>Əməliyyatların şəffaflığını, hesabatlılığını, onlar üzərində nəzarəti və effektivliyi təmin etmək üçün korporativ idarəetmə sistemimizin təkmilləşdirilməsi<br><br>**Əlavə məlumat üçün Hesabatın 9-cu bölməsinə baxın.** |
| İşçilərin rifahı | 3 Yaxşı səhiyyə və rifah; 8 Layiqli əmək və iqtisadi artım | İş yerində təhlükəsizliyin, rifahın təmin edilməsi, sağlam həyat tərzinin təbliği<br><br>**Əlavə məlumat üçün Hesabatın 8-ci bölməsinə baxın.** |
| Müştəri təcrübəsi və məmnuniyyət | 8 Layiqli əmək və iqtisadi artım; 9 Sənaye, innovasiya və infrastruktur; 10 Bərabərsizliyin azaldılması | Xidmətlər ekosistemimizin müştərilər üçün əlçatanlığını artırmaq məqsədilə istifadəçi dostu həllərin, proqramların hazırlanması<br><br>Ümumi müştəri təcrübəsini artırmaqdan ötrü xidmətlərin davamlı avtomatlaşdırılması və optimallaşdırılması (müştərinin vaxtına əhəmiyyətli dərəcədə qənaət edən, həm də ekoloji cəhətdən müsbət bir seçim olan e-imza buna nümunədir)<br><br>**Əlavə məlumat üçün Hesabatın 7-ci bölməsinə baxın.** |

# İDARƏETMƏ TƏHLİLİ

# 4.

İdarəetmə təhlili ........................................ 28

# 4. İdarəetmə təhlili

Əməliyyat nəticələrinin hərtərəfli müzakirəsinin və təhlilinin təmin edilməsi potensial investorlara və müxtəlif maraqlı tərəflərə Bankın maliyyə əsaslarını anlamaqda kömək göstərir. Bu həmçinin, menecmentin gələcəyə strateji baxışı və fəaliyyəti haqqında fikir əldə etməyə şərait yaradır.

Son illər dünya müxtəlif problemlərlə, o cümlədən Rusiya-Ukrayna müharibəsi kimi münaqişələrlə üz-üzədir. Bu münaqişələr maliyyə bazarlarında təlatümlərə səbəb olmuş və qlobal iqtisadiyyatın bərpası ilə bağlı qeyri-müəyyənlikləri artırmışdır. Bununla yanaşı, əmtəə qiymətlərinin artması, uzunmüddətli yüksək inflyasiya təhlükəsinin güclənməsi, staqflyasiya və sosial narazılıqların artması kimi digər risklər də meydana gəlmişdir. Geosiyasi vəziyyət qlobal iqtisadi artıma mənfi təsir göstərmiş və nəticədə 2022-ci ildə 3.1%-ə qədər geriləmə müşahidə olunmuşdur.

Problemlərin ciddiliyinə, qlobal miqyasına baxmayaraq, bunların ölkə iqtisadiyyatına və potensial ÜDM dinamikasına mənfi təsirləri uzun sürmədi. Vəziyyətin müsbətə doğru dəyişməsi 2022-ci ildən başlayaraq ölkədə iqtisadi artımın bərpasına şərait yaradan Azərbaycan hökumətinin vaxtında və yaxşı təşkil edilmiş tədbirləri ilə əlaqəlidir.

Bank menecmenti nüfuzlu qlobal nəşrlərin də proqnozlaşdırdığı kimi, 2023-cü ildə ÜDM-in əsas real artımının, təxminən, 2,7% olacağını təxmin etməklə iqtisadiyyatın mülayim templə yüksələcəyini gözləyir. Ölkənin iqtisadi vəziyyətinin daha da yaxşılaşması üçün əlavə dəstəkləyici amil neftin qiymətinin 2022-ci il dövlət büdcəsində ilkin olaraq nəzərdə tutulan qiymətlərlə müqayisədə gözləniləndən yüksək olmasıdır. Neft və qaz gəlirlərindəki bu artım mənfi şoklar zamanı yerli valyutanın hər hansı potensial ucuzlaşmasına qarşı müsbət bufer yaradır.

Azərbaycanda bank sektoru yüksək rəqabətə davamlı olmaqla yanaşı, nəzərəçarpacaq dərəcədə artım müşahidə edir və maliyyə savadlılığı artmaqda olan, əhalidən faydalanır. Bu da, öz növbəsində maliyyə inklüzivliyini təşviq edir və miqyas iqtisadiyyatının təsiri əsasında bankların gəlirliliyini artırır. Banklar rəqəmsal imkanlarını təkmilləşdirmək, möhkəm kibertəhlükəsizliyi təmin etmək üçün böyük sərmaye qoyaraq əməliyyatlarını modernləşdirir. Bu irəliləyişlərlə yanaşı, banklar müştərilərin təcili və ortamüddətli ehtiyaclarını daha yaxşı qarşılamaq üçün fiziki filial xidmətlərini də təkmilləşdirirlər.

İqtisadi artıma uyğun olaraq Bank menecmenti yerli kredit portfelində, eləcə də bank sektoru aktivlərinin həcmində davamlı artım gözləyir. Daha sərt anderraytinq proseslərini tətbiq edən son tənzimləyici tədbirlər sektorda korporativ idarəetməni təkmilləşdirərək, biznes modelləri daxilində potensial sistematik riskləri və inflyasiyanı azaltmışdır.

**22%** 2022-ci ildə bank sektorunun ümumi aktivlərinin həcmi əhəmiyyətli dərəcədə artıb.

**47 milyard AZN** Bank sektorunun ümumi aktivlərinin həcmi



**35%** bank aktivlərinin ÜDM-ə nisbəti

Bütün bank sektorunun rentabelliyi və kapital adekvatlığı göstəriciləri bankın sağlam vəziyyətindən xəbər verir. Bank menecmenti baza ssenarisi üzrə növbəti illərdə gəlirlilik və kapital adekvatlığı tədbirlərində daha da sabitliyi proqnozlaşdırır. Azərbaycan Mərkəzi Bankının inflyasiya ilə bağlı intizamlı hədəfləmə siyasəti, hökumətin təkmil və şəffaf büdcə yanaşması Bank menecmentinin gözləntilərini doğruldur və hər hansı gözlənilməz hadisələrdən yayınmaq üçün aydın istiqamət verir.

2022-ci ildə Azərbaycan Mərkəzi Bankı 2023-2026-cı illər üzrə strateji baxışını əks etdirən Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsini təqdim etdi. Sənəddə iki məqsədə sadiqlik ifadə olunur. Birincisi: ekoloji, sosial və idarəetmə (ESG) risklərinin effektiv həlli ilə maliyyə sektorunun dayanıqlılığını təmin etmək. İkincisi: xüsusilə diqqət mərkəzində olan yaşıl maliyyə imkanlarından istifadə və yaşıl investisiyaların cəlbi.

## Maliyyə performansı

2022-ci ildə Bank yerli GAAP standartlarında əvvəlki illə (2021) müqayisədə nəzərə çarpacaq irəliləyiş əldə edib. Bankın xalis faiz gəlirləri büdcə gözləntilərini üstələyərək 134 milyon manat dəyərində əhəmiyyətli yaxşılaşma ilə ümumilikdə 468 milyon manata çatıb. Bu müsbət irəliləyişlər qeyd olunan dövrdə Bankın güclü maliyyə göstəriciləri və artımından xəbər verir. 2022-ci ildə Bank xidmət keyfiyyətinin, işçilərin məmnunluğunun yüksəldilməsi və rəqəmsallaşmanın tətbiqi səyləri sayəsində gəlirdə nəzərəçarpacaq artıma nail olub. Bu tədbirlər nəticəsində xalis gəlir **MHBS standartlarına** əsasən əvvəlki ilin maliyyə hesabatları ilə müqayisədə 149 milyon manat artıb.

Bank anderraytinq siyasətini təkmilləşdirib. Pərakəndə, korporativ və KOS biznes istiqamətləri üçün yeni funksiyaları olan təkmilləşdirilmiş CRM (Customer Relationship Management) modelini təqdim edib. İnternet Bankçılıq xidmətlərinə və rəqəmsal bankçılıq məhsullarına sərmayə qoymaqla bütün seqmentlər üzrə daha böyük müştəri bazasını cəlb edib. Onların rahat istifadə etmələri üçün əlverişli bank xidmətləri yaradıb. Bundan əlavə, Bank inkişaf edən tənzimləyici tələblərə, daim dəyişən biznes reallıqlarına uyğun risk idarəetmə modeli qurub. Mühasibat uçotu, büdcə siyasəti və audit sistemini yeniləyib. Bu tədbirlər dinamik biznes mühiti şəraitində yeni qaydalara uyğunluğu təmin etmək və səmərəliliyi qorumaq məqsədi daşıyır. Nəticədə Bank öz əməliyyatlarını gücləndirib, müştəri təcrübəsini yaxşılaşdırıb və bankçılıqla bağlı müasir çağırışlara, imkanlara uyğunlaşıb. Bank menecmenti gələcəkdə prosesləri, təşkilati strukturları ardıcıl təkmilləşdirməklə Bankın strateji məqsədlərinə nail olmağa çalışır. Kibertəhlükəsizlik və müştəri məmnuniyyətinin prioritetləşdirilməsinə güclü diqqət yetirməklə, Bankın səmərəliliyinin artırılmasını, yeni məhsulların yaradılmasını, mövcud məhsulların yenilənməsini təmin edir. Bu səylər daha yüksək gəlir qazanmaq və Bankın inkişaf imkanlarını genişləndirmək məqsədi daşıyır.

Faydalı link və resurslar:

- https://uploads.cbar.az/assets/FSR_2022%20annual_eng.pdf
  Bank aktivlərinin ÜDM-ə nisbəti 35%
- https://www.rand.org/blog/2023/03/consequences-of-the-war-in-ukraine-the-economic-fallout.html#:~:text=The%20war%20in%20Ukraine%20was,to%202.2%20percent%20in%202023.
  2022-ci ildə qlobal iqtisadiyyatda yavaşlama (3.1%)
- https://bm.ge/en/news/imf-forecasts-3-growth-in-azerbaijans-gdp-/131538#:~:text=The%20Azerbaijani%20government%20predicts%20the,by%202.5%25%20compared%20to%202022.
  ÜDM-in artım tempi proqnozu (2.7%)

# AZƏRBAYCANDA BANK SEKTORUNUN İCMALI



# 5.

Azərbaycanda bank sektorunun icmalı ..................... 32

# 5. Azərbaycanda bank sektorunun icmalı

Şəkil 1. Əsas makroiqtisadi göstəricilər




ABB sürətlə dəyişən bazar şərtləri və iqtisadi dəyişikliklər nəticəsində yarana biləcək potensial riskləri qabaqcadan görmək və qabaqlayıcı tədbirlər həyata keçirmək üçün qlobal və ölkəyə xas iqtisadi-maliyyə meyllərini izləyir. Biz fəaliyyətimizi, strategiyamızı Azərbaycanın maliyyə və fiskal tənzimləmə mühitinə uyğunlaşdırırıq. Sabitləşmə mərhələsindən (2016-2018) və davamlı inkişaf üçün əsasların qurulmasından (2019-2022) sonra ABB gəlirlilik, əməliyyat səmərəliliyi və maliyyə sabitliyində nəzərəçarpacaq artım əldə edə bilib.

2022-ci ildə qlobal geosiyasi gərginliklər, fond birjalarında baş verən dalğalanmalar, aparıcı ölkələrdə pul siyasətinin davamlı sərtləşdirilməsi və ticarət tərəfdaşı olan ölkələrdə inflyasiyanın artması Azərbaycanda inflyasiya səviyyəsinə təsir göstərib və 2022-ci ildə orta hesabla 13,9% təşkil edib. Buna əsasən ərzaq məhsullarının qiymətlərinin yüksəlməsi səbəb olub. Bütün bunlara baxmayaraq, ölkə real ÜDM-də 4,6% (qeyri-neft sektorunun payı 46% olmaqla 133,8 mlrd. manat) və adambaşına düşən ÜDM-də 4,1% (13,3 min AZN) artımla iqtisadi dayanıqlılıq nümayiş etdirib. Diversifikasiyaya doğru irəliləyişlə hökumət qeyri-neft sektoru üçün əsas kapitala ümumi resursların 70,4%-ni ayırıb. Bu, müxtəlif sənaye sahələrini gücləndirmək və canlandırmaq öhdəliyinə işarədir.

2022-ci ildə Azərbaycan bankları xarici şoklara qarşı dayanıqlılıq nümayiş etdirib. Risklərin idarə edilməsi və aktivlərin keyfiyyətinin



yaxşılaşdırılması kredit riskinin azalmasına səbəb olub, makro-prudensial düzəlişlər isə prosesə dəstək verib. Valyuta və likvidlik risklərinə nəzarət edilib. Azərbaycan Mərkəzi Bankı uçot dərəcəsini 7,25%-dən 8,25%-ə qaldırıb və yuxarı həddi 9,25%-ə çatdıraraq, fəal reaksiya nümayiş etdirib.

Yaxın bir neçə il üçün makroiqtisadi gözləntilərə aşağıdakılar daxildir:

- Real ÜDM-in hər il orta hesabla 3-4%, qeyri-neft artımının isə 5-6% artacağı gözlənilir.
  *Mənbə: https://e-qanun.az/framework/50013*
- Nominal ÜDM və ÜDM artımı: 2022-ci ildə nominal ÜDM-in 133.8 milyard manata yüksəlməsinə yüksək neft qiymətləri və yüksək inflyasiya səbəb olub.
  *Mənbə: https://uploads.cbar.az/assets/ca7a4b6c03edafd2d0219a937.pdf CBAR FSR report*
- 2023-2025-ci illər ərzində dövlət neftin qiymətinin 50 ABŞ dolları civarında olacağını, illik və orta illik baza inflyasiyasının müvafiq olaraq 14% və 11,7% olacağını gözləyir.
  *Mənbə: https://uploads.cbar.az/assets/ca7a4b6c03edafd2d0219a937.pdf CBAR FSR report*
- Qlobal inflyasiya və tənəzzül: dünyanın aparıcı iqtisadiyyatlarında inflyasiya və faiz dərəcələrində sonrakı artım iqtisadiyyatları zəiflədə bilər (Azərbaycan üçün daha yüksək idxal inflyasiyası).
- Neft və qazın qiyməti: aşağı neft və qaz qiymətləri ÜDM və valyuta məzənnələrinə təzyiq göstərə bilər.
  *Mənbə: oil and gas prices, global inflation and Russia-Ukraine strategiya 2023-25*
- Rusiya-Ukrayna müharibəsi qlobal qida və enerji qiymətlərinə təsir edib.

Şəkil 2. Bank sektorunun icmalı



## Azərbaycan iqtisadiyyatı

| | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 | 2025 |
|---|---|---|---|---|---|---|---|---|
| ÜDM-ə nisbətdə kredit | 16% | 18% | 20% | 18% | 15% | 20% | 21% | 23% |
| Aktivlərə nisbətdə kredit | 43% | 46% | 43% | 44% | 42% | 48% | 49% | 50% |
| Ümumi kreditlər, mln AZN | 12,6 | 14,9 | 14,2 | 17,0 | 20,0 | 21,0 | 23,2 | 25,6 |

9% is 2019-22 CAGR,%

10% 2022-25 CAGR,%

| 2022-ci il üzrə ÜDM-ə nisbətdə kredit | | | |
|---|---|---|---|
| Digər ölkələrlə müqayisə | Qazaxıstan 24% | Türkiyə 53% | Gürcüstan 74% |

Azərbaycanın dinamik maliyyə mənzərəsində ümumi aktivlərin 90%-dən çoxuna sahib olan kommersiya bankları üstünlük təşkil edir. 2022-ci ilə kimi fəaliyyət göstərən, 23-ü özəl, 2-si dövlətə məxsus olan 25 bankla sektor canlılıq, müxtəliflik nümayiş etdirir. Qeyd edək ki, əmanətlər bankların maliyyələşdirilməsinin əsası kimi ümumi öhdəliklərin 81.5%-ni təşkil edir. Mühüm payın 66%-i hüquqi şəxslərə aiddir, müştərilərə verilən kreditlər ümumi aktivlərin 42%-ni təşkil edir ki, onların 94%-i xalis kreditlərdir. Artım və inkişaf göstəricisi kimi 2021-ci illə müqayisədə ümumi aktivlərdə və öhdəliklərdə 22% və 24% artım var.

2022-ci ilin maliyyə mənzərəsi fonunda bank sisteminin resurs bazası çiçəklənib. Bütün müştəri kateqoriyalarını əhatə edən depozit portfelində əvvəlki illə müqayisədə nəzərəçarpacaq 25% artım baş verib. Bundan əlavə, banklar xalis mənfəətlərini 50% artıraraq 916 milyon manata çatdıra biliblər.

2022-ci ildə kapitalın adekvatlığı əmsalında artım müşahidə edilib: 0,2 bənd artaraq 19,3%-ə çatıb. Bu da minimum prudensial tələblərdən iki dəfə çoxdur.

Azərbaycan Mərkəzi Bankı faiz dəhlizinin inflyasiya ilə uyğunlaşdırılması məqsədilə 2022-ci ilin sentyabr ayından pul siyasəti alətlərinin yeni konfiqurasiyasına başlayıb. Bu strateji dəyişiklik likvidliyin idarə olunmasına müsbət təsir göstərir. Faiz dərəcələrinə həssaslığı artırmağa, təkmilləşdirilmiş kreditləşmə təcrübələrini təşviq etməyə və çiçəklənən maliyyə mənzərəsi üçün daha rəqabətli bazar mühitinə zəmin yaradır. Mərkəzi Bankın 2023-2026-cı illər üçün Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini əhatə edir və maliyyə sektoruna ölkənin davamlı inkişafında əsas rol oynamağa imkan verir. Yol Xəritəsinin əsas məqsədi mikro, kiçik və orta müəssisələr üçün maliyyə imkanlarının genişləndirilməsi də daxil olmaqla davamlı maliyyəni təşviq etməkdir.



## Azərbaycan iqtisadiyyatı

| | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 | 2025 |
|---|---|---|---|---|---|---|---|---|
| Depozitlərə kreditlər | 62% | 70% | 68% | 62% | 58% | 70% | 73% | 75% |
| Ümumi əmanətlər, mln AZN | 20,3 | 21,4 | 20,7 | 26,9 | 33,8 | 30,1 | 31,9 | 34,0 |

| 2022-ci il üzrə depozitlərə kreditlər | | | |
|---|---|---|---|
| Digər ölkələrlə müqayisə | Qazaxıstan 122% | Türkiyə 71% | Gürcüstan 108% |

*Mənbə: (Azərbaycan üçün): Mərkəzi Bank. 2022-2025-ci illər üçün proqnozlar ekspert əsaslıdır və 2022-2026-cı illər sosial inkişaf strategiyasına uyğundur.*
*Mənbə: (Qazaxıstan, Türkiyə, Gürcüstan üçün): müvafiq ölkələrin Mərkəzi Bankları*

2022-ci ildə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kreditləşdirilməsi 28% nəzərəçarpacaq dərəcədə artaraq 5,7 milyard manata çatıb. Qeyd edək ki, onlar biznes kredit portfelinin 50%-dən çoxunu təşkil təşkil etmişdir. Azərbaycanın 2022-2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyası ilə yanaşı, yumşaldılmış kredit şərtləri də bu əlamətdar artımın katalizatoru olub. Beynəlxalq maliyyə institutları əvvəllər mühüm rol oynasalar da, 2022-ci il diqqətəlayiq dəyişiklik baş verib. Bunun da səbəbi yerli bankların öz resurslarından ayrılmış 5 milyard manat vasitəsilə kreditləşməni 35% artırması olub.



**Şəkil 3.** Portfel




*Mənbə: müvafiq ölkələrin Mərkəzi Bankları. 2022-2025-ci illər üçün proqnozlar ekspert əsaslıdır.*



2022-ci ildə Azərbaycanın maliyyə sektoru sabitlik və dayanıqlılığa qovuşdu. Bu da tənzimləyicinin və hökumətin strateji tədbirlərinin sübutudur. Likvidlik göstəricilərinin normaları üstələməsi və gəlirliliyin yüksəlməsi ilə bank sektorunun göstəriciləri güclü mövqedə qaldı. İnflyasiya təzyiqləri şəraitində belə, effektiv siyasət tədbirləri kredit portfelinin keyfiyyətində müsbət irəliləyişlərə yol açdı. 2022-ci ildə biznes kreditləri 11,4% artmışdır ki, bu da 2021-ci illə müqayisədə 1,1 mlrd çoxdur. İstehlak kreditləri 27,3% (1,2 mlrd. AZN), ipoteka kreditləri isə 24,3% (584 milyon AZN) artaraq əhəmiyyətli artım nümayiş etdirib. Bu irəliləyiş 17,6% müsbət artımla nəticələnmiş, ümumi kredit portfeli 19,6 milyard manata çatmışdır.

## Sonrakı hadisələr

Dayanıqlı inkişafı təmin etmək məqsədilə Azərbaycan Mərkəzi Bankı maliyyə sektorunun rolunu gücləndirmək üçün cəsarətli addımlar atır. Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsini təqdim etməklə, Mərkəzi Bank sektorda yaşıl artım imkanlarını təşviq etməklə yanaşı, ESG risklərini minimallaşdırmağa çalışır. Yaxşı müəyyən edilmiş Fəaliyyət Planı ilə maliyyə sektoru davamlı inkişaf məqsədlərinə uyğunlaşdırılır və daha yaşıl və daha möhkəm gələcəyə doğru uzaqgörən kurs götürülür.

Azərbaycanın aparıcı dövlət bankı kimi ABB müəyyən edilmiş milli prioritetlərə riayət olunması məsuliyyətini dərk edir, strateji baxışını və hədəflərini milli məqsədlərlə uzlaşdırır. **Bu yaxınlarda ABB-nin Strategiya ofisi milli və qlobal ESG hədəflərini Bankın fəaliyyət çərçivəsi ilə uyğunlaşdıraraq ABB-nin ESG Strategiyasının layihəsinin ilkin versiyasını hazırlayıb.** Bu, gələcəyə hesablanmış yanaşmadır və dayanıqlı inkişaf məqsədlərinin daha effektiv həyata keçirilməsinə kömək göstərəcək. Bu strategiya ESG prinsipləri ilə əlaqəli yeni biznes imkanlarının araşdırılmasına, karbonsuzlaşdırma siyasətinin həyata keçirilməsinə, işçilərin inkişafına və uyğunluğun təmin edilməsinə yönəlib.

**Şəkil 4.** Kredit portfelinin strateji bölgüsü, %



# BİZ DİNAMİKİK



# 6.


**Biz dinamikik** ........ **40**

**6.1.** Transformasiya yolumuz ........ 40

**6.1.1.** Transformasiya ........ 40

**6.1.2** Agile fəaliyyət ........ 42

**6.1.3** İnnovasiya mərkəzi ........ 44

**6.2.** Strateji məqsədlər və göstəricilər (2023-2025) ........ 45


ABB
Azərbaycan Beynəlxalq Bankı

# 6. Biz dinamikik

## 6.1. Transformasiya yolumuz

### 6.1.1. Transformasiya

Son illər texnologiyaların sürətli inkişafı bank sektorunda böyük dəyişikliklər yaratdı, müştərilərin 24/7 rejimində çalışan bankçılıq xidmətləri ilə bağlı gözləntiləri özünü doğrultdu. Bu inkişaf mənzərəsinə və reallıqları dəyişən maliyyə texnologiyalarının yüksəliş sürətinə uyğunlaşmaqdan ötrü banklar daim innovasiyalar tətbiq etməlidirlər. Texnologiyanın sürətli inkişafı və əlçatanlığı texnoloji şirkətlərə, startaplara yeni, rəqabətədavamlı məhsul və xidmətlər təklif etmək imkanı yaradır. Banklar bu dinamik dövrdən faydalanmaq üçün öz imkanlarını yenidən dəyərləndirməlidirlər.

*Sürətlə dəyişən bazar tələblərini qabaqcadan görmək və buna çevik şəkildə uyğunlaşmaq qabiliyyəti uzunmüddətli dayanıqlı inkişaf üçün çox mühüm amildir. 2019-ci ildə ABB-nin restrukturizasiya və transformasiya proseslərinə sadiqliyini göstərən əlamətdar bir açıqlaması oldu. Bank 2020-2022-ci illərə aid yeni inkişaf strategiyasını təqdim etdi. Burada növbəti 3 il üzrə 5 əsas strateji hədəf müəyyənləşdi. Transformasiya yolunun bir hissəsi olaraq ABB 2020-ci ildə Agile metodologiyanın tətbiqinə başladı. Diqqəti əməliyyat səmərəliliyinin artırılmasına, davamlı öyrənmə mədəniyyətinin formalaşmasına və təkmilləşdirmənin təşviqinə yönəltdi. ABB-nin 2020-2022-ci illər üzrə inkişaf strategiyası çərçivəsində qazandığı nailiyyətlər 2023-2025-ci illər üzrə inkişaf strategiyasında nəzərdə tutulmuş layihələrin uğurla icrasına möhkəm zəmin yaratdı.*

### Ümumi məlumat

Regionun aparıcı bankı olaraq biz icmalarımızın rifahını yüksəldən müsbət dəyişikliklərin əsas vasitəçilərindən biri kimi öz rolumuzu qəbul edirik. Sürətlə inkişaf edən sosial-iqtisadi mənzərədə etibarlı tərəfdaş kimi ABB-nin özünəməxsus mövqeyi, yüksək imici var. Bunu daha da gücləndirməklə, biz bütün maraqlı tərəflər üçün davamlı dəyər yaratmağa çalışırıq.

2019-cu ilin iyununda Transformasiya Ofisinin yaradılması və 2020-2022-ci illər üzrə İnkişaf strategiyamızın ABB-nin Müşahidə Şurası tərəfindən təsdiqlənməsi ilə transformasiya yolumuz başlandı. Həmin Strategiyada nəzərdə tutulan işlərin 2022-ci ilin sonuna qədər nəzərəçarpacaq dərəcədə yerinə yetirildiyini və 99,7% müvəffəqiyyət nisbəti təsirinin əldə edildiyini bölüşməkdən məmnunuq. 2022-ci il bütün ABB miqyasında transformasiya ili kimi yadda qaldı. Agile ofis və Data texnologiyaları departamenti tam fəaliyyətə başladı, eləcə də qabaqcıl həllərin əhəmiyyətli töhfələri ilə dəstəklənən, datalara əsaslanan innovativ biznes modeli ortaya çıxdı.



### 2022-ci il üzrə əsas nailiyyətlər

2020-2022-ci illər üzrə İnkişaf Strategiyasında qeyd olunan baxış 2022-ci ildə reallığa çevrildi. Pərakəndə və korporativ rəqəmsal kanalların yaradılmasına, müştəri xidməti modelinin əsaslı şəkildə yenilənməsinə, modernləşdirilmiş texnologiyanın tətbiqinə, ABB rəqəmsal laboratoriyasının uğuruna gətirib çıxardı. Bu maraqlı transformasiya yolumuz nağdsız əməliyyatların 30%-ni, istehlak kreditlərinin alınmasının 18%-ni rəqəmsal müstəviyə keçirdi və ABB-nin yeni mükəmməllik dövrünə yol açdı.

Ötən dövr ərzində biz ABB mobile tətbiqimizdə əlavə təkmilləşdirmələrə böyük sərmayələr yatırdıq:

- Bütün təkmilləşdirmə təşəbbüsləri ABB-nin öz peşəkar daxili komandaları tərəfindən müstəqil şəkildə həyata keçirilib. ABB mobile-ın idarə edilməsində üçüncü tərəflərdən asılılığın aradan qaldırılması daha effektiv nəzarətə və yaranan problemlərin çevik şəkildə aradan qaldırılmasına imkan verir. Bu təcrübə Agile yanaşmanın ABB üçün effektiv və müştəriyönümlü olduğunu sübuta yetirir.
- Davamlı təkmilləşdirmə işlərini və müştəri məmnuniyyətini təmin etməkdən ötrü biz müntəzəm olaraq ABB mobile istifadəçiləri arasında keçirilən qısa sorğular vasitəsilə müştəri rəylərini toplayırıq. Həm Android, həm iOS istifadəçiləri üçün uyğun rəqəmsal bankçılıq həlli olan ABB mobile tətbiqi müştərilərə hesablarının müntəzəm şəkildə idarə edilməsi, köçürmələr, ödənişlər, müxtəlif kredit, kart, sığorta məhsullarının əldə olunması, investisiya fəaliyyəti və s. imkanlar yaradır.
- **ABB mobile istifadəçilərinin sayı yarım milyon aktiv istifadəçini (təxminən 530 000) ötüb** və bu göstərici bizi hədəfimizə yaxınlaşdırır. Bundan əlavə, 1 milyona yaxın insan tətbiqdə qeydiyyatdan keçmişdir.

### 2023-2025-ci illər üzrə İnkişaf Strategiyası

ABB-nin 2023-2025-ci illər üzrə İnkişaf Strategiyası rəqəmsallaşmanın sürətləndirilməsinə, müştəriyönümlülüyün artırılmasına, yeni imkanların dəyərləndirilməsinə, təşkilat daxilində innovasiyaların təşviqinə, qabaqcıl analitika və datadan geniş istifadəyə yönəlib.



## 6.1.2 Çevik fəaliyyət

### Ümumi məlumat

Transformasiya proqramımızın mühüm mərhələlərindən biri Bankın bütün istiqamətləri üzrə Agile tətbiqidir. Dinamik və rəqabətli bazarda fəaliyyət göstərmək daim innovativ həllər tələb edir. Müştəri tələblərini ödəmək, məhsul və xidmətlərin inkişafını sürətləndirmək üçün ABB 2020-ci ildə Agile yanaşmasının ilkin mərhələdə tətbiqinə başlayıb.

Agile prinsipləri ABB-yə davamlı planlaşdırmaya, öyrənməyə, təkmilləşdirməyə, komandalararası əməkdaşlığa, məhsul və xidmətlərin erkən çatdırılmasına əsaslanan şəffaf, effektiv iş imkanı yaradır. Agile mühitini inkişaf etdirməkdə daha bir məqsədimiz həm təşkilati, həm də komanda səviyyəsində sürətli və səmərəli qərarvermə mədəniyyətinə keçiddir.

Agile transformasiya proseslərimiz Agile yetkinliyi, gücləndirməni və Agile mədəniyyətinin təşviqini əhatə edir. Bu təşəbbüslər vasitəsilə ABB Agile liderliyi gücləndirir, dinamik və interaktiv iş mühitini inkişaf etdirir.

2019-cu ildə Rəqəmsal Laboratoriya daxilində və bütün İT funksiyalarında dəyişiklikləri əhatə edən Agile transformasiya yolumuz başlandı və proses 2020-ci ilin sonuna tamamlandı. Son mərhələyə yaxınlaşdıqca, daha geniş səviyyədə Agile metodologiyasına inteqrasiyanı təşkilati hədəf kimi müəyyən etdik.

Agile-a keçid prosesinin koordinasiyası üçün Agile Ofisi yaratdıq. ABB-nin transformasiya təşəbbüslərinin daxildə və xaricdə kommunikasiyası üçün dəyişiklik səfirləri təyin etdik.

### Nailiyyətlər

2022-ci ildə ABB təşkilati səviyyədə Agile transformasiya yoluna qədəm qoydu. Məhsul və xidmətlərimizi sürətlə inkişaf etdirmək, nəticələrdə daha çox şəffaflıq yaratmaq üçün əməkdaşları səlahiyyətləndirərək iş üsulumuzu əsaslı şəkildə dəyişdik və iterativ yanaşma tətbiq etdik.

Bu təşəbbüslər dörd kateqoriyada cəmləşdi:

- İş modeli
- Proseslər
- Texnologiya
- İnsan kapitalı və korporativ mədəniyyət

Agile Ofis, sahə və çarpaz funksional komandalar yaratdıq. Agile-ın bütün təşkilatda uğur qazanması üçün müvafiq təlimat sənədi (Playbook) hazırladıq. Bu təlimat ən qabaqcıl qlobal təcrübələrə əsaslanır və təşkilati ehtiyaclara uyğun şəkildə daim inkişaf etdirilir. O, sahələrin, ekspert mərkəzlərinin fəaliyyəti, performansın idarə olunması, məqsədlərin və əsas nəticələrin təyin edilməsi və Agile metrikləri də daxil olmaqla, əsas idarəetmə nəticələrini əhatə edir.







### Agile prioritetlər 2023-2025

**2020-2022-ci illərdə əldə etdiyimiz nəticələrdən ruhlanaraq yaxın gələcəkdə Agile ilə bağlı bir sıra prioritetlər müəyyənləşdirmişik:**

**700 tam ştatlı əməkdaşı (FTE) olan 17 Agile struktur bölmənin formalaşdırılması:**

- 10 Agile sahə
- 7 Ekspert mərkəzi (EM)

**Kompleks Agile təlimatı (Playbook) aşağıdakıları əhatə edir:**

- Yeni əməliyyat modeli xəritəsi və əsas qaydalar
- Təşkilat, sahə və komanda səviyyələrində periodik toplantılar
- 20-dən çox kritik vacib prosesin yaradılması

**Bacarıqların inkişafı proqramları:**

- Agile liderlik
- Skram məktəbi
- Məhsul sahibi məktəbi

### Agile transformasiyadan əldə etdiyimiz faydalar:

- Məhsul və xidmətlərin müştərilərə təqdim olunma sürətinin artırılması
- Müştəriyönümlülüyə fokuslanma
- Effektivliyin yüksəldilməsi
- Daha yüksək keyfiyyətli texnoloji inkişaf
- Təşkilatboyu ahəngdarlıq

## 6.1.3 İnnovasiya mərkəzi

ABB İnnovasiya Mərkəzi yeni texnoloji ideyalara, məhsullara, həllərə əsaslanan startaplarla Bankın xidmətlərini dəstəkləyən açıq innovasiya proqramıdır.

ABB İnnovasiya Mərkəzi mentorluq proqramları və investisiya dəstəyi vasitəsilə Azərbaycanın startap ekosisteminin inkişafına yönəlib. Bizim əsas məqsədimiz startaplarla ABB arasında möhkəm əlaqələr yaratmaq, dəyərli əməkdaşlıq və sinerji qurmaqdır.

**2022-ci ildə ABB ümumən 25 pre-inkubasiya startapına və 12 inkubasiya startapına dəstək verib.**

### Əsas proqramlar

Hakaton, Akselerasiya, İnkubasiya, Korporativ sahibkarlıq, Açıq bankçılıq, ABB Tech - İnnovasiyalar Mərkəzinin əsas proqramları sayılır. Bundan əlavə, Mərkəz müxtəlif ictimai fəaliyyətlərin təşkili üçün məktəblər, universitetlər və əlaqədar qurumlarla əməkdaşlıq edir.




### Layihələr

ABB İnnovasiya Mərkəzinin 2022-ci ildə təşkil etdiyi layihələr:

- **3-cü ABB Hakatonu (2 günlük tədbir):** 101 müraciət / 50 seçilmiş ideya
- **3-cü Pre-inkubasiya proqramı (6 həftəlik proqram):** 50+ müraciət / 25 seçilmiş startap
- **3-cü İnkubasiya Proqramı (4 aylıq proqram):** 85+ müraciət / 60+ kənardan müraciət / 10+ təcrübəli peşəkarlar / 15 seçilmiş komanda
- **İnvestorlar Klubu demo günü tədbirləri:** 171 üzv / 60+ aktiv üzv / 22 demo günü keçirilib.

ABB İnnovasiya Mərkəzi 50-dən çox startapı ilkin ideya mərhələsindən Minimum Canlı Məhsul (MVP) mərhələsinə qədər dəstəkləyib. Bu məhsuldar proses 10 MVP məhsulunun uğurla satışa çıxarılmasına kömək göstərib.

### Startaplar

2022-ci ilin sonuna qədər proqram aşağıdakı startapları uğurla inkubasiya etmişdir:

1. TUTORLAB - edtech
2. KREPP - fintech
3. CHILL - ecommerce
4. HEPARD – SaaS solution
5. SCHOOLPLUS - edtech
6. TEZISH - hrtech
7. NJOOY - ecommerce
8. INFLUENCER.AZ - ecommerce
9. LINKDOMS - ecommerce
10. CASHCUT – fintech



**ABB İnnovasiya Mərkəzi**
İnnovativ layihələr ekosisteminin qurulması

**ABB Tech Akademiyası**
Əmək bazarı üçün informasiya texnologiyaları sahəsində mütəxəssislər hazırlayan mərkəz

**Akselerasiya**
Kapital müqabilində rəhbərlik, dəstək və məhdud maliyyə dəstəyi təmin edən mentorluq əsaslı proqram

**İnkubator**
Biznes ideyaları, ilkin mərhələdə olan startaplar üçün innovasiya və inkişaf proqramları

**Korporativ sahibkarlıq**
İnnovativ ideyaları təşviq edərək, ABB əməkdaşlarının sahibkarlıq ruhu və yaradıcılığını gücləndirməklə təşkilat daxilində sahibkarlıq mədəniyyətini inkişaf etdirmək

**Hakaton**
Müəyyən mövzu üzrə problemlərin kodlaşdırılması ideyası

**Açıq bankçılıq**
Maliyyə xidmətlərinə çıxışın əlçatanlığını təmin etməklə maliyyə inklüzivliyini artıran platforma

**ABB üçün üstünlüklər**
- ABB-də rəqəmsal transformasiyaya dəstək
- Veb və mobil xidmətləri inkişaf etdirmək
- Müxtəlif ideya və həllərin Bankın xidmətləri ilə inteqrasiyası vasitəsi ilə müştərilər üçün əlavə dəyər yaratmaq

**Cəmiyyət üçün faydalar**
- Yerli startap ekosistemini inkişaf etdirmək
- İqtisadi aktivliyə təkan vermək
- Qabaqcıl istedad və sahibkarları yetişdirmək
- Startapların innovativ təşəbbüslərini dəstəkləmək

## 6.2. Strateji məqsədlər və göstəricilər (2023-2025)

2020-2022-ci illər strategiyasının icrası prosesində rəqəmsallaşma sahəsində əldə olunmuş nailiyyətlərə əsaslanaraq, ABB-nin 2023-2025-ci illər üzrə yeni strategiyasında da rəqəmsallaşma məsələlərinə xüsusi yer verilib.

Bu məsələyə kompleks yanaşmamız var. Mobil tətbiqlərimizi yeni funksiyalarla təkmilləşdirməyi, rəqəmsal kanallarda korporativ əməliyyatları yüksəltməyi, yeni təcrübələrdən və data texnologiyalarından geniş istifadəni, müştəri mərkəzli alətlərin təqdim olunmasını planlaşdırırıq. Bu iddialı plan bankçılıq və innovasiyalar sahəsində böyük dəyişikliklər üçün zəmin yaradır.

**2023-2025-ci illər üzrə İnkişaf Strategiyasında ABB aşağıdakı hədəfləri müəyyən edir:**

| Strateji məqsədlər | Üst təşəbbüslər |
|---|---|
| Seqmentlər üzrə bazar liderliyi | Korporativ / KOS kredit portfelini artırmaq üçün avtomatlaşdırılmış kreditləşdirilmənin və "RM" imkanlarının inkişaf etdirilməsi |
| | Biznes müştərilərin cəlbini sürətləndirmək üçün xidmət modelinin yenilənməsi |
| | Kredit və kredit kartları müştəri təcrübəsi vasitəsilə istehlak krediti portfelinin artırılması |
| | Yeni texnologiyalarla və məhsullarla nağdsız ödənişlər biznesinin inkişaf etdirilməsi |
| | Rəqəmsal ticarət həlləri və xidmətləri vasitəsilə ekvayrinq biznesinin genişləndirilməsi |
| | Rəqəmsallaşdırılmış və genişləndirilmiş xidmət modeli vasitəsilə ipoteka müştəri təcrübəsinin yenilənməsi |
| | Xüsusi dəyər təklifləri ilə yeni müştəri seqmentlərinin əldə edilməsi |
| Data əsaslı rəqəmsal təcrübə | Yeni əlavə dəyər xidmətlərini inkişaf etdirməklə aktiv və qeydiyyatdan keçmiş ABB mobile istifadəçilərinin sayının artırılması |
| | Ən yaxşı "E2E" rəqəmsal təcrübəsinin əldə edilməsi |
| | Müştəriyə düşən məhsulların (Pərakəndə) sayının artırılması məqsədi ilə “Cross-sell” və “Upsell” mexanizminin yaradılması |
| | Korporativ və KOS müştəri təcrübəsinin rəqəmsallaşdırılması |
| | İT və data imkanlarının təkmilləşdirilməsi |
| Əsas təşəbbüslər - 16 | Təşəbbüslər - 58 |
| Üstün müştəri yönümlülük | Fiziki kanallarda müştəri təcrübəsinin təkmilləşdirilməsi |
| | Brendin tanınma səviyyəsinin yüksəldilməsi |
| | Kreditin verilmə müddətinin azaldılması (Korporativ və KOS) |
| Maliyyə sektorunda ən yaxşı işəgötürən | İşçi məmnuniyyətinin artırılması |
| Mərhələlər - 223 | Təşəbbüs göstəriciləri - 62 |



## 2023-2025-ci illər üzrə İnkişaf Strategiyası: sürətli artım

ABB bir neçə əsas mövzuya diqqət yetirməyi tələb edən 2025-ci il strategiyası üçün hədəflər müəyyən edir.




### A Rəqəmsallaşma və əsas bankçılıq əməliyyatlarının mükəmməlləşdirilməsi

**16 strateji üst təşəbbüsün** və təşkilatın rəqəmsallaşması, əməliyyat mükəmməlliyinə nail olması üçün biznes və dəstəkləyici strukturlar tərəfindən aşağıdakıların tətbiqi:

- Dəyər yaradan **qabaqcıl analitika və data imkanlarının tətbiqi**
- Bazara çıxış vaxtının azaldılması və müştəri yönümlülüyün artırılması üçün **təşkilat miqyasında “Agile” transformasiya**

### B Potensial böyümə istiqamətlərinin araşdırılması

Sınanmış modellər və yanaşmalarla yeni/müştərək bizneslərin qurulması

### C Yeni trendlər

Metavers, kriptovalyutalar və mərkəzləşdirilməmiş maliyyə kimi potensial biznes dəyəri olan ideyaların dəyərləndirilməsi

# BİZ MÜŞTƏRİYÖNÜMLÜYÜK

Biz müştəriyönümlüyük

Biz müştəriyönümlüyük ..... 50
7.1. Satış şəbəkəsinin inkişafı ..... 50
7.2. Xidmət nöqtələri ..... 50
7.3. Filialların optimizasiyası ..... 51
7.4. Xidmətlərin keyfiyyəti ..... 51
7.5. Xidmətlərimizin rəqəmsallaşdırılması ..... 52
7.6. Yeni İnternet Bankçılığın inkişafı ..... 53
7.7. Pərakəndə müştərilər ..... 54
7.8. Korporativ müştərilər ..... 58

7.

ABB
Azərbaycan Beynəlxalq Bankı

# 7. Biz müştəriyönümlüyük

## 7.1. Satış şəbəkəsinin inkişafı

Kommersiya təşkilatı olaraq biz daim satış şəbəkəmizi genişləndirir, mövcud və potensial müştərilərimizlə daha yaxşı əlaqə yaratmaq üçün məhsul və xidmətlərimizi tanıtdığımız kanalları yenidən nəzərdən keçiririk.

ABB olaraq biz inanırıq ki, məhsul və xidmətlərimiz bütün müştərilər üçün əlçatan olmalıdır. Bu səbəbdən, həm mövcud, həm perspektiv müştərilərimizin maliyyə baxımından uğur qazana bilmələri üçün məhsul və xidmətlərimizi onlara əlçatan edirik. Satış kanallarımızı iki fərqli, lakin bir-birini tamamlayan seqmentlərə bölmək olar:

- Fiziki xidmət kanalları
- Onlayn xidmət kanalları

## 7.2. Xidmət nöqtələri

Şəkil 5. ABB-nin Azərbaycan üzrə filialları




**Bankın Azərbaycan üzrə 78 xidmət ofisi (filiallar və şöbələr daxil olmaqla) fəaliyyət göstərir.**

**2022-ci ildə 6 filial yeni konseptdə təmir edilərək müştərilərin istifadəsinə verilib.**

https://abb-bank.az/en/xidmet-shebekesi/filiallar



## 7.3. Filialların optimizasiyası

Satış hədəfi yanaşması ilə filiallarımızda satışyönümlülüyü inkişaf etdiririk.

Filial mütəxəssislərimiz ümumi bacarıqların artırılmasına töhfə verən satış yönümlü hədəflərə istiqamətlənib. Bundan əlavə, sistemin səmərəliliyini artırmaq üçün filiallarımızda yeni ən müasir proqram təminatını tətbiq etdik. 2022-ci ildə regionlarda 45, Bakıda 4 xidmət ofisi universal işçi modelinə keçib. Hazırda universal modeldə 71 xidmət ofisimiz fəaliyyət göstərir.

Universal işçi modeli pərakəndə müştərilərə xidmət göstərmək üçün həm əməliyyat, həm də kredit funksiyaları üzrə ixtisaslaşmış filial işçilərini əhatə edir. ABB yeni rollar yaratmaqla və mövcud olanları birləşdirməklə xidmət şəbəkəsini optimallaşdırıb. Məqsədimiz müştərilərin bank xidmətlərindən istifadəsini asanlaşdırmaqdır. Əlavə olunmuş çərçivələrdə rollar haqqında ətraflı məlumat qeyd olunmuşdur.

**Satış və xidmət operatoru**

Bütün pərakəndə məhsulların (kredit, depozit, kart və s.) satışı və bütün xidmət əməliyyatlarının həyata keçirilməsində universal rol

**Rəqəmsal naviqator**

Naviqator rəqəmsal əməliyyatların icrasında müştərilərə kömək göstərir.

**KOS müştəriləri ilə əlaqə meneceri**

Xüsusi KOS müştərilərinə xidmət göstərən, mövcud əlaqələri inkişaf etdirən əlaqə menecerləri (yalnız seçilmiş filiallarda mövcuddur)

**Kiçik biznes mütəxəssisləri**

Kiçik biznes mütəxəssisləri müştərilərin biznes fəaliyyətinə cəlb olunma potensialına malik regionlardakı seçilmiş filiallarda mövcuddur

## 7.4. Xidmətlərin keyfiyyəti

Məsuliyyətlərimizdən biri daxili proseslərimizi təkmilləşdirmək üçün sahələri müəyyənləşdirmək, təhlil etmək, əməliyyat inkişafına nail olmaq üçün innovativ yolları araşdırmaqdır. Son illərdə 2023-2025 inkişaf strategiyamıza uyğun olaraq, uzunmüddətli effektivliyi, səhvlərin minimuma endirilməsini, müştəri məmnuniyyətini və daha sürətli qərar qəbulunu təmin etmək üçün daxili proseslərimizin avtomatlaşdırılmasına xüsusi diqqət yetiririk.

2021-ci ildə müştərilərin məhsul və xidmətlərimizə baxışının seqmentləşdirilmiş şəklini əldə etmək üçün müxtəlif rabitə kanallarından müştəri sorğuları üçün qeydiyyat sistemini işə saldıq. Bu iki il ərzində bizə 2021-ci ildə 4692, 2022-ci ildə isə 7907 müştəri sorğu və rəyləri daxil olub. Həmin sorğu və rəylər aidiyyəti funksional bölmələr tərəfindən nəzərə alınıb. Nəticədə, gələcəkdə oxşar halların qarşısını almaq üçün xidmətlərimizdə müvafiq təkmilləşdirmələr həyata keçirilib. Bu istiqamətdə NPS əmsalı bizim əsas müştəri məmnuniyyəti göstəricimiz kimi nəzərə alınır.

| 2021 | NPS göstəricisi | 2022 |
|---|---|---|
| 64 | | 74 |

Bank olaraq biz həmişə müştərilərimizin ehtiyac və tələblərinə cavab verməyə çalışırıq. Davamlı səylərimiz nəticəsində bir il ərzində NPS göstəricisini təxminən 16% yaxşılaşdıra bildik.

**+16%** 2021-ci ildən NPS-də artım

## 7.5. Xidmətlərimizin rəqəmsallaşdırılması

Son illərdə texnologiyalar bank sektorunun işini əsaslı şəkildə dəyişib. Müştərilər harada olmalarından asılı olmayaraq bank xidmətlərinin 24/7 rejimində əlçatan olmasını istəyirlər. Bu dəyişən istehlakçı davranışları daim yeniliklər tələb edir. Texnologiyalar daha sərfəli, ucuz və universal olur. Nəticə etibarilə, banklar öz imkanlarını yenidən dəyərləndirməlidirlər. Çünki bank sektoru dəyişikliklərə həssasdır. Texnologiya şirkətləri və startaplar getdikcə yeni, innovativ məhsul və xidmətlər təklif etməklə rəqabət güclərini artırmağa çalışırlar.

### Google Pay

2022-ci ilin avqustundan etibarən ABB kart sahibləri Apple Pay-lə yanaşı Google Pay vasitəsilə də ödəniş edə bilərlər. Bu rahat və təhlükəsiz ödəniş həllidir, istifadəçilərə Android sistemini dəstəkləyən cihazlarla tam təmassız ödənişlər etməyə imkan verir.

### ABB mobile yeni formatda

Çevik transformasiyamızın ilk addımına biz ABB mobile proqramımızın yenidən dizaynı ilə başladıq. Tələb olunan dəyişiklikləri, diqqət mərkəzindəki sahələri, boşluqları, əsas müştəri rəylərini müəyyən etmək üçün araşdırma apardıq. Nəticədə, 2022-ci ildə ABB mobile istifadəçilərinin sayı 1 milyonu ötdü.

Davamlı təkmilləşdirmələri və müştəri məmnuniyyətini təmin etmək üçün biz müntəzəm olaraq ABB mobile istifadəçiləri arasında keçirilmiş qısa sorğular vasitəsilə müştəri rəylərini toplayırıq.

Həm Android, həm iOS sistemində çalışan ABB mobile proqramımız müştərilərə müntəzəm hesab idarə etmə fəaliyyətlərini, o cümlədən pul köçürmələrini, kreditlərə müraciət etmək və ödəmək, kommunal ödənişlər, təhsil haqqı ödənişləri və bir çox başqa əməliyyatları asan və daha sürətli yerinə yetirməyə imkan verir.

Aşağıda tətbiqin istifadəçi dinamikası əks olunmuşdur.

31.12.2020
Aktiv ABB mobile istifadəçiləri: **81 min**
Yeni qeydiyyatdan keçmiş ABB mobile istifadəçiləri: **236 min**

31.12.2021
Aktiv ABB mobile istifadəçiləri: **367 min**
Yeni qeydiyyatdan keçmiş ABB mobile istifadəçiləri: **548 min**

31.12.2022
Aktiv ABB mobile istifadəçiləri: **521 min**
Yeni qeydiyyatdan keçmiş ABB mobile istifadəçiləri: **448 min**






## 7.6. Yeni İnternet Bankçılığın inkişafı

Biznes müştərilərimiz üçün mükəmməl müştəri təcrübəsini artırmaq və saxlamaq üçün ABB əlavə imkanlar malik təkmilləşdirilmiş İnternet Bankçılıq (IB) platformasını təqdim etdi.

İnternet Bankçılığımız daha sürətli istifadə üçün yenidən işlənib və indi sadalanan ən çox yayılmış seçimləri, xidmətləri ehtiva edir:

- kartlar
- kreditlər
- ödənişlər
- köçürmələr
- hesabatlar və statistika
- onlayn dəstək

+6 min — **İnternet Bankçılıq sisteminin aktiv istifadəçiləri**

### Xidmət təkliflərinin təsviri

- Yeni İnternet Bankçılıq sistemimizdə müştərilər yeni kartlar sifariş edə, mövcud olan kartların müddətini uzada, itirilmiş maaş və digər kartlar üçün müraciət edə bilərlər. Bu proseslər daha yaxşı müştəri təcrübəsi üçün optimallaşdırılıb.
- Biznes müştərilər maaşlarını tək-tək və ya toplu şəkildə köçürə bilərlər. Hər iki proses daha yaxşı müştəri təcrübəsi üçün optimallaşdırılıb. Biznes müştərilərimiz üçün standart və fərdi tariflərlə valyuta mübadiləsi imkanları mövcuddur.
- Bütün növ banklararası köçürmələr: iki bank hesabı arasında, yerli və beynəlxalq, vergi və ƏDV köçürmələri, həmçinin toplu köçürmələr.
- Biznes müştəriləri tranşlar üçün müraciət edə, həmçinin öz kredit məlumatlarını və digər maliyyə öhdəliklərini görə bilərlər.
- Biznes müştəriləri öz maliyyə fəaliyyətləri, hesabatları və alınmış məhsulların statusu haqqında məlumatları yükləyə, baxa bilərlər.
- Biznes müştəriləri sadəcə onlayn söhbətdə sorğu yazmaqla dəstək komandamızla asanlıqla əlaqə saxlaya bilərlər.

## 7.7. Pərakəndə müştərilər

ABB müştərilərlə münasibətləri yüksək qiymətləndirən, müştərilərə ən rahat, özünü doğrultmuş təcrübələr təqdim edən müştəriyönümlü və datalara əsaslanan təşkilatdır. Pərakəndə bankçılıqda geniş çeşiddə şəffaf bank məhsulları və yüksək keyfiyyətli xidmətlər təqdim edərək biz müştərilərin əsas ehtiyaclarını ödəməyə çalışırıq.

Bankda əsas strateji baxışın müəyyənləşməsindən sonra biz xüsusi olaraq müvafiq müştəri qrupları üçün uyğunlaşdırılmış təkliflərin hazırlanmasına diqqət yetiririk.

Pərakəndə satış portfelimizdəki əsas məhsul kateqoriyalarından biri pərakəndə kreditləşmə ilə bağlıdır. ABB pərakəndə müştərilərinə əmək haqqı krediti, pensiya krediti, ipoteka krediti, kredit kartı limiti və s. kimi bir neçə növ kredit təklif edir.

Şəkil 6. 2022-ci ildə pərakəndə kreditlərin bölgüsü




Əməkdaşlıq etdiyimiz MTK-ların siyahısının genişləndirilməsi, müxtəlif sosial qruplar üçün təklif etdiyimiz sərfəli şərtlər və məhsul çeşidinin artması nəticəsində ipoteka portfelimiz də son üç ildə sabit artım nümayiş etdirdi. **2022-ci ilin sonuna Bankın ipoteka portfeli 2021-ci illə müqayisədə 25% artıb.**

Şəkil 7. Aktiv pərakəndə müştərilər, min.




### Əsas strateji nailiyyətlər (2020-2022)

- TamKart məhsulunun yaradılması
- Əvvəldən-sona tam rəqəmsal təcrübə ilə kredit məhsuluрəqəmsal kredit məhsulu
- Əmək haqqı ABB-dən olmayan müştərilər üçün kredit məhsulu
- Telesatış, birbaşa satış və 7/24 rejimində çağrı mərkəzinin yaradılması
- Beynəlxalq təchizatçının dəstəyi ilə hazırlanmış CRM platforması
- ABB mobile tətbiqinin inkişafı, yeni ödəniş sistemləri: NFC, Google Pay, ApplePay
- Fayda bonusları və ƏDV-nin geri qaytarılması layihələri ilə loyallıq proqramının inkişafı
- Ümumi və filialdaxili prosesləri optimallaşdırmaqla nağd pul krediti üçün gözləmə müddətinin azaldılması
- Ekvayrinq şəbəkəsinin inkişafı məqsədilə yeni tərəfdaşlar cəlb edilməsi
- ABB miles və Azercell kobrend kartlarının yaradılması
- Azərbaycan Dəmir Yolları ilə gediş haqqının təmassız ödənişi layihəsi

**ABB-nin pərakəndə müştərilərə təklif etdiyi kredit məhsulları:**

**İpoteka kreditləri**

ABB müştərilərə müxtəlif çeşiddə ipoteka kreditləri təklif edir:

- Daxili ipoteka kreditləri https://abb-bank.az/en/ferdi/kreditler daxiliipoteka-krediti
- Tikinti şirkətləri ilə əməkdaşlıq əsasında verilən ipoteka kreditləri https://abb-bank.az/en/ferdi/kreditler/ipoteka-kreditleri
- Tikinti kreditləri https://abb-bank.az/en/ferdi/kreditler/ipoteka-kreditleri/tikinti-krediti
- Əmanət ipoteka kreditləri https://abb-bank.az/en/ferdi/kreditler/emanetli-ipoteka-krediti
- İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri ilə ipoteka kreditləri https://abb-bank.az/en/ferdi/kreditler/ipoteka-krediti
- İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri ilə ipoteka kreditləri (MİDA) https://abb-bank.az/en/ferdi/kreditler/midaipoteka-krediti

**İstehlak kreditləri**

- Onlayn kreditlər https://abb-bank.az/en/ferdi/kreditler/midaipoteka-krediti
- Nağd pul kreditləri https://abb-bank.az/en/ferdi/kreditler/nagdkredit
- Avtomobil kreditləri https://abb-bank.az/en/ferdi/kreditler/avtomobil-krediti
- Əmanətçilər üçün kredit limitləri https://abb-bank.az/en/ferdi/kreditler/emanetci-kredit-limiti
- Kredit kartı limitləri https://abb-bank.az/en/ferdi/kreditler/emanetci-kredit-limiti
- Pensiya kreditləri və əmək haqqı kreditləri
- Kreditlərin yenidən maliyyələşdirilməsi

Bundan əlavə, ABB pərakəndə müştərilər üçün kredit kampaniyaları təşkil edərək, kredit məhsullarından istifadə üzrə cəlbedici stimullar təqdim edir.

Cədvəl 5. Kredit portfelində borcalanların sayı

| Pərakəndə məhsullar | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| İl ərzində borcalanların ümumi sayı | 271,252 | 361,169 | 451,167 |

**Pərakəndə müştərilər üçün ABB tərəfindən təklif olunan depozit məhsulları:**

ABB müştərilərə aşağıdakı depozit məhsullarını təklif edir:

- "Klassik" əmanət https://abb-bank.az/index.php/en/ferdi/depozitler/klassik-emaneti
- Əmanətli ipoteka krediti https://abb-bank.az/index.php/en/ferdi/depozitler/emanetli-ipoteka-krediti
- Depozit seyfləri https://abb-bank.az/index.php/en/ferdi/depozitler/depozit-seyfi

Şəkil 8. Əsas pərakəndə bank məhsulları üzrə satış portfelləri




## Nağdsız ödənişlər

ABB şəffaflıq, səmərəlilik və rahatlıq təklif edən ödəniş kartları və həlləri vasitəsilə ölkədə nağdsız ödənişlərin əlçatanlığını genişləndirir. Nağdsız ödənişlərə keçid yalnız daha sürətli və daha rahat əməliyyatlar vasitəsilə iqtisadi artımı sürətləndirmir, həm də vaxta və xərclərə qənaət etmək üçün imkanlar təqdim edir. Bu, nağd pulun fiziki sayımı, inkassasiyası və s. bu kimi idarəetmə ehtiyaclarını aradan qaldırır.

**TamKart (https://tamkart.az/)**

TamKart yerli bazara 2019-cu ildə təqdim olunub. Həm debet, həm kredit kartı funksiyalarını, 24 aya qədər taksit imkanlarını özündə birləşdirir. Həm Visa həm də Mastercard sistemində təklif olunmaqla TamKart Klassik, TamKart Gold, TamKart Platinum, TamKart Premium kimi bir neçə növü var. TamKartdan 300-ə yaxın tərəfdaş məkanda istifadə etmək mümkündür. Bu kart qeyri-bank ticarəti və xidmət məntəqələrində (qeyri-tərəfdaş) 1-40% arasında keşbek imkanı yaradır. Eləcə də eksklüziv olaraq kart sahibləri üçün hazırlanmış digər üstünlüklər təklif edir.

❯ 2022-ci ildə 518 553 nəfər TamKartdan aktiv istifadə edib.

❯ 2022-ci ildə TamGənc kart məhsulunu müştərilərimizə təqdim etdik.



## ABB-nin ATM- şəbəkəsi

❯ 2022-ci ildə ABB bütün ölkə üzrə 938 ATM-ə malik olub. Bunun 48%-i regionlara aiddir. Bank təmassız texnologiyalarla çalışan yeni nəsil ATM-lər quraşdırılmasına başlayıb.

Şəkil 9. İllər üzrə quraşdırılmış ATM-lərin ümumi sayı

| 2020 | 2021 | 2022 |
|---|---|---|
| 858 | 932 | 938 |

❯ 2020-2022-ci illərdə biz POS-terminalların sayında 26% artım qeydə almışıq ki, bu da nağdsız ödənişlərdən artan istifadəni açıq şəkildə əks etdirir.

Şəkil 10. İllərə görə quraşdırılmış POS-terminalların ümumi sayı

| 2020 | 2021 | 2022 |
|---|---|---|
| 9379 | 9377 | 12736 |

**"Azercell" kobrend kartı**
(https://abb-bank.az/az/ferdi/kartlar/azercell-co-brand-karti/azercell-co-brand)

Ölkənin aparıcı mobil operatoru Azercell Telecom-la əməkdaşlıq çərçivəsində ABB 2019-cu ilin dekabr ayında Azercell abunəçiləri üçün AZN, ABŞ dolları və ya Avro valyutasında xüsusi kobrend kartı istifadəyə verib.

**Tələbə kartı**

ABB-nin Tələbə kartı Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət Dəniz Akademiyası, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialı ilə birgə 2020-ci ilin sentyabr ayından istifadəyə verilib. Biz bu kartdan istifadəni genişləndirmək üçün yeni universitetlərlə tərəfdaşlıqlar qururuq.

**QR ödəniş sistemi**

2020-ci ildə ABB tərəfindən mobil telefonlarda QR kodu ilə "ƏDV geri al" xidməti təmin edilib.

**"QayğıCash" klubu**
https://abb-bank.az/en/ferdi/kesbek/qaygicash-klubu

"QayğıCash" ABB-nin 2018-ci ildən ölkədə nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə həyata keçirdiyi loyallıq proqramıdır.

**ADY ilə layihə: dəmiryolu nəqliyyatında gediş haqqını NFC vasitəsilə, bank kartları ilə ödəmək imkanı**

"Azərbaycan Dəmir Yolları" QSC, Visa, Azərbaycan Respublikasının Mərkəzi Bankı və ABB Azərbaycanda ilk dəfə dəmiryolu nəqliyyatında bank kartları ilə təmassız ödəniş imkanı yaradıb.

**Ani Ödəniş Sistemi**

Bazarın daimi təhlili və müştəri ehtiyaclarının öyrənilməsi ilə ABB mobile tətbiqinə yeni funksiyalar əlavə edilir. Tətbiq əhəmiyyətli şəkildə təkmilləşdirilir. Mərkəzi Bankın 2020-ci ildə tətbiq etdiyi Ani Ödəniş Sisteminin (IPS) inteqrasiyası ilə müştərilər artıq qeyri-iş günlərində də 24/7 rejimində fasiləsiz əməliyyatlar həyata keçirə bilirlər.

# 7.8. Korporativ müştərilər

Yarandığı gündən ABB korporativ seqmentə yüksək keyfiyyətli xidmətlər göstərən ən böyük Azərbaycan bankıdır. Biz 29 mindən çox korporativ şirkətə və KOS-lara xidmət göstəririk. **Həmçinin 93 mindən çox fərdi sahibkar məhsul və xidmətlərimizdən istifadə edir.** Onlara öz bizneslərini davamlı şəkildə inkişaf etdirməyə kömək göstəririk. Biz korporativ müştərilərimizlə qarşılıqlı fayda və tərəfdaşlığa əsaslanan uzunmüddətli əlaqələrin vacibliyini vurğulayırıq.

2020-2022-ci illər üzrə İnkişaf Strategiyamıza uyğun olaraq biz KOS-ların və korporativ seqmentin maliyyələşdirilməsində yerli banklar arasında birinci olmağı hədəfləmişdik.

2020-2022-ci illər üzrə İnkişaf Strategiyamıza uyğun olaraq, biz aşağıda qeyd olunan göstəricilərə diqqət yetirmişik:

- Korporativ müştəri bazamızın və portfelimizin artırılması
- KOS-ların maliyyələşdirilməsində rəqabətli bazar payına malik olmaq
- Orta artım templərinin saxlanılması





Şəkil 11. Aktiv korporativ müştərilər, min




**2020:**
İri: 1271
KOS: 1380
Kiçik biznes: 914

**2021:**
İri: 1342
KOS: 1555
Kiçik biznes: 1291

**2022:**
İri: 1521
KOS: 1712
Kiçik biznes: 1573

## Əsas strateji nailiyyətlər (2020-2022)

- Həm Korporativ, həm KOS-lar üçün Müştəri Əlaqələri Meneceri (RM) modeli hazırlanıb.
- Xüsusi xidmət yanaşmasına əsasən müştərilərin seqmentləşdirilməsi aparılıb.
- KOS istiqaməti qurulub və KOS müştəriləri üçün 13 məhsul hazırlanıb.
- Kiçik binzesin maliyyələşdirilməsi istiqamətində iş başlanıb.
- Beynəlxalq təchizatçını cəlb etməklə Müştərilərlə Əlaqələrin İdarə Edilməsi (CRM) platforması hazırlanıb.
- Maliyyə təhlili potensialımızı artırmaq üçün Moody's analitik aləti alınıb.
- Filiallarda müştərilərə xidmət prosesi sürətləndirilib.
- Məsafədən hesab açılması prosesi qurulub.
- Sahibkarlar Klubu yaradılıb.
- Regional filiallarda satış modeli genişləndirilib.

## Biznes müştərilərimizə təklif edilir

ABB həm kiçik, həm orta ölçülü bizneslərə, eləcə də iri korporativ qurumlara öz əməliyyatlarını həyata keçirməkdə müxtəlif istiqamətlərdə dəstək verir.

Şəkil 12. Korporativ xidmət və məhsulların siyahısı

- Ticarətin maliyyələşməsi xidmətləri
- Məsafədən hesabın açılması
- Ödəniş kartları
- Əmək haqqı layihəsi
- Köçürmələr
- Sahibkarlar Klubu
- Kreditlər
- ABB Link
- Korporativ kreditlər
- Depozitlər

Şəkil 13. Korporativ kredit portfeli, mln AZN




Şəkil 14. Korporativ depozit portfeli, mln AZN




Şəkil 15. Ticarətin maliyyələşdirilməsi portfeli, mln AZN






## KOS-lar üçün məhsul və xidmətlər

ABB davamlı olaraq KOS və mikro müəssisələrin böyüməsini dəstəkləməyə, onları əsas maliyyə resursları ilə təmin etməyə və innovasiyalara təkan verməyə davam edir.

KOS-lar Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi üzrə strateji inkişaf baxışına uyğun olaraq iqtisadiyyat üçün mühüm hərəkətverici qüvvədir. ABB, KOS məhsul və xidmətlərini təqdim etmək üçün yaranan tendensiyalarda dövlət qurumları ilə fəal əməkdaşlıq edir.

Biz kredit müraciəti proseslərini maksimum dərəcədə sadələşdirmişik. Uyğun sahibkarlar sadəcə internet saytımızdakı onlayn ərizə formasını doldurmaqla ABB-dən kredit götürə bilərlər. Biz həmçinin korporativ müştərilərimizə əvvəlcədən müəyyən edilmiş limitlər çərçivəsində ödəniş cədvəli seçmək azadlığı da veririk.

Müştəri məmnuniyyətini öndə tutaraq, istifadəçi dostu yeni İnternet Bankçılıq platformamızı işə salmışıq. Mövcud məhsulları dəyişdirmiş, 20-dən çox pulsuz xidmətdən ibarət 5 yeni KOS xidməti paketi yaratmışıq. Xidmət keyfiyyətini artırmaq üçün bütün müştərilər seçilmiş RM-lərlə əlaqələndirilirlər. Biz müvafiq təlim proqramları ilə RM-lərin bilik və bacarıqlarını artırırıq. Bu proqramlar 10 mövzunu əhatə edir. RM-lərin biznes biliklərini, ünsiyyət bacarıqlarını zənginləşdirən 25 interaktiv nümunəni bir araya gətirir.

2020-ci ildə biz mikrobiznes bazarına daxil olduq və genişlənərək 2022-ci ilin sonu üçün 2,5 min mikrokredit müştərisi və 19 milyon manatlıq ödənilməmiş kredit portfelinə nail olduq.

https://abb-bank.az/en/kicik-ve-orta-biznes

Şəkil 16. Korporativ müştərilər üçün məhsul və xidmətlərin siyahısı

- KOS-lar üçün İxraca dəstək krediti
- Fakturaların maliyyələş-dirilməsi krediti
- Subsidiya (güzəştli) İKZF xətti ilə kreditlər[1]
- "Tərəfdaşlara təcili dəstək" krediti / kredit xətti
- İnvestisiya krediti/kredit xətti
- Depozit təminatlı kreditlər
- Aqrokreditlər
- Mikrokredit
- AKİA xətti ilə kənd təsərrüfatına dəstək krediti[2]
- SİF xətti ilə güzəştli kredit[3]
- Əmək haqqı dəstəyi
- E-com və E-POS terminal kredit xətti
- Dövriyyə kapitalı krediti/ kredit xətti
- Biznes kreditinin yenidən maliyyələşdirilməsi

[1] *AR IKZF - MCGF (Mortgage and Credit Guarantee Fund of the Azerbaijan Republic)*
[2] *AR SIF - EDF (Entrepreneurship Development Fund of the Republic of Azerbaijan)*
[3] *AR AKIA - ACDA (Agricultural Credit and Development Agency)*

# BİZ MƏSULİYYƏTLİYİK




Biz məsuliyyətliyik ................................ 64

**8.1.** Məsuliyyətli maliyyəyə yanaşmamız ................ 64

**8.2.** Əməkdaşlarımız üçün üstünlüklərin artırılması ..... 66

**8.3.** Cəmiyyətə müsbət təsirlərin təşviqi ................ 72

**8.4.** Ətraf mühitə təsirimizin idarə edilməsi ............. 82


8.

# 8. Biz məsuliyyətliyik

## 8.1. Məsuliyyətli maliyyəyə yanaşmamız

Dayanıqlılıqla bağlı narahatlıqlar artmaqda davam etdikcə, maliyyə institutları kapital axınını təsirli maliyyələşdirməyə yönləndirməli, ESG meyarlarının kredit və investisiya portfelinə inteqrasiyası ilə məsuliyyətli maliyyə davranışını qəbul etməlidir.

ABB olaraq fərqindəyik ki, məsuliyyətli maliyyə prinsiplərini qəbul etməyimiz təkcə bizim sosial məsuliyyətli qurum imicimizi gücləndirmir, həm də iqlim dəyişikliyi, resursların tükənməsi və yoxsulluq kimi dayanıqlılıq problemlərindən irəli gələn maliyyə risklərini idarə etmək qabiliyyətimizi artırır. Qəti şəkildə inanırıq ki, bu yanaşma daha böyük sosial dəyər yaradacaq. Müvafiq imkanlardan istifadə etməklə benefisiarlarımıza və maraqlı tərəflərimizə sosial və ekoloji problemlərin həllində yol göstərəcək.

Bundan əlavə, biz fəaliyyətimizi Azərbaycan Hökumətinin Dayanıqlı İnkişaf Məqsədləri (DİM) və Paris İqlim Sazişinə dair götürdüyü öhdəliklərə uyğunlaşdırmağı hədəfləyirik. Biz həmçinin Məsuliyyətli Bankçılıq Prinsipləri (PRB), Məsuliyyətli İnvestisiya Prinsipləri və Ekvator Prinsipləri kimi beynəlxalq çərçivələrdən ilham alırıq. Rəsmi olaraq qəbul olunmasa belə, ABB bu sənədləri əhəmiyyətli beynəlxalq çərçivə hesab edir. Bizim mövqeyimizə görə, məsuliyyətli biznesin maliyyələşdirilməsi Azərbaycanda və onun hüdudlarından kənarda sosial və ekoloji dəyər yaratmaq üçün güclü vasitədir.

Son illərdə Bank ölkənin sosial-iqtisadi inkişafına fəal töhfə verməklə məsuliyyətli maliyyə təşəbbüslərinə artan loyallıq nümayiş etdirib. Biz Azərbaycanda qeyri-neft sektorunu və xidmət sənayesini dəstəkləyirik. Yerli baxışla layihələr üçün maliyyə həlləri təqdim edirik. Dayanıqlılığı əməliyyatlarımıza inteqrasiya etmək üçün güclü vizyonla aşağıdakı öhdəlikləri qəbul edirik:



### ABB-nin məsuliyyətli bankçılıq prinsiplərinə dair öhdəlikləri

**1 Uyğunlaşma**

Şəxsin və cəmiyyətin ehtiyaclarına töhfə vermək üçün biznes strategiyasını DİM-lərə, müvafiq beynəlxalq və milli çərçivələrə uyğunlaşdırmaq.

**2 Təsir və hədəf təyini**

Mənfi təsirləri azaldarkən, insanlar və ətraf mühit üçün riskləri idarə edərkən müsbət təsirləri davamlı olaraq artırmaq. Məqsədləri onlardan ən mühümlərinə çatacağımız şəkildə müəyyənləşdirmək və ictimaiyyətə elan etmək.

**3 Müştərilər**

Davamlı təcrübələri təşviq etmək, cari və gələcək nəsillər üçün ortaq rifah yaradan iqtisadi fəaliyyətləri təmin etmək üçün müştərilərlə məsuliyyətlə işləmək.

**4 Maraqlı tərəflər**

Sosial məqsədlərə nail olmaq üçün müvafiq maraqlı tərəflərlə fəal və məsuliyyətli şəkildə məsləhətləşmələr aparmaq, tərəfdaşlıq etmək.

**5 İdarəetmə və mədəniyyət**

Effektiv idarəetmə və məsuliyyətli bankçılıq mədəniyyətini təşviq etmək.

**6 Şəffaflıq və hesabatlılıq**

Şəffaflıq və hesabatlılıq prinsiplərinin müsbət sosial-iqtisadi təsirlərin artırılması üzrə təşəbbüslərə fəal şəkildə inteqrasiyası.

Son illər Bank ölkənin sosial-iqtisadi inkişafına fəal töhfə verərək məsuliyyətli maliyyə təşəbbüslərinə sadiqlik nümayiş etdirib. Biz Azərbaycanda qeyri-neft sektorunu və xidmət sənayesini dəstəkləyirik. Yerli layihələr üçün maliyyə həlləri təqdim edirik. Əməliyyatlarımızın davamlılığı üçün aşağıdakı sahələrdə performansımızı inkişaf etdirməyi hədəfləyirik:

**ABB-nin ekoloji və sosial inkişaf məqsədləri**
- Dayanıqlı kreditləşmə
- Yaşıl kreditləşdirmə siyasəti
- DİM ilə əlaqəli fond tərəfindən akkreditasiya
- Enerji səmərəliliyi layihələrinin maliyyələşdirilməsi

**Kağız istehlakı**
- Biznes proseslərinin rəqəmsallaşdırılması
- Sənədsiz işəgötürən

**Kağız istehlakının aşağı salınması ilə karbon emissiyasının azaldılması**
- Birbaşa emissiyaların azaldılması
- Dolayı emissiyaların azaldılması

**İdarəetmədə gender təmsilçiliyi**
- Liderlik təcrübələri və qərarvermədə iştirak vasitəsilə gender balansının təmin edilməsi

**ABB Tech Akademiyası məzunları**
- Yeni təhsil proqramlarının təşkili
- Əlaqədar mövzularda maarifləndirici tədbirlərə ev sahibliyi
- ABB Tech Akademiyası vasitəsilə işçilərin ixtisas biliklərinin və bacarıqlarının artırılması

## Davamlı maliyyə inkişafı üçün imkanlar

Dövlət bankı olaraq ABB qeyri-neft sektoru, ərzaq istehsalı və kənd təsərrüfatı kimi konkret iqtisadi sektorlarda strateji hədəflərin müəyyən edilməsinə cavabdeh olan dövlət qurumları ilə sıx tərəfdaşlıq edir. Hökumətin strateji inkişaf planına uyğun olaraq ABB xüsusilə regionlarda kiçik və orta sahibkarlıq (KOS) və kənd təsərrüfatı müəssisələrinə dəstəyini artırmağa çalışır. Buna nail olmaq üçün biz yerli fermerlərin ehtiyaclarını diqqətlə nəzərdən keçirir, onlara icmaların, yerli iqtisadiyyatın inkişafına töhfə verən uyğun həllər təklif edirik.

ABB AYİB, AİB, Dünya Bankı və digər çoxtərəfli inkişaf bankları (MDB) kimi beynəlxalq maliyyə institutlarının kredit risklərinin idarə edilməsi prosesinin təlimatlarına uyğun olaraq kommersiya kreditləşməsi fəaliyyətlərini fəal şəkildə təşviq edir.

Kənd təsərrüfatı sektorunda iştirakımızı artırmaq üçün ABB Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Aqrar Kredit və İnkişaf Agentliyinin (ACDA) Kənd Təsərrüfatı Kreditlərinin Qiymətləndirilməsi Sisteminin üzvüdür. Bu əməkdaşlıq bizə daha dəqiq risk qiymətləndirmələri aparmağa, kreditlərin işlənməsini sürətləndirməyə və fermerlər üçün maliyyə məhsullarına sadələşdirilmiş çıxışı asanlaşdırmağa imkan yaradır. Bu tərəfdaşlığı daha da genişləndirmək, kənd təsərrüfatı sahibkarlığını dəstəkləmək üçün ABB ABAD publik hüquqi şəxs və ACDA ilə Anlaşma Memorandumu imzalayıb.

## Məsuliyyətli təchizat zənciri

Potensial təchizatçılarla əlaqə qurarkən biz işgüzar əlaqələrimizdə ümumi uyğunluq, hörmət və dürüstlük kimi əsas dəyərləri dəstəkləyirik. Təchizatçılarımız üçün seçim prosesi qərəzsizliyi təmin etməklə obyektiv qiymətləndirmələrə əsaslanır. Bizim əsas təchizatçılarımız ödəniş sistemləri, kartlar, İT xidmətləri və avadanlıqları, marketinqlə məşğuldurlar.

Bankın öz funksiyalarını yerinə yetirməsi üçün məhsul və xidmətlərin satın alınması Satınalma Siyasətimiz və təchizatçı sorğusu (PPQ) ilə tənzimlənir. PPQ potensial təchizatçıların ESG-yə uyğunluğunu və təchizat prosesi boyunca keyfiyyətini qiymətləndirmək üçün istifadə edilən birdəfəlik sorğudur. O, daxili və xaricdən yoxlanılan keyfiyyət, sağlamlıq, təhlükəsizlik və ətraf mühitin idarə edilməsi sistemlərinin açıqlanmasını tələb edir (məsələn, ISO standartları). Bankın müvafiq struktur bölməsi tamamlanmış PPQ-ləri nəzərdən keçirir. Təchizatçılarla ünsiyyət zamanı ehtiyaclarımız, gözləntilərimiz maliyyə təkliflərini toplamazdan əvvəl Təklif Sorğusu (RFP) vasitəsilə ifadə edilir. Müqavilə şablonlarımıza tədarükçülər/satıcılar üçün xitam prinsipləri və cəzalar ilə bağlı bəndlər də daxildir.

Bundan əlavə, Bank dəyər zəncirinin ən yaxşı təcrübələrini təşviq etməklə və məsuliyyətli biznes davranışı ilə bağlı aydın gözləntiləri çatdırmaqla öz təchizat zəncirlərində dayanıqlı təcrübələri təşviq etməyə sadiqdir.

# 8.2. Əməkdaşlarımız üçün üstünlüklərin artırılması

İstənilən biznesin çiçəklənməsi üçün həm insan, həm də təbii resurslardan faydalanmanın səmərəli planlaşdırılması və istifadəsi zəruridir. Biz istedadların cəlbi, inkişafı və qorunmasına xüsusi diqqət yetirir, əhəmiyyətli investisiyalar qoyuruq. Daim inkişaf edən bazar və artan rəqabət şəraitində işçi qüvvəsinin diqqətlə və dayanıqlı əsaslarla idarə edilməsi vacibdir. ABB-də əməkdaşlara bərabər imkanlar mühiti yaradılır, xüsusi siyasətlərlə idarə olunan, əsas korporativ dəyərlərimizə uyğun İR təcrübələri dəstəklənir.



## İnsan resurslarının idarə olunmasına yanaşmamız

Biz inanırıq ki, xüsusi, həvəsli işçi qüvvəsinə malik olmaq böyük üstünlüklər verir. Uyğun əməkdaşların işə cəlbi ilə üstün müştəri xidmətlərinin göstərilməsi arasında birbaşa əlaqə var. Məsuliyyətli işəgötürən kimi bu amili hər zaman nəzərə alırıq və qarşılıqlı hörmət və etimad prinsipləri ilə dəstəklənən maarifləndirici iş mühiti yaradırıq.

ABB istedadların dayanıqlı inkişafı və karyera yüksəlişi ideyasına sadiqdir. Əsas prinsiplərimiz korporativ dəyərlərimizdə, strategiyamızda, Etika Kodeksimizdə, eləcə də insan resurslarının idarə edilməsi ilə bağlı digər daxili idarəetmə sənədlərimizdə öz əksini tapıb. Bunlara aşağıdakılar aiddir:

- İşəqəbul siyasəti
- Qiymətləndirmə siyasəti
- Yeni işçinin adaptasiyası siyasəti
- İşçinin işdən azad edilməsi

2018-ci ildə həyata keçirilmiş restrukturizasiyadan sonra işçilərin sayında dayanıqlı artım müşahidə olunur. Bu da ABB-nin etibarlı işəgötürən olduğunu göstərir. ABB-nin strateji inkişaf planı uzunmüddətli perspektivdə əməliyyat mükəmməlliyini prioritet götürür. Eyni zamanda, biz qabaqcıl təcrübələrə uyğun olaraq performansın idarə edilməsi, təlim və inkişaf, ədalətli mükafatlandırma baxımından insan kapitalının idarə edilməsi sistemimizi təkmilləşdirməyə çalışırıq.

## İşəqəbul

ABB-də işəqəbul prosesi Müşahidə Şurası tərəfindən təsdiq edilmiş İşəqəbul siyasətimizdə qeyd olunan bir neçə addımdan ibarət ardıcıl prosesə uyğun aparılır.

2022-ci ilin əvvəlində Bankda işəqəbulu da özündə əks etdirən insan resursları platforması yaradılıb.

Bu, işəqəbul prosesinin təkmilləşdirilməsinə kömək göstərib. Nəticədə çoxlu sayda namizəd ABB karyera portalı vasitəsilə onlayn müraciət göndərib. Bank potensial namizədləri seçib müsahibəyə dəvət edib.

Link: https://careers.abb-bank.az



Şəkil 17. ABB-də işçilərin dinamikası




## İşəgötürülənlər haqqında məlumatlar

Şəkil 18. İşəgötürülənlər haqqında məlumatlar

| Tam ştatda olan işçilər, yaş üzrə | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| 30 yaşdan aşağı | 1089 | 994 | 1145 |
| 30-50 yaş arası | 1274 | 1525 | 1673 |
| 50 yaşdan yuxarı | 252 | 281 | 278 |

| Regionlar üzrə işçilərin ümumi sayı | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Bakı və Abşeron | 1946 | 2178 | 2457 |
| Regional şöbələr və filiallar | 669 | 622 | 639 |

| Həmkarlar İttifaqı üzvü olan işçilərin faizi | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Kollektiv müqavilə ilə təmin olunmuş işçilər | 75% | 71% | 66% |



Şəkil 19. İşə qəbul edilmiş işçilərin gender üzrə say bölgüsü

| Gender | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| İşə qəbul edilmiş işçilərin ümumi sayı | 427 | 228 | 310 | 201 | 361 | 275 |

Şəkil 20. İşə qəbul edilmiş işçilərin yaş üzrə ümumi sayı

| Miqyas | 2020 | | | 2021 | | | 2022 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 30 yaşdan aşağı | 30-50 yaş arası | 50 yaşdan yuxarı | 30 yaşdan aşağı | 30-50 yaş arası | 50 yaşdan yuxarı | 30 yaşdan aşağı | 30-50 yaş arası | 50 yaşdan yuxarı |
| İşçilərin ümumi sayı | 410 | 236 | 9 | 364 | 140 | 7 | 454 | 173 | 9 |

Şəkil 21. İşçi axını dövriyyəsi

| 2020 | 2021 | 2022 |
|---|---|---|
| 8% | 9.2% | 9.8% |

## İşçilərin inkişafı

İstedadların idarə edilməsi və inkişafı biznes modelimizin əsasını təşkil edir. Biz işçilərin tanınması və karyera yüksəlişi istiqamətində göstərdiyi səylərə dəstəyimizi təmin edən bir sıra hərtərəfli təlim proqramları təqdim edir və onların özünü təkmilləşdirmə yolunun daha da gücləndirilməsinə diqqət göstəririk. Bank daxilində etimad və sədaqət dəyərlərini gücləndirmək üçün biz kənardan işçi götürülməsinin əvəzinə, yüksək dərəcəli kadrları namizədlərimizin mövcud daxili fondundan seçməyə çalışırıq.

**“Executive Mini-MBA” proqramı**

2022-ci ilin sonlarında ABB öz menecerlərinin dayanıqlı inkişafı üçün Türkiyənin ən nüfuzlu ali təhsil müəssisələrindən biri olan Koç Universiteti ilə əməkdaşlığa başladı. Bank dünyanın ən yaxşı universitetləri sırasında yer alan bu universitetlə birlikdə “Executive Mini-MBA” proqramını həyata keçirdi. Proqram ABB menecerləri üçün xüsusi hazırlanmış kurrikulum əsasında həyata keçirildi.

21 menecer proqramın seçim mərhələlərindən uğurla keçərək Koç Universitetində təhsil almaq hüququ qazandı. Menecerlər strateji marketinq, strateji düşüncə və planlaşdırma, rəhbər işçilər üçün maliyyə, rəqəmsal transformasiya və texnologiyalar, data əsaslı qərarvermə, effektiv danışıqlar, təşkilati davranış və korporativ mədəniyyət, effektiv ünsiyyət və faydalı rəy üzrə praktik bilik və bacarıqlar əldə etdilər. 6 aylıq proqram çərçivəsində dərslər həm Bakıda, həm də İstanbulda Koç Universitetinin müəllimləri tərəfindən keçildi.

2021-ci ildən etibarən İnsan resurslarının idarə edilməsi departamenti illik təlim planları hazırlayır. Öyrənmə İdarəetmə Sistemini (LMS) tətbiq etməklə işçilər təlimlərin siyahısı ilə tanış ola, təlim üçün ABB İnsan Resursları portalına müraciət edə bilərlər.

Təkmilləşdirilmiş daxili təlim sistemi və LMS tətbiqi nəticəsində 2022-ci il ərzində əməkdaşlarımıza daha çox təlimlər və inkişaf proqramları təklif olundu. Biz bu müsbət tendensiyanı növbəti illərdə də davam etdirməyi planlaşdırırıq.

**"Horizon" inkişaf proqramı**

Əsas məqsəd müştəri xidmətləri işçilərinin peşəkar bacarıqlarını artırmaqdır. Layihədə iştirak etmək üçün işçilər ilkin olaraq IQ testindən keçirlər. Sınaqdan keçmiş işçilər 13 departamentdə təcrübədə iştirak edir. Təcrübə başa çatdıqdan sonra təyin olunmuş mentordan qiymətləndirmə rəyi alırlar. 2022-ci ildə bu proqramda iştirak etmək üçün cəmi 12 işçi seçildi.

Növbəti proqramın 2023-cü ilin ikinci hissəsinə doğru baş tutacağı gözlənilir.

Şəkil 22. Bir əməkdaşın payına düşən illik təlim saatları

| Bir əməkdaşın payına düşən illik təlim saatları | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| İşçilərin ümumi sayına nisbətdə: | 12 | 8 | 14 |

## Əməkdaşların cəlb olunması və kommunikasiyası

Bizim əsas məqsədimiz işçilərimizlə səmimiyyət, qarşılıqlı inam və hörmət əsasında möhkəm münasibətlər qurmaqdır. Biz onların fikirlərini dərindən qiymətləndiririk. Beləliklə, komandalar və funksiyalar arasında davamlı açıq ünsiyyət və qüsursuz komanda işi mədəniyyətini inkişaf etdiririk. Eyni zamanda, inkişaf məqsədlərinə nail olmaq üçün kouçinq və rəy təmin etməklə, uzunmüddətli karyera artımı və irəliləyişinə üstünlük veririk.

Fəaliyyətin məqsəd və vəzifələrini müəyyənləşdirmək, onları işçi heyətinə çatdırmaq və fəaliyyəti düzgün qiymətləndirmək üçün təşkilatda effektiv fəaliyyətin qiymətləndirilməsi sistemini qurmaq lazımdır. Bu sistem nə qədər effektiv qurularsa, qurumun özü üçün də bir o qədər məhsuldar və faydalı olar.

**"360 Performans Qiymətləndirilməsi"**

Biz işçilərlə qarşılıqlı əlaqədə olan şəxslərdən məxfi və anonim rəy toplamaq üçün 360 dərəcə qiymətləndirmə sistemindən istifadə edirik. Bu sistem işçinin peşəkarlığının və ayrı-ayrı keyfiyyətlərinin müxtəlif statuslu şəxslər tərəfindən qiymətləndirilməsini nəzərdə tutur. Daha sonra rəy işçiyə hesabat şəklində təqdim olunur. Özünü inkişaf sahələri vurğulanır. Sistem işçilərin performansını artırmaq, təlim ehtiyaclarını müəyyən etmək, karyera idarəçiliyi, yüksəlişlər və əmək haqqı düzəlişləri üçün məlumat toplamaq daxil olmaqla bir çox məqsədlərə xidmət edir. Bundan əlavə, sistem liderin fəaliyyətini qiymətləndirmək üçün də tətbiq olunur.

Hazırda ABB bu qiymətləndirmə metodunu rəhbər vəzifələrdə çalışan işçilərə tətbiq edir. İşçilərin 2022-ci ildəki performansları ilə bağlı rəylər 2023-cü ilin ilk aylarında qiymətləndiriləcək.



Bundan əlavə, işçilərin loyallığını və motivasiyasını artırmaq üçün mütəmadi olaraq müxtəlif təşəbbüslər həyata keçiririk. **Məsələn, biz 2020-ci ildən "Fərqlilər" təşəbbüsünü reallaşdırmışıq.** 2022-ci ilin 3-cü və 4-cü rübündə daha yüksək nəticə göstərən 76 əməkdaşımız mükafatlandırılıb.

Bundan əlavə, İntranet daxili şəbəkəmizdə işçilərin təlimat dəyişiklikləri, qüvvədə olan qanunlar, struktur düzəlişləri və digər daxili məsələlər barədə ətraflı məlumatlar yerləşdirilir. Bu portal daxili kommunikasiya şəbəkəsi kimi fəaliyyət göstərən mühüm alət rolunu oynayır. Əməkdaşlar buradan həm Bank daxilindəki, həm də Bankdankənar imkanlar haqqında məlumatlar əldə edə bilirlər. Bu portal əməkdaşların peşəkar və şəxsi inkişafını dəstəkləyir.










Hesabat dövründə ABB İnsan Resursları məqsədləri üçün nəzərdə tutulmuş bir çox yeni İT platformasını tətbiq edib. Bu sistem müxtəlif kanallar vasitəsilə toplanmış məlumatların qüsursuz birləşdirilməsinə, təhlilinə imkan verir. İnsan resurslarının idarə edilməsinə hərtərəfli, inteqrasiyalı yanaşmanı asanlaşdırır. Platforma prosesləri sadələşdirir, məlumatların dəqiqliyini artırır, işçi qüvvəmizin böyüməsini, uğurunu dəstəkləmək üçün əsaslandırılmış qərarlar qəbul etməkdən ötrü İnsan Resursları komandamıza səlahiyyət verir.

# 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi

Ən dəyərli öhdəliklərimizdən biri cəmiyyətə müsbət təsirlərin gücləndirilməsidir. Məsuliyyətli addımlar və təşəbbüslər vasitəsilə biz hamı üçün daha yaxşı və parlaq gələcək təmin edərək, mənalı fərq yaratmağa çalışırıq.

## KSM-ə idarəetmə yanaşması

Korporativ Sosial Məsuliyyət (KSM) mədəniyyətini korporativ dəyərlərimizə aşılamaq üçün biz 2020-ci ildə KSM siyasətimizi qurmaqla mühüm addım atdıq. Bu siyasət KSM prinsiplərinə sadiqliyimizi vurğulayır və uzunmüddətli baxışımızın ayrılmaz tərkib hissəsidir. KSM mexanizmlərinin tətbiqinə dair öhdəliyimiz Bankın iki əsas gündəliyindən irəli gəlir:

**1. Sosial təsirlərimizi yaratmaq, idarə etmək, qiymətləndirmək**

Biz yuxarı rəhbərliyin dəstəyi və cəlb olunmasının KSM məlumatlılığının Bankın korporativ və mədəni gündəliyinə inteqrasiyasında önəmini anlayırıq.

**2. Ən yaxşı təcrübəyə əsaslanaraq maraqlı tərəflərlə əlaqəmizi tənzimləmək**

ABB-nin KSM siyasəti, ilk növbədə, maraqlı tərəflərin sosial məsələlərdə iştirakını, sosial dəyər yaradılmasını və cəmiyyət üçün zərərli təsirlərin minimuma endirilməsini, yaxud bu təsirlərin qarşısının alınmasını əhatə edir. Bankın KSM siyasətinin prinsipləri hesabatlarda şəffaflıq, etika, qanunun aliliyi və insan hüquqları daxil olmaqla ISO 26000 standartının tələblərinə əsaslanır. Sosial sahədən başqa, KSM siyasəti tərəfdaş bizneslərin və müştərilərin ətraf mühitə potensial təsirlərinin qiymətləndirilməsini də məsuliyyətli maliyyələşdirmənin aspektlərindən biri kimi müəyyənləşdirir. ABB-nin DİM-ə uyğunluq üzrə səyləri aşağıda qeyd olunan beynəlxalq səviyyədə qəbul edilmiş ən yaxşı təcrübələri qəbul etməsi ilə nümayiş etdirilir:

- BMT DİM
- Məsuliyyətli maliyyə və dayanıqlı inkişaf üzrə digər beynəlxalq standartlar (ISO 26000-dən başqa) və qabaqcıl DİM təcrübələri, məsələn, UNEP PRI,
- GRI, SASB

## Yeni liderlərin və gənc istedadların yetişdirilməsi

ABB həmişə istedadlı məzunları axtarır və onları aparıcı bankda ilk işi ilə təmin etmək üçün yerli universitetlərlə sıx əməkdaşlıq edir. Məzunların işəqəbulu proqramımız müxtəlif universitetlərdə mövzu üzrə ekspertlərimiz və işəqəbul heyətimiz tərəfindən keçirilən bilik mübadiləsi sessiyaları və sual-cavab sessiyalarından ibarətdir. Bakıda və digər regionlarda yerləşən universitetlərdə karyera sərgiləri təşkil olunur.

ABB ADA-da təşkil olunan Karyera Həftəsinin əsas sponsoru rolunu iki ildir öz üzərinə götürüb. Bu da onun məşğulluq təşəbbüslərini və akademik axtarışları təşviq etmək üçün davamlı öhdəliyini ifadə edir.

**İxtisaslı mütəxəssislərə iş axtarışında kömək etmək məqsədilə Bank hər il ödənişli təcrübə proqramı həyata keçirir.** ABB-nin ödənişli təcrübə proqramı əsasən bank işi, maliyyə, vergi, biznesin idarə edilməsi və korporativ idarəetmə kimi təhsil seqmentləri üzrə Azərbaycan universitetlərindən, eləcə də xarici universitetlərdən məzun və magistr tələbələrinin cəlb edilməsinə yönəlib. **2022-ci il təcrübə proqramımız zamanı ABB-nin müxtəlif departamentləri üzrə 14 təcrübəçi seçilmişdi.** Onların təcrübə keçməsi müvafiq struktur bölmədə sonrakı işəqəbulları üçün əsas performans göstəricisi olub.

Bundan əlavə, 2022-ci il ərzində filial şəbəkəsi 100-dən çox təcrübəsiz namizədi cəlb edərək onlara iki aylıq təcrübə proqramı təqdim edib. Təcrübə müddətindən sonra iştirakçılar təşkilat daxilində işə qəbul olunmaq üçün yekun uyğunluq imtahanından keçiblər.



## Bərabər imkanlar və müxtəliflik

ABB-də yaşa, dini inanclara, cinsiyyətə və ya irqi/etnik mənsubiyyətə əsaslanan hər hansı formada ayrı-seçkiliyi açıq şəkildə qadağan edən güclü İnsan Resursları Siyasətimiz və Etika Kodeksimiz var. Bu prinsiplərin işəqəbul və kadr seçimi proseslərimizə tam inteqrasiyasını təmin etmək bütün strukturlara şamil olunan aydın bir mövqedir. Əsas məqsədimiz işəgötürən-işçi münasibətlərinin bütün aspektlərində etik standartları qoruyaraq, kadr tələblərimizə cavab verməkdir.

Cədvəl 6. ABB-də gender balansı

| Gender | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| Rəhbərlik | 9 | 2 | 9 | 2 | 9 | 2 |
| Orta menecment | 255 | 53 | 299 | 60 | 367 | 81 |
| Digər kateqoriyalar | 1320 | 976 | 1382 | 1048 | 1460 | 1177 |

İşdə gender bərabərliyinin təmin edilməsi üçün məsuliyyətimizi qəbul edərək, biz qadınların bütün qərarqəbuletmə proseslərində fəal iştirakı üçün onların səlahiyyətlərini artırmağa çalışırıq. Bu yanaşma bizim Etik Kodeksimizlə də dəstəklənir və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə sadiqliyimizdə öz əksini tapır. Qadın işçilərin sayının artırılması ilə yanaşı, biz qadın mütəxəssislərimizin analıq məzuniyyəti bitdikdən sonra işədönüşünü də təmin edir, onlara əmək qanunvericiliyindən irəli gələn imtiyazlar yaradırıq. Qadın əməkdaşlarımızın 62%-i 2022-ci ildə analıq məzuniyyətindən sonra işə qayıdıb.

ABB ən yaxşı istedadları cəlb etmək və saxlamaqla mövcud və perspektivli işçilər üçün seçilmiş işəgötürən olmağı hədəfləyir. Biz işçilərimizə bərabər və rəqabətədavamlı əmək haqqı təmin etmək üçün davamlı olaraq çalışırıq.

## Elm və təhsilə yatırım

ABB korporativ sosial məsuliyyət layihəsi çərçivəsində biznes-təlimçi Elşən Bədirxanovun "Maraqlı MBA – Rəhbərin masaüstü kitabı" adlı yeni kitabının nəşrinə dəstək verib. 2022-ci ilin 14 Fevral Günü - "Beynəlxalq Kitab Bağışlama Günü"ndə kitabın təqdimatı keçirilib. Təqdimatdan sonra ABB kitabın nüsxələrini ölkə üzrə müxtəlif qurumlara, universitetlərə, mərkəzi kitabxanalara bağışlayıb. Kitabın məzmunu idarəetmə sahəsində fundamental təcrübələri əhatə edir. Burada beynəlxalq səviyyədə tanınmış biznes təşkilatlarının təcrübəsinə istinad olunur və bu sahədə nüfuzlu alimlərin fikirləri öz əksini tapır.



## “EY İlin İş Adamı”

ABB EY Azərbaycan-ın keçirdiyi “EY İlin İş Adamı” müsabiqəsinə də dəstək verib. ABB ölkədə sahibkarlığın və biznesin inkişafının dəstəklənməsi öhdəliyinin bir hissəsi olaraq ardıcıl dörd ildir ki, “EY İlin İş Adamı” müsabiqəsinə maliyyə dəstəyi verir.

“EY İlin İş Adamı” müsabiqəsi dünyanın 60-dan çox ölkəsində təşkil olunur. Məqsəd ölkənin iqtisadi inkişafına, cəmiyyətin rifahına töhfə verən yenilikçi sahibkarları tanıtmaq, onları ruhlandırmaqdır. Azərbaycan da son illərdə bu müsabiqənin fəal iştirakçılarındandır. bp və tərəfdaşları, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Ekvita şirkəti və AZPROMO da bu mötəbər tədbirin uğurla keçirilməsində tərəfdaş kimi mühüm rol oynamışdır.







## Jurnalistika sahəsinin inkişaf etdirilməsi

ABB-nin dəstəyi ilə keçirilmiş proqramda İKT, e-xidmətlər və rəqəmsal həllər haqqında anlayışlarını artırmaq istəyən 28 media nümayəndəsi iştirak edib. İştirakçılar jurnalistika və İKT tendensiyaları, elektron hökumət layihələri, informasiya təhlükəsizliyi, süni intellekt, blogerlik, sosial media və startaplar kimi müxtəlif mövzuları əhatə edən təlimlərə qatılıblar. Bundan əlavə, ABB nümayəndəsi də onlara maliyyə texnologiyaları üzrə xüsusi təlimlər keçib.

“Rəqəmsal jurnalistikaya doğru” proqramının əsas məqsədi media mütəxəssislərini rəqəmsal həllər, elektron xidmətlər və əlaqəli sahələr haqqında biliklərlə gücləndirmək, onlar vasitəsilə cəmiyyətin, vətəndaşların maariflənməsinə səmərəli töhfə verməkdir.



## Biznes savadlılığı proqramı

ABB Sahibkarlar Klubunun üzvləri ilə birlikdə regionlarda fəaliyyət göstərən iş adamları üçün təlim proqramları keçirib. Təlimlər 13-14 may 2022-ci il tarixlərində Şəki-Zaqatala iqtisadi rayonundan 40-a yaxın sahibkarın iştirakı ilə Şəki şəhərində təşkil edilib. Bu təlimlərdə əsas diqqət elektron ticarət, iştirakçıların müxtəlif onlayn satış kanalları və rəqəmsal biznes təcrübələri haqqında maarifləndirilməsinə yönəlib. Bundan əlavə, ictimaiyyətlə əlaqələr kimi mühüm fəaliyyətlərə dair təqdimatlar da edilib. Təlim iştirakçıların bilik və bacarıqlarını artırmaqla yanaşı, eyni zamanda yeni tərəfdaşlıq əlaqələrinin qurulması imkanlarını asanlaşdırıb.

ABB digər iqtisadi zonalarda da silsiləvi şəkildə "Sahibkarlar Klubu" təlimləri təşkil etməyi planlaşdırır. Bu təşəbbüs regional sahibkarları gücləndirməyə yönəlib.











## "Texnofest" festivalı Azərbaycanda

26-29 may 2022-ci il tarixlərində Azərbaycanda keçirilən "Texnofest" Aviasiya, Kosmik və Texnologiya Festivalında ABB tərəfdaş kimi fəal iştirak edib. Bank festivalın tərkib hissəsi olan "TAKE OFF BAKU" startap sammitinin təşkilində mühüm rol oynayıb. Bank 300-dən çox yerli və beynəlxalq startapın kəşfini asanlaşdırıb, aparıcı beynəlxalq ekspert mentorları və münsiflər heyətini cəlb edib, xarici ölkələrdən investorların və vençur kapitalı fondlarının cəlb edilməsinə kömək göstərib. Bu mühüm töhfə festivalın uğuruna, innovasiya və sahibkarlıq mühitinin dəstəklənməsinə əhəmiyyətli töhfə verib.




## "Shusha Chess 2022"

21-24 sentyabr 2022-ci il tarixlərində Azərbaycanın mədəniyyət paytaxtı Şuşada "Shusha Chess 2022" beynəlxalq turniri keçirilib. Tədbirin təşkilatçıları Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyası və Şuşa Şəhər Dövlət Qoruğu İdarəsi olub. SOCAR-ın baş sponsorluğu ilə keçirilən "Shusha Chess 2022" tədbirinə ABB də tərəfdaşlıq dəstəyi verib. ABB-nin "Shusha Chess 2022" turnirinə sponsorluğu Bankın müxtəlif sahələr üzrə korporativ sosial məsuliyyətə dair öhdəliyinin tərkib hissəsidir. Bu cür təşəbbüsləri dəstəkləməklə ABB Azərbaycanda fiziki və intellektual idmanın kütləviliyini təşviq etmək, yerli istedadları həvəsləndirmək və yetişdirmək, cəmiyyətimizin parlaq gələcəyinə töhfə vermək məqsədi güdür.




## Yerli startapların inkişaf etdirilməsi

ABB İnnovasiya Mərkəzi 12 perspektivli startapın seçildiyi 3-cü İnkubasiya proqramını reallaşdırıb. Seçim prosesində həm fərdlərin, həm də 3-cü ABB Regional Hakatonunda iştirak edən komandaların müraciətləri nəzərdən keçirilib. Bu proqram erkən mərhələdə olan startaplara mühüm dəstək və inkişaf imkanları təmin etmək, onlara bazara çıxış imkanı yaratmaq üçün nəzərdə tutulub.

İnkubasiya proqramı başa çatdıqdan sonra startaplara potensial maliyyələşdirmə və əməkdaşlıq imkanlarını asanlaşdırmaqla öz layihələrini yerli və xarici investorlara nümayiş etdirmək imkanı yaradılıb. İnkubasiya proqramından keçən startaplar ABB İnnovasiya Mərkəzinin akselerasiya proqramında iştirak ediblər.

Bu proqramlar Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə sıx strateji tərəfdaşlıq çərçivəsində təşkil edilib ki, bu da ölkədə innovasiyalar və rəqəmsal inkişafı təşviq etmək üçün maraqlı tərəflərin öhdəliyini nümayiş etdirir.









## Məktəblilər üçün riyaziyyat yarışması

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tərəfdaşlığı ilə keçirilən ABB Riyaziyyat Yarışması riyaziyyat üzrə müstəsna istedadı olan gənc fərdləri üzə çıxarmaq və onların informasiya texnologiyalarına marağının artırılmasını təmin etmək məqsədi daşıyır.

Yarışmada Azərbaycanda təhsil alan bütün 9, 10 və 11-ci sinif şagirdlərinə iştirak imkanı yaradılıb.

Seçim mərhələlərində uğur qazanan 30 namizəd Bakıda 10 günlük intensiv riyaziyyat təlimində iştirak imkanı qazanacaq.

ABB Riyaziyyat Yarışması gənc riyaziyyat istedadlarını ruhlandırmaq və inkişaf etdirmək, riyaziyyat və texnologiya sahəsində perspektivli şəxslər üçün parlaq gələcək bəxş etmək məqsədi daşıyır.




## "Gənc fermer" oyunu

2022-ci ildə ABB, Gənclər və İdman Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyinin tərəfdaşlıq dəstəyi ilə "Gənc fermer" Ümumrespublika Biznes Oyunu layihəsinin keçirilməsinə dəstək verib. Layihənin təşəbbüskarı və icraçısı Aqrar İnkişaf Könüllüləri Təşkilatı olub. Belə bir layihənin həyata keçirilməsində məqsəd gənclərin aqrar biznes sahəsində bilik və bacarıqlarının artırılması olub. Layihənin gedişatı ərzində iştirakçılar layihə təkliflərinin tərtib edilməsi, təlimat seminarlarında iştirak etmək və kənd təsərrüfatı sahələrinə yerində səfərlər etmək kimi fəaliyyətlərə cəlb olunublar.








## Şuşada “Cıdır düzü” yolunun bərpası

İşğaldan azad Şuşa şəhərinin dirçəlişinə töhfə kimi ABB Şuşanın tarixi mərkəzindən Cıdır düzünə aparan tarixi yolun bərpasını həyata keçirib.

“Cıdır düzü yolu” təşəbbüsü ilə ABB 2022-ci ildə mədəniyyət paytaxtımızın dirçəlişinə əhəmiyyətli ictimai töhfə verib.





## Azərbaycan Boks Çempionatı

Azərbaycan Boks Federasiyası ilə tərəfdaşlığa uyğun olaraq, ABB 18 oktyabr 2022-ci il tarixində keçirilən boks üzrə Azərbaycan çempionatının açılış mərasimində fəal iştirak edib.

Mərasimə qatılmış şəhid övladlarına ABB-nin hədiyyələri təqdim olunub.






## ABB Tech Akademiyasının yeni proqramları

ABB-nin yaratdığı ABB Tech Akademiyası “Məhsul sahibliyi”, “Proqram təminatı mühəndisliyi”, “Maşın öyrənmə”, “İT biznes analitiki” və “Backend proqramlaşdırma (JAVA)” üzrə yeni proqramlar elan edib.

Proqramlara Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, bp şirkəti və tərəfdaşları da dəstək verib.

Qəbul zamanı yüksək nəticə göstərən tələbələr təqaüd qazanıblar.

İndiyədək ABB Tech Akademiyasını 13 müxtəlif sahə üzrə 300-dən çox məzun bitirib. Məzunların təxminən 75%-i ABB-də və ölkənin digər aparıcı şirkətlərində işlə təmin olunub.



## "Texnofest" Samsun

4 sentyabr 2022-ci il tarixində "Texnofest" Samsun tədbiri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ("ASAN xidmət") Diaspora ilə İş üzrə Dövlət Komitəsinin dəstəyi və ABB-nin maliyyə yardımı ilə Türkiyədəki Azərbaycan vətəndaşlarına müəyyən dövlət xidmətləri göstərib. 2018-ci ildə yarandığı gündən etibarən TEKNOFEST gənclər, tələbələr, məktəblilər, startapçılar və sahibkarlar üçün geniş imkanlar yaratmağı qarşısına məqsəd qoymuşdur.




# 8.4. Ətraf mühitə təsirimizin idarə edilməsi

Biz əməliyyatlarımızın və investisiyalarımızın təbii ehtiyatların tükənməsinə, iqlim dəyişikliyinə göstərə biləcəyi potensial mənfi təsirlərdən xəbərdarıq. Ekoloji problemləri əməliyyatlarımızda nəzərə almaq üçün ABB, ilk növbədə, ətraf mühitə birbaşa təsirlərin monitorinqinə və ölçülməsinə başlayıb. Bundan əlavə, ABB ardıcıl olaraq üç il ərzində birbaşa enerji və su istehlakı, tullantıların idarə edilməsi və karbon emissiyaları haqqında hesabatlar hazırlamaqla gələcək dayanıqlılıq hesabatı üçün zəmin yaradıb. Gələcəyə baxaraq, biz resurs istehlakı və ətraf mühitə dolayı təsirlər haqqında hesabat vermək üçün daha əhatəli yanaşma gözləyirik. ESG mülahizələrinin inteqrasiyasını təmin etməkdən ötrü, eləcə də risklərin idarə edilməsi prosesini və portfelimizi müasir təcrübələrə uyğunlaşdırmaq məqsədilə maraqlı tərəflərlə müzakirələr aparırıq.



## Məsuliyyətli istehlak

ABB əsas beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın genişləndirilməsinə böyük diqqət yetirir. Xüsusilə iqlim dəyişikliyi ilə bağlı ESG risklərinin məsuliyyətlə idarə olunmasının artan əhəmiyyətini qəbul edir.

Bank və maliyyə sektorunun ətraf mühitə birbaşa təsirləri neft, qaz, yaxud nəqliyyat sektoru kimi enerji tutumlu sahələrlə müqayisədə nisbətən aşağı olsa da, biz kredit portfelimiz vasitəsilə maliyyələşdirilən müxtəlif sektorlara və bizneslərə göstərdiyimiz əhəmiyyətli dolayı təsirləri qəbul edirik. Ətraf mühitə birbaşa təsirlərimiz müəssisənin istifadəsi, tullantıların əmələ gəlməsi, işçilərin daşınması və işgüzar səfərlər üçün su və yanacaq sərfiyyatı ilə sıx bağlıdır.

Ətraf mühitlə bağlı məqsədlərimizə nail olmaq üçün biz resurs istehlakını azaltmaq və binalarımızın, serverlərimizin, İT infrastrukturumuzun və xidmət məntəqələrimizin enerji səmərəliliyini artırmaq yollarını axtarırıq. Resurs istehlakındakı bu azalma təkcə ətraf mühitin qorunmasına kömək etmir, həm də tullantıların azaldılmasına müsbət təsir göstərir.

Resurslardan səmərəli istifadə davranışını inkişaf etdirməklə, biz işçilərimizi ofis avadanlığını istifadə edilmədikdə açıq qoymamağa və iş gününün sonunda ofis işıqlandırma və kondisioner sistemlərini söndürməyə təşviq edirik.

## Tullantıların idarə olunması

ABB tullantıların istehsalını azaltmaq və təkrar emal səylərini artırmaq üçün öhdəlik daşıyır. Rəqəmsallaşma, mobil bankçılıq və onlayn xidmətlərə investisiyalar işçilər və müştərilər tərəfindən kağız istehlakını azaltmağa kömək göstərir. Tələb olunan sənədlərin qəbulu üçün elektron sistemlər çap xərclərini və təhlükəli olmayan ofis tullantılarını azaldıb. ABB ofislərində kağız və plastik maddələr üçün ayrıca tullantı qutuları quraşdırılır və tullantılar təkrar emala göndərilir. Ümumi tullantı növlərinə kağız, ofis avadanlığı, kartriclər, batareyalar və flüoresan lampalar daxildir. ABB həmçinin ASAN Xidmətlə birgə layihə vasitəsilə tullantıların ayrılması və yığılmasını təşviq edir.

### Ağacəkmə kampaniyası

2022-ci ildə ABB Müşfiqabad qəsəbəsində keçirilən "Yaşıl Marafon" ağacəkmə tədbirində iştirak edib. Təşəbbüs əsasında 51 hektar ərazidə meşə massivi salınacaq.






## Su istehlakı

Azərbaycan Ümumdünya Resurslar İnstitutu (WRI) tərəfindən orta və yüksək su böhranı ilə üzləşə biləcək ölkələr siyahısına daxil edilib. Bu da suyu ölkə üçün mühüm təbii resurs edir. Banklar iqtisadiyyatlarda əsas su istehlakçıları olmasalar da, onların dolayı su təsiri kənd və şəhər yerlərində su təchizatına, eləcə də təbii hidroloji sistemlərə əhəmiyyətli dərəcədə təsir edə və icmalar üçün müəyyən nəticələrə gətirə bilər.

Bu amilləri nəzərə almaqla sektordan asılı olmayaraq, ölkə üzrə çoxsaylı regional ofisləri olan iri müəssisələrin suya təsirləri barədə hesabat verməsi vacibdir. Bank şirin suyu yerli su təchizatı xətlərindən və üçüncü tərəf su təchizatçılarından alır. Hazırda suyun təkrar istifadəsi və ya təkrar dövriyyəsi üçün qurğular mövcud deyil.

Şəkil 23. Təmiz su istehlakı

| Göstəricilər | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| İstehlak olunan həcm, m³ | 21,112 | 40,745 | 37,450 |
| Hər bir əməkdaş üzrə istehlak həcmi, m³ | 8,1 | 14,6 | 12,1 |

## Emissiyalar və elektrik enerjisi istifadəsi

Hər hansı mənfi ekoloji təsirləri azaltmaq məqsədilə ABB qaz yanacağı və benzin, dizel və təbii qaz kimi təbii ehtiyatların istehlakını diqqətlə izləyir. Bu öhdəliyin bir hissəsi olaraq Bank enerji səmərəliliyini artırmaq, tullantıların idarə edilməsini optimallaşdırmaq və dəyər zənciri üzrə $CO_2$ emissiyalarını azaltmaq üçün müxtəlif strategiyalardan istifadə edir. Buna görə əməliyyatlarımızın rəqəmsallaşdırılmasına xüsusi diqqət yönəltmişik. Bu da bizə səmərəliliyi artırmaq və lazımsız prosesləri aradan qaldırmaq vasitəsilə dolayı karbon emissiyalarını azaltmağa imkan verir.

Şəkil 24. Növlər üzrə ümumi yanacaq sərfiyyatı

| Göstəricilər | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Dizel (ton) | 141.6 | 187.5 | 170.9 |
| İşçiyə düşən dizel (ton) | 0.05 | 0.07 | 0.06 |
| Benzin (ton) | 199.71 | 246.56 | 341.63 |
| İşçiyə düşən benzin (ton) | 0.08 | 0.09 | 0.11 |
| Təbii qaz (min kubmetr) | 567 | 422 | 431.82 |
| İşçiyə düşən təbii qaz (min kubmetr) | 0.22 | 0.15 | 0.14 |



Aşağıdakı cədvələ **Həcm - 1** və **Həcm - 2** emissiyalarını əhatə etməklə Bankın karbon izi daxildir:

**Həcm - 1** cədvəlində Bank tərəfindən təbii qaz/dizel/benzin istehlakı nəticəsində yaranan emissiyalar əks olunur.

**Həcm - 2** cədvəlinə Bank tərəfindən istehlak edilən elektrik enerjisi emissiyaları aiddir:

Cədvəl 7. Ümumi GHG emissiyaları və elektrik enerjisi istehlakı

| Göstəricilər | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Həcm - 1<br>İstilik, (icarə və mülkiyyətdə olan) avtomobillərdən, generatorlardan yanacağın yanması nəticəsində yaranan İXQ emissiyaları (tCO2 eq) | 2,264 | 2,221 | 2,478 |
| Həcm - 2<br>Elektrik enerjisi istehlakından yaranan istixana qazı emissiyaları (tCO2 eq) | 4,607 | 4,408 | 4,823 |
| Ümumi emissiyalar (tCO2 eq) | 6,871 | 6,629 | 7,301 |
| Elektrik enerjisi istifadəsi, kWh | 9,729,262 | 9,308,896 | 10,187,647 |

Biz ən böyük gəlirlərimizin maliyyələşdirmə fəaliyyətlərimizlə bağlı portfelimizdən yarandığını anlayırıq. Həcm - 3 emissiyalarının ölçülməsi üçün sistemlərin yaradılması təşəbbüsü bizim üçün gələcəyə hesablanmış addımdır. Bu istiqamətdə cəhdlər bizim idarəetmə gündəliyimizdə mühüm yer tutur. Biz gələcək hesabatlarımız vasitəsilə maraqlı tərəfləri inkişafımız barədə müntəzəm şəkildə məlumatlandıracağıq.



# BİZ DAYANIQLIYIQ

# 9.


**Biz dayanıqlıyıq** ........ **88**

**9.1.** İdarəetmə ........ 88

**9.1.1.** Korporativ idarəetmə ........ 88

**9.1.2.** Səhm kapitalı ........ 89

**9.1.3.** İnvestor və səhmdar münasibətləri ........ 89

**9.1.4.** Müşahidə Şurası ........ 91

**9.1.5.** Müşahidə Şurasının komitələri ........ 94

**9.1.6.** İdarə Heyəti ........ 101

**9.1.7.** Mükafatlandırma sistemi ........ 104

**9.1.8.** Komplayns və maliyyə monitorinqi sistemi ........ 106

**9.1.9.** Daxili və kənar audit ........ 110

**9.2.** Risklərin idarə edilməsi ........ 112

**9.2.1.** ABB-nin Risk idarəetmə sisteminin prinsipləri ........ 112

**9.2.2.** Risk idarəetmə çərçivəmizin əsas elementləri ........ 113

**9.2.3.** 2022-ci ildə Risklərin idarə edilməsi prosesinin nəticələri ........ 115

**9.3.** Məlumat məxfiliyi və kibertəhlükəsizlik ........ 118


ABB
Azərbaycan Beynəlxalq Bankı

# 9. Biz dayanıqlıyıq

## 9.1. İdarəetmə

ABB-də korporativ idarəetməni biz Bankın strateji istiqamətlərinə, hesabatlılıq, şəffaflıq və dürüstlük prinsiplərinə riayət olunmasına nəzarət edən, bir-biri ilə əlaqəli fəaliyyət göstərən təsisatlar sistemi kimi nəzərdən keçiririk. Restrukturizasiya və transformasiyadan sonra biz ən yüksək korporativ idarəetmə standartlarına uyğunlaşmaq üçün idarəetmə sistemimizi davamlı olaraq təkmilləşdiririk. Məqsədimiz möhkəm idarəetməni, maliyyə dayanıqlılığını, əməliyyat səmərəliliyini təmin etmək, səhmdarlarımız üçün maksimum dəyəri artırmaqdır.

### 9.1.1. Korporativ idarəetmə

Biz korporativ idarəetmə sistemimizin həm yerli qaydalara, həm də ən yaxşı beynəlxalq təcrübələrə uyğunlaşdırılmasına xüsusi diqqət yetiririk. Yerli bank qanunvericiliyinin korporativ idarəetmə tələblərində baş verən dəyişiklikləri, yenilənmələri operativ şəkildə müəyyənləşdirərək sistemimizə daxil etmək üçün strukturlaşdırılmış proses qurmuşuq. Bizim korporativ idarəetmə sistemimiz bu mənbələrə əsaslanır:

- "Banklar haqqında" Azərbaycan Respublikası Qanunu
- Azərbaycan Respublikasının maliyyə bazarlarına nəzarət orqanı tərəfindən hazırlanmış banklar üçün korporativ idarəetmə standartları
- Bazel Komitəsi tərəfindən hazırlanmış bank nəzarəti üzrə tövsiyələr
- Maliyyə bazarlarına nəzarət orqanının digər normativ sənədləri

ABB-yə olan inamını, etibarını qorumağa tam sadiqdir. Buna nail olmaq üçün biz onlarla ünsiyyətimizdə şəffaflığı daha da artırmağı, əlaqələri gücləndirməyi hədəfləyirik.

#### ABB-nin korporativ idarəetmə strukturu

**Səhmdarların Ümumi Yığıncağı** — Ali idarəetmə orqanı | Xarici auditor

Nəzarət ↓ / Hesabatlılıq ↑

**Müşahidə Şurası** — Bankın idarəetmə və əməliyyat fəaliyyətinə nəzarət edir.

Nəzarət ↓ / Hesabatlılıq ↑

**Müşahidə Şurasının sədri**

Nəzarət ↓ / Hesabatlılıq ↑

**İdarə Heyəti** — Bankın gündəlik idarə olunmasına cavabdehdir.

#### ABB-də idarəetmə strukturu

Daxili transformasiya və restrukturizasiya prosesinin tərkib hissəsi kimi, daha səmərəli, hərtərəfli idarəetmə təcrübələrini təmin etməkdən ötrü Bankın idarəetmə strukturu diqqətlə nəzərdən keçirilib və yenilənib. ABB-nin idarəetmə orqanları maraqlı tərəflərimizin

Son illərdə ABB daxili effektivliyin artırılması məqsədilə idarəetmə sistemində müəyyən struktur dəyişiklikləri aparıb. Müşahidə Şurasının 19 noyabr 2022-ci il tarixli qərarından sonra biz idarəetmə təcrübəmizin daha da inkişafı üçün Agile idarəetmə modelinə keçmişik.



Bundan əlavə, funksional strukturumuzu bir daha nəzərdən keçirmiş, oxşar biznes prosesləri daxilində iş axınlarını sadələşdirmək, daha çox səmərəliliyə nail olmaq və daxili nəzarəti gücləndirmək üçün onu yenidən dizayn etmişik.

### 9.1.2. Səhm kapitalı

1992-ci ildə Açıq Səhmdar Cəmiyyət kimi yaradılmış ABB Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırılma tədbirləri haqqında 15 iyul 2015-ci il tarixli müvafiq Fərmanından sonra transformasiya mərhələsindən keçib. 2016-cı ildə Səhmdarların Ümumi Yığıncağında devalivasiya ilə bağlı risklər nəzərə alınaraq Bankın nizamnamə kapitalının artırılması barədə qərar qəbul edilib. 2017-ci ildə ABB-nin 600 milyon AZN dəyərində 2,222 milyon səhmi buraxılıb.

2016-2017-ci illər arasında Bankın nizamnamə kapitalı iki dəfə artaraq 641,287 min AZN-dən 1,241,287 min AZN-ə yüksəlib. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 105-1.5-ci maddəsinə əsasən, 31 dekabr 2022-ci il tarixində başa çatan il ərzində səhmdarların Ümumi Yığıncağının qərarı ilə 57,922 min ədəd səhm ləğv edilib. Nəticədə, hesabat ilinin sonuna nizamnamə kapitalı 1,225,648 min AZN olub.

#### 31 dekabr 2022-ci ilə səhm kapitalının strukturu

| Səhmlərin növü | Emissiya edilmiş səhmlərin dövlət qeydiyyat nömrəsi | Nominal dəyəri, AZN | Buraxılmış səhmlər |
|---|---|---|---|
| Adi | AZ1004004581 | 0.27 | 4 539 437 000 |

### 9.1.3. İnvestor və səhmdar münasibətləri

İnvestorlar və səhmdarlar Bankın korporativ idarəçiliyinə, uzunmüddətli inkişafına, təşkilati dürüstlüyünə əhəmiyyətli təsir göstərirlər. Səhmdarlarla qarşılıqlı əlaqələrimiz dörd əsas prinsipi rəhbər tutur:

**Qanunun aliliyi**

Dividendlərin qüvvədə olan qanunvericiliyə, standartlara uyğun hesablanması, elan edilməsi və ödənilməsi

**Şəffaflıq**

Dividendlərin hesablanması, elan edilməsi və ödənilməsi üçün şəffaf sistemlərin qurulması

**Ədalətlilik**

Bütün səhmdarların dividendlərin hesablanması, məbləği və ödənilməsi üsulları haqqında məlumatların əldə edilməsi sahəsində hüquq bərabərliyinin təmin edilməsi, Bankın və onun səhmdarlarının maraqları arasında optimal balansın yaradılması

**Dayanıqlı inkişaf**

Mövcud siyasətin müntəzəm nəzərdən keçirilməsi, Bankın strateji məqsədləri dəyişdikdə ona dərhal düzəlişlərin edilməsi. Bu yanaşma ABB-nin uzunmüddətli investisiya cəlbediciliyini, kapitallaşmasını və gəlirliliyini təmin edir.

## Səhmdarların və investorların cəlb edilməsi kanalları

**ABB**

| ABB-nin rəsmi veb səhifəsi | İdarə Heyətinin müntəzəm hesabatları və digər kommunikasiyalar | Səhmdarların Ümumi Yığıncağı |
|---|---|---|

**Səhmdarlar və investorlar**

**Səhmdarların hüquqları**

Bankın Nizamnamə kapitalının strukturunda Maliyyə Nazirliyi və Əmlak Məsələləri Dövlət Xidməti ilə təmsil olunan Azərbaycan Respublikası ABB-də 96%-dən çox səhm payına malikdir. ABB öz səhmdarlarının hüquqlarını qorumağa və potensial riskləri proaktiv şəkildə həll etməyə çalışır. Aşağıdakı şəkildə səhmdarlarımızın əsas hüquqları haqqında ətraflı məlumat veririk:

| | | |
|---|---|---|
| Bankın idarə edilməsində və onun icraçı və rəhbər vəzifələrinə təyinat prosesində iştirak etmək | Bankın fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq | Səhmdarların ümumi yığıncağının çağırılmasını tələb etmək |
| Səhmdarların ümumi yığıncağının gündəliyində dəyişikliklərin aparılmasını tələb etmək | Səhmdarların ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək | Bankın fəaliyyətinin izlənilməsi məqsədilə müvafiq rəy və hesabatları tələb etmək |
| Bankın xalis mənfəətindən dividendlər əldə etmək | Bankın fəaliyyətinə xitam verildikdə Bankın yerdə qalan əmlakının müəyyən hissəsini almaq | Azərbaycan Respublikasının qanunvericiliyi və Bankın nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq |

## Səhmdarların Ümumi Yığıncağı

Səhmdarların Ümumi Yığıncağı əhəmiyyətli strateji məsələlərin həll edilməsində səhmdarlara səsvermə hüququ ilə çıxış etməyə imkan verən ali idarəetmə orqanıdır. Səhmdarların Ümumi Yığıncağı illik olaraq və ya bəzən daha tez-tez keçirilir. İclas tarixindən ən azı 45 təqvim günü əvvəl ABB-nin korporativ veb saytında ictimaiyyətə elan edilir. Səhmdarların Ümumi Yığıncağı "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 24.5-ci maddəsinə və ABB-nin Nizamnaməsinə uyğun olaraq təşkil edilərək keçirilir.

2022-ci ildə ABB-nin Səhmdarlarının Ümumi Yığıncağı sonuncu dəfə 30 iyunda keçirilmiş və aşağıdakı məsələlər müzakirəyə çıxarılmışdır:



- Audit Komitəsinin tövsiyəsi əsasında ABB Qrupunun 2021-ci il üçün auditdən keçmiş maliyyə hesabatlarının kənar auditor tərəfindən təsdiq edilməsi
- 2021-ci ilin maliyyə nəticələrinə əsasən ABB səhmdarlarına dividendlərin verilməsi
- ABB-nin geri çağırılmış adi səhmlərinin ləğvetmə prosesi

## Dividendlərin ödənilməsi

ABB dividendlərin hesablanması və bölüşdürülməsində şəffaflığın, inklüzivliyin gücləndirilməsinə mühüm diqqət yetirir. Bank və onun səhmdarları arasında ədalətli balansın qorunması məqsədilə 2020-ci ildə "Dividend siyasəti" hazırlanıb. Bu Siyasət Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Vergi Məcəlləsinə, "Banklar haqqında" Azərbaycan Respublikası Qanununa və müvafiq qaydalara uyğun tərtib edilib. Siyasətə riayət olunması Bank və onun səhmdarları arasında möhkəm, ahəngdar münasibətləri gücləndirir. Bütün səhmdarların öz dividendlərini qüvvədə olan qanunvericiliyə uyğun almalarını təmin edir.

"Dividend siyasəti"nə əsasən, Bank maliyyə nəticələrindən asılı şəkildə rüblük və ya illik ola biləcək dividendlərin ödənilməsi cədvəlinə dair qərar vermək çevikliyini özündə saxlayır.

**Bankın səhmdarlarına dividendlər aşağıdakı hüquqi baza əsasında ödənilir:**

- Bankın qanunvericiliyə uyğun qaydada hazırlanmış maliyyə hesabatları ilə müəyyən edilən xalis gəlirinin mövcudluğu
- Dividend ödənişi ilə bağlı qanunvericilikdə və "Dividend siyasəti"ndə nəzərdə tutulmuş məhdudiyyətlərin olmaması
- Dividend ödənişinin həcmi barədə Müşahidə Şurası tərəndən Səhmdarların Ümumi Yığıncağına verilən tövsiyələr
- Səhmdarların Ümumi Yığıncağı tərəfindən dividend ödənişləri ilə bağlı rəsmi qərarın qəbul edilməsi

LAKİN

- Bankın xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, Bank dividendləri elan edə və ödəyə bilməz.
- Dividendlərin ödənilməsinə məhdudiyyətlər aradan qaldırıldıqdan sonra Bank müəyyən müddət ərzində xalis mənfəətdən dividendlər ödəyə bilər.

30 iyun 2022-ci ildə Səhmdarların İllik Ümumi Yığıncağının qərarından sonra Bank 125 milyon AZN məbləğində dividendin ödəniləcəyini elan etdi. Bir səhmə görə dividend 0,03 AZN məbləğində müəyyən edildi. Biz strategiyamızı səylə həyata keçirməyə, xərcləri azaltmağa, güclü kapital mövqeyimizi qorumağa, dəyərli səhmdarlarımıza dividend ödənişlərində davamlı artım niyyətimizə sadiqik.

## 9.1.4. Müşahidə Şurası

Müşahidə Şurası güclü idarəetmənin və Bankın iqtisadi sabitliyinin təmin olunmasında mühüm rol oynayır. O, qərar qəbul etmə prosesində Bankın uzunmüddətli strateji dayanıqlılığına diqqət yetirir. İdarə Heyətinə nəzarət etmək vəzifəsi daşıyan Şura Səhmdarların Ümumi Yığıncağına birbaşa hesabatlar təqdim edir. Bundan əlavə, Müşahidə Şurası Komitə üzvlərinin və İdarə Heyətinin təyin edilməsinə cavabdehdir. O, həmçinin konsolidasiya edilmiş maliyyə hesabatlarının təhlilini aparır, bununla da Bankın ümumi uğuruna əhəmiyyətli töhfələr verir.

**Müşahidə Şurasının tərkibi 2022-ci ildə dəyişməz qalıb.**

2021-ci ilin sentyabrında ABB-nin bəzi idarəetmə funksiyaları Azərbaycan İnvestisiya Holdinqinə (AİH) keçdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 noyabr 2020-ci il tarixli sərəncamına əsasən, AİH-ə Bankda əsas qərar qəbul edən şəxsləri təyin etmək, Nizamnaməyə əlavələr etmək və onun təsərrüfat fəaliyyətinə nəzarət hüququ verildi.

Hazırda, ABB-nin Müşahidə Şurası 5 üzvdən ibarətdir. Şura üzvləri Səhmdarların Ümumi Yığıncağı tərəfindən 3 ildən çox olmayan müddətə seçilir, lakin üzvlər növbəti dövrlər üçün də yenidən seçilə bilərlər. Müşahidə Şurasının üzvləri tələb olunan bütün meyarlara cavab verən, maliyyə, iqtisadiyyat və siyasət sahələrində ixtisaslaşmış şəxslərdən ibarətdir.

ABB-nin Müşahidə Şurasının əsas vəzifələrinə Bankın strateji istiqamətinin müəyyən edilməsi, effektiv risk idarəçiliyi sisteminin yaradılması, müntəzəm fəaliyyət hesabatları vasitəsilə şəffaflığın artırılması, icra funksiyalarına nəzarət, qanunvericilik tələblərinə və Bankın ümumi strategiyasına riayət olunmasının təmin edilməsi daxildir.

## Müşahidə Şurasının iclasları

ABB-nin Müşahidə Şurası strateji inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, risklərin idarə edilməsi sisteminin qurulması, Bank fəaliyyətinin şəffaflığının müntəzəm hesabatlar vasitəsilə artırılması, icra orqanlarına nəzarət və idarəetmə prosedurlarının Bankın qanuni tələbləri və Strategiyası ilə uyğunlaşdırılmasına görə məsuliyyət daşıyır.

Müşahidə Şurası müstəqil fəaliyyət göstərərək İdarə Heyətinə tövsiyələr, tapşırıqlar və məsləhətlər verir. Funksiyalarını həyata keçirərkən Müşahidə Şurasının üzvləri Bankın maraqlarını rəhbər tutur, Bankın maraqlı tərəflərinin qanuni mənafelərini nəzərə alırlar.

Bankın Nizamnaməsinə əsasən, Müşahidə Şurasının iclasları ən azı rübdə bir dəfə keçirilməlidir. 2022-ci ildə Müşahidə Şurası 23 iclas keçirmişdir. Əksər hallarda, bütün üzvlər iclaslarda iştirak etmişlər. Bu isə onun göstəricisidir ki, Şura ABB-nin strateji baxışının müəyyənləşdirilməsi və daxili transformasiya prosesində fəal iştirak edir.

Şuranın iclaslarında əsas diqqət maraqlı tərəflərin, o cümlədən səhmdarların maraqlarının uyğun qaydada təmin edilməsinə yönəlmişdir.

2022-ci ildə Müşahidə Şurası Bankın fəaliyyətinin mühüm aspektləri, o cümlədən strateji inkişafı, risklərinin idarə edilməsi, daxili nəzarət və uyğunluq sistemi, eləcə də iqtisadi və maliyyə göstəriciləri və digər məsələlərlə bağlı geniş müzakirələr aparmışdır. Müşahidə Şurası həmçinin 2023-2025-ci illər üzrə İnkişaf Strategiyasını və Agile idarəetmə strukturunu təsdiqləmişdir.

Bundan əlavə, Müşahidə Şurası müxtəlif daxili və xarici maraqlı tərəflərlə fəal şəkildə əməkdaşlıq etməkdədir. Bu qarşılıqlı fəaliyyətlər əsasında Şura öz nəzarətedici rolunu səmərəli şəkildə həyata keçirmiş, müəyyən edilmiş məsələlərin Bank daxilində məsul şəxslərə operativ şəkildə yönəldilməsini və müvafiq cavabların alınmasını təmin etmişdir.



## Müşahidə Şurasının tərkibi

### ŞAHMAR ARİF OĞLU MÖVSÜMOV

**Müşahidə Şurasının sədri**
**1972-ci ildə anadan olub.**

**Təhsili**
- Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu
  Beynəlxalq iqtisadi əlaqələr ixtisası üzrə bakalavr
- Harvard Universitetinin Con Kennedi adına Hökumət məktəbi
  Dövlət idarəçiliyi üzrə magistr

**Hazırki vəzifəsi**
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

### XALİD NURƏDDİN OĞLU ƏHƏDOV

**Müşahidə Şurasının üzvü**
**1980-ci ildə anadan olub.**

**Təhsili**
- Azərbaycan Dövlət İqtisad Universiteti
  Maliyyə və kredit ixtisası üzrə bakalavr
- IE biznes məktəbi
  Biznesin idarə edilməsi üzrə magistr
- London İqtisadiyyat Məktəbi
  Dövlət inzibatçılığı üzrə magistr

**Hazırki vəzifəsi**
Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi

### MƏTİN BALASƏN OĞLU EYNULLAYEV

**Müşahidə Şurasının üzvü**
**1975-ci ildə anadan olub.**

**Təhsili**
- Bakı Dövlət Universiteti
  Hüquq ixtisası üzrə bakalavr

**Hazırki vəzifəsi**
Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri üzrə Dövlət Xidmətinin rəisi

### EMİN ZAMİN OĞLU HÜSEYNOV

**Müşahidə Şurasının üzvü**
**1974-cü ildə anadan olub.**

**Təhsili**
- Azərbaycan Dövlət İqtisad Universiteti
  Beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə bakalavr
- Florida Dövlət Universiteti
  İqtisadiyyat ixtisası üzrə magistr
- Harvard Universitetinin Con Kennedi adına Hökumət məktəbi
  Dövlət idarəçiliyi üzrə magistr

**Hazırki vəzifəsi**
Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

## FƏXRİ YAŞAR OĞLU İSMAYILOV

**Müşahidə Şurasının üzvü**
**1977-ci ildə anadan olub.**

**Təhsili**

- Azərbaycan Dövlət İqtisad Universiteti
  Maliyyə və kredit ixtisası üzrə bakalavr və magistr
- Corc Vaşinqton Universiteti, ABŞ
  Maliyyə Departamentində Fulbrayt proqramı (Maliyyə ixtisası üzrə PhD dərəcəsi)

**Hazırki vəzifəsi:**

Azərbaycan Respublikası Baş nazirinin köməkçisi, Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının katibi

## 9.1.5. Müşahidə Şurasının komitələri

ABB-nin komitələri Müşahidə Şurasını Bankın əsas funksional sahələri ilə əlaqələndirən və Müşahidə Şurasının səlahiyyətində olan məsələlərə birinci səviyyəli nəzarəti, təhlili həyata keçirən orqanlardır. Müşahidə Şurası altı komitənin üzvlərini təyin edir, onların fəaliyyətini tənzimləyir.

- Audit komitəsi
- Strategiya və Risklərin İdarə Edilməsi Komitəsi
- Mükafatlandırma Komitəsi
- Kredit Komitəsi
- Aktiv və Öhdəliklərin İdarə Edilməsi Komitəsi
- İT Komitəsi

## Audit Komitəsi

Audit Komitəsi Bankda audit işinin təşkili və aparılmasına, həmçinin Daxili audit departamentinin fəaliyyətinə nəzarətə görə məsuliyyət daşıyan əsas orqanıdır.

**Audit Komitəsi**

**Komitənin tərkibi**

**Azad Məmmədov**
Komitə sədri

**Zamiq Məmmədov**
Komitə üzvü

**Məcid Məmmədov**
Müşahidə Şurasının müşaviri, Komitə üzvü

**Komitənin əsas vəzifələri**

- Daxili audit, yoxlama və monitorinqləri həyata keçirəcək auditorlara (yoxlama qrupuna) yoxlama vəsiqələrinin verilməsinin təmin edilməsi;
- Daxili audit departamentinin direktoru və əməkdaşlarının işə qəbul olunması, vəzifədə irəliləyişi, işdən kənarlaşdırılması və ya azad olunması, habelə mükafatlandırılması və intizam tənbehinə cəlb edilməsi ilə bağlı Müşahidə Şurasına təkliflərin verilməsi;
- Daxili audit yoxlamalarının nəticələri və yoxlamalar zamanı aşkarlanan nöqsanların aradan qaldırılması, eyni zamanda daxili nəzarət sistemlərinin təkmilləşdirilməsi ilə bağlı Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təklif və tövsiyələrin verilməsi;
- Kənar auditordan audit zamanı aşkar olunan mühüm nöqsanlar, faktlar və hadisələr haqqında məlumatların Audit Komitəsinə dərhal verilməsinin tələb edilməsi;
- Kənar auditorla birgə işin təşkili ilə əlaqədar Bankın fəaliyyətinə dair bütün əhəmiyyətli məlumatların, bank sənədlərinin kənar auditora vaxtında və tam təqdim edilməsi



**Fəaliyyət 2022**

**Audit Komitəsinin əməliyyat funksiyalarının təkmilləşdirilməsi:**

- Özünüqiymətləndirmə formaları hazırlanaraq tətbiq edilib.
- Türkiyəyə səfər zamanı yerli banklarla təcrübə mübadiləsi aparılıb.
- Daxili və xarici qaydalar nəzərdən keçirilib.
- Xarici auditin nəticələrinə baxılıb.
- İllik iş planı müəyyənləşdirilərək icrasına nəzarət edilib.

**Audit departamentinin fəaliyyətinin təşkili:**

- 2022-ci il üçün illik Audit və Təlim Planı təsdiqlənib.
- 2022-ci il üçün daxili auditin nəticələrinə baxılıb.
- İşəqəbul və işçilərlə bağlı motivasiya tədbirləri həyata keçirilib.
- İnkişaf planı təsdiqlənib.
- Şöbənin illik büdcəsi müəyyənləşib.
- İT auditini təkmilləşdirmək üçün xüsusi layihə yerinə yetirilib.
- Agile audit layihəsi həyata keçirilib.

**İdarə Heyəti ilə bağlı fəaliyyətlər:**

- Audit yoxlamalarının nəticələrinin müzakirəsi üçün İdarə Heyəti ilə görüşlər keçirilib.
- Törəmə müəssisələrin fəaliyyətinin təşkilində, habelə Bankın və onun törəmə müəssisələrinin strateji hədəflərinin icrasının qiymətləndirilməsində iştirak edib.
- Daxili komitələrin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsində, habelə daxili funksional bölmələr üzrə büdcə layihəsinin hazırlanmasında iştirak edib.

**Xarici audit:**

- Kənar audit şirkətinin təyin olunmasını və onun Bankın daxili audit funksiyası ilə əməkdaşlığını təşkil edib.
- Xarici audit şirkəti ilə vaxtaşırı görüşlər keçirib.
- Yoxlama hesabatlarını nəzərdən keçirib və Tənzimləyici orqanlara çatdırıb.

**Müşahidə Şurasına hesabat:**

- Daxili nəzarət və risklərin idarə edilməsi sistemindəki çatışmazlıqlar və onların aradan qaldırılması üçün tövsiyələr barədə rüblük hesabatlar təqdim edib.
- Tədbirlər planlarının icra vəziyyətini təqdim edib.
- Kənar auditin nəticələrinə dair rüblük hesabatlar təqdim edib.
- SRİK sədri ilə audit yoxlamalarının nəticələrinin dövri icmal müzakirəsini təqdim edib.

Baxılan məsələlər
156

Qəbul edilmiş qərarlar
304

Müşahidə Şurasının tövsiyələrinin yerinə yetirilməsi səviyyəsi
97%

## Strategiya və Risklərin İdarə Edilməsi Komitəsi

Komitənin əsas rolu strateji inkişaf istiqamətini müəyyənləşdirmək, risklərin idarə edilməsi funksiyasına nəzarət etmək və tələb olunan fəaliyyət standartlarının bütün Bankda effektiv şəkildə çatdırılmasını təmin etməkdir.

**Strategiya və Risklərin İdarə Edilməsi Komitəsi**

**Komitənin tərkibi**

**Xalid Əhədov**
Müşahidə Şurasının üzvü,
Komitənin sədri

**Abbas İbrahimov**
İdarə Heyətinin sədri,
Komitənin üzvü

**İlham Həbibullayev**
İdarə Heyəti sədrinin birinci müavini, Komitənin üzvü

**Azad Məmmədov**
Audit Komitəsinin sədri, Komitənin üzvü (səsvermə hüququ olmadan)

**Aqşin Əmirov**
İdarə Heyəti sədrinin müavini, Komitənin üzvü

**Nəbi Əliyev**
İdarə Heyəti sədrinin müavini, Komitənin üzvü

**Taleh Tahirli**
İdarə Heyəti sədrinin müavini, Komitənin üzvü

**Məcid Məmmədov**
Müşahidə Şurasının müşaviri, Komitənin üzvü

**Nihat Şenyuva**
Bankın Baş direktoru, Komitənin üzvü

**Taleh Nəhmədov**
Daxili nəzarət departamentinin direktoru, Komitənin üzvü

### Əsas öhdəlikləri

- Bankın İdarə Heyəti tərəfindən hazırlanmış Strateji baxış və Missiya bəyanatlarının ilkin layihələrinin nəzərdən keçirilməsi;
- Bankın inkişaf strategiyasının prioritetlərinin hazırlanması və Müşahidə Şurasına təqdim edilməsi;
- Bankın fəaliyyətinin Strateji Plana uyğunluğuna nəzarət, zəruri hallarda bununla bağlı İdarə Heyətinə tövsiyələr verilməsi;
- Bankın strateji məqsədlərinə nail olunmasına nəzarət;
- Risklərin idarə edilməsi strategiyasının, siyasətinin və qaydalarının nəzərdən keçirilməsi, Müşahidə Şurasına təqdim edilməsi;
- Risklərin idarə edilməsi strategiyasının, siyasətlərinin və qaydalarının əldə edilərək Müşahidə Şurasına təqdim edilməsi;
- Riskləri müəyyənləşdirmək və qiymətləndirmək üçün müvafiq üsul və vasitələrin seçilməsi, onlardan istifadə tezliyinin müəyyənləşdirilməsi;
- Qəbul edilmiş metod və modellərin tətbiqi nəticələrinin təhlili, effektiv idarəetmə üçün risklərin qəbulu, minimuma endirilməsi, ötürülməsi və qarşısının alınması kimi tədbirlərin həyata keçirilməsi ilə bağlı Risklərin idarə edilməsi departamentinə müvafiq göstərişlərin verilməsi

### 2022-ci il üzrə fəaliyyət

- Bankın 2020-2022-ci illər üzrə İnkişaf Strategiyasına əsasən 2022-ci il üçün prioritet istiqamətlər müəyyən edilmiş və hazırlanmışdır.
- Bankın fəaliyyətinin nəticələrinin Strateji Plana uyğunluğunun monitorinqini aparmış və İdarə Heyətinə tövsiyələr vermişdir.
- Bankın strateji məqsədlərinə nail olunmasının monitorinqini həyata keçirmişdir.
- Strategiyanın həyata keçirilməsinin səmərəliliyini təhlil etmişdir.
- 2023-2025-ci illər üzrə İnkişaf Strategiyası üçün əsas istiqamətlər müəyyən etmiş, yeni strategiyanın hazırlanmasına başlamışdır.
- Risklərin İdarə Edilməsi Strategiyasını, siyasətini və qaydalarını nəzərdən keçirmiş, risk limitlərini müəyyən etmiş, Müşahidə Şurası ilə razılaşdırmışdır.
- Risklərin idarə edilməsi departamentinin illik planını nəzərdən keçirmiş, onun fəaliyyətinə nəzarət etmiş, təkmilləşdirilməsi üçün təlimatlar hazırlamışdır.

## Mükafatlandırma Komitəsi

Mükafatlandırma Komitəsi, ödəniş və mükafatlandırma prosesi, mükafatlandırma sisteminin səmərəliliyinin qiymətləndirilməsi, həmçinin Bankda mükafatlandırma siyasətinin yaradılması və davamlı şəkildə təkmilləşdirilməsi üzərində ümumi nəzarəti həyata keçirən məsul orqandır.



### Mükafatlandırma Komitəsi

#### Tərkibi

**Emin Hüseynov**
Müşahidə Şurasının üzvü, Komitənin sədri

**Xalid Əhədov**
Müşahidə Şurasının üzvü, Komitənin üzvü

**Aqşin Əmirov**
İdarə Heyəti sədrinin müavini, Komitənin üzvü

**Aynur Süleymanlı**
Bankın Baş direktoru, Komitənin üzvü

**Əzim Kazımov**
Mühasibat uçotu departamentinin direktoru, Komitənin üzvü

### Əsas vəzifələri

- Bankın mükafatlandırma siyasətini hazırlayıb Müşahidə Şurasına təqdim etmək, habelə onun daim təkmilləşdirilməsi üçün tədbirlər görmək;
- Əmək haqqı siyasətinin Bankın risklərin idarə edilməsi və uzunmüddətli strateji hədəfləri ilə uzlaşdırılmasını təmin etmək;
- Kompensasiya və mükafatlandırma prosesinə tam nəzarəti həyata keçirmək;
- Ən azı ildə bir dəfə Strategiya və Risklərin İdarə Edilməsi Komitəsi ilə birlikdə mükafatlandırma sisteminin effektivliyini qiymətləndirmək;
- Dəyişən kompensasiyanın ümumi məbləği ilə bağlı Müşahidə Şurasına təkliflər vermək;
- Qanunvericiliyə uyğun olaraq Bankın Müşahidə Şurasına hesabat təqdim etmək

### 2022-ci il üzrə fəaliyyət

- Bankın Mükafat Siyasətini hazırlayıb Müşahidə Şurasına təqdim edib.
- Bankın strateji məqsədlərə çatmağa yönəlmiş mükafatlandırma prinsiplərinə əməl olunmasını təmin edib.
- Əməyin ödənilməsi prosesinə ümumi nəzarəti həyata keçirib.
- Strategiya və Risklərin İdarə Edilməsi Komitəsi ilə birlikdə mükafatlandırma sisteminin effektivliyinin qiymətləndirilməsini həyata keçirib.
- Dəyişən kompensasiyanın ümumi məbləği ilə bağlı Müşahidə Şurasına təkliflər verib.

## Kredit Komitəsi

Kredit Komitəsi kreditlərin təsdiqi, kredit şərtlərinin müəyyən edilməsi, Bankın kredit siyasətinin nəzərdən keçirilməsi, risklərin azaldılması, kredit portfelinin diversifikasiyasına nəzarət sahəsində əsas qərarverici orqan rolunu oynayır.

### Kredit Komitəsi (Böyük, Orta, Kiçik)

#### Tərkibi

Böyük Kredit Komitəsi

**Abbas İbrahimov**
İdarə Heyətinin sədri, Komitənin sədri

**İlham Həbibullayev**
İdarə Heyəti sədrinin birinci müavini, Komitənin üzvü

**Aqşin Əmirov**
İdarə Heyəti sədrinin müavini, Komitənin üzvü

**Elmir Həbibullayev**
İdarə Heyəti sədrinin müavini, Komitənin üzvü

**Nəbi Əliyev**
İdarə Heyəti sədrinin müavini, Komitənin üzvü

**Nərgizxanım Biləndərli**
Bankın Baş direktoru, Komitənin üzvü

**Fariz Rəhimov**
Bankın Risklərin idarə edilməsi departamentinin direktoru, Komitənin üzvü

Orta Kredit Komitəsi

**Nəbi Əliyev**
İdarə Heyəti sədrinin müavini,
Komitənin sədri

**Fuad İslamov**
Bankın Baş direktoru,
Komitənin üzvü

**Nərgizxanım Biləndərli**
Bankın Baş direktoru,
Komitənin üzvü

**Fariz Rəhimov**
Bankın Risklərin idarə edilməsi departamentinin direktoru,
Komitənin üzvü

**Ülvi Qasımov**
Korporativ biznes departamentinin direktoru, Komitənin üzvü

Kiçik Kredit Komitəsi

**Ülvi Qasımov**
Bankın Korporativ biznes departamentinin direktoru, Komitənin sədri

**Fariz Rəhimov**
Bankın Risklərin idarə edilməsi departamentinin direktoru,
Komitənin üzvü

**Rüfət Abbasov**
Pərakəndə bankçılıq departamentinin direktoru, Komitənin üzvü

| | |
|---|---|
| Kiçik Kredit Komitəsi | **350 000 AZN-ə** qədər kredit müraciətlərinin təsdiqlənməsi |
| Orta Kredit Komitəsi | **350 001 - 2 000 000 AZN** aralığında kredit müraciətlərinin təsdiqlənməsi |
| Böyük Kredit Komitəsi | **2 000 001 - 5 000 000 AZN** aralığında kredit müraciətlərinin təsdiqlənməsi |

### Əsas vəzifələri

- Bankın kredit siyasətini nəzərdən keçirmək və Müşahidə Şurasına təqdim etmək;
- Kreditlərin verilməsini və kredit öhdəliklərinin qəbulunu, habelə onların şərtlərinin dəyişdirilməsini və restrukturizasiyasını təsdiq etmək;
- Portfel səviyyəsində kreditlərin vaxtında qaytarılmasına nəzarət etmək;
- Kredit şərtlərinin Mərkəzi Bankın müvafiq qaydalarına zidd olmamasını təmin etmək;
- Konsentrasiya edilmiş portfel riskinin qarşısını almaq üçün kredit portfelinin diversifikasiyasına riayət olunmasına nəzarət etmək;
- Müntəzəm olaraq kredit portfelinin monitorinqi hesabatını əldə etmək;
- Kreditlərin verilməsi qaydalarına və prosedurlarına riayət olunmasını təmin etmək;
- Kredit ödənişlərinin alınması üçün görülən bütün tədbirlərin icrasına nəzarət etmək

### 2022-ci il üzrə fəaliyyət

- Bankın kredit siyasətini nəzərdən keçirib.
- Kreditlərin verilməsi və kredit öhdəliklərinin qəbulu, habelə onların şərtlərinin dəyişdirilməsi və restrukturizasiyası təsdiq edilib.
- Kreditlərin vaxtında qaytarılmasına portfel səviyyəsində nəzarət edilib.
- Kredit şərtlərinin Mərkəzi Bankın qaydalarına uyğun olması təmin edilib.
- Konsentrasiya edilmiş portfel riskinin qarşısını almaq üçün kredit portfelinin diversifikasiyası tələblərinə riayət olunmasına nəzarət edilib.
- 2022-ci ildə kredit ödənişlərinin qəbulu ilə bağlı həyata keçirilən bütün tədbirlərin icrasına nəzarət edilib.

## Aktiv və Passivlərin İdarə Edilməsi Komitəsi

Aktiv və Passivlərin İdarə Edilməsi Komitəsi bazar və valyuta limitləri ilə bağlı mühüm qərarlar qəbul edir, Bankın nağd və nağdsız likvidliyini mütəmadi nəzarətdə saxlayır, faiz dərəcələrinə həssas olan aktiv və öhdəliklərlə bağlı riskləri idarə edir.



### Aktiv və Passivləri İdarəetmə Komitəsi

Tərkibi

**Nəbi Əliyev**
İdarə Heyəti sədrinin müavini,
Komitənin sədri

**Elmir Həbibullayev**
İdarə Heyəti sədrinin müavini,
Komitənin üzvü

**Aqşin Əmirov**
İdarə Heyəti sədrinin müavini,
Komitənin üzvü

**Vasif Əhmədov**
İdarə Heyəti sədrinin müavini,
Komitənin üzvü

**Fuad İslamov**
Bankın Baş direktoru,
Komitənin üzvü

**Nərgizxanım Biləndərli**
Bankın Baş direktoru,
Komitənin üzvü

**Kamran Hüseynov**
Mərkəzi xəzinədarlıq departamentinin direktoru, Komitənin üzvü

### Əsas vəzifələr

- Strategiya və Risklərin İdarə Edilməsi Komitəsinin tövsiyələri əsasında Müşahidə Şurası tərəfindən təsdiq edilmiş limitlər çərçivəsində bazar və valyuta limitlərini müəyyən etmək;
- Komitənin səlahiyyətləri daxilində risklərin idarə edilməsinin müvafiq sahələri və tapşırıqları üzrə qanunvericiliyə əməl olunmasını təmin etmək;
- Bankın nağd və nağdsız likvidliyinin vəziyyətinə mütəmadi olaraq nəzarət etmək, bununla bağlı müvafiq limitləri təsdiqləmək;
- Faiz dərəcəsinə həssas aktiv və öhdəliklərlə bağlı risklərin idarə edilməsi üzrə qərarlar qəbul etmək;
- Qanunvericiliklə müəyyən edilmiş məlumatları Müşahidə Şurasına baxılmaq üçün təqdim etmək;

### 2022-ci il üzrə əsas fəaliyyət

- Bazar və valyuta limitləri üzrə qərarların qəbulu ilə bağlı Strategiya və Risklərin İdarə Edilməsi Komitəsinə tövsiyələr verib.
- Komitənin səlahiyyətləri daxilində və ya ona həvalə edilmiş risklərin idarə edilməsinin müvafiq sahələri və məqsədləri ilə bağlı qanunvericiliyə əməl olunmasını təmin edib.
- Bankın nağd və nağdsız likvidliyinin monitorinqini aparıb və bununla bağlı müvafiq limitləri təsdiqləyib.
- Qanunvericiliklə müəyyən edilmiş məlumatları baxılması üçün Müşahidə Şurasına təqdim edib.

## İnformasiya Texnologiyaları Komitəsi

Texnologiya Komitəsi Bankın daxili proseslərində rəqəmsallaşma və avtomatlaşdırmanın inkişafında mühüm rol oynayır. O, ümumi İT strategiyasının formalaşdırılması və onun effektiv həyata keçirilməsini təmin etmək üçün məsuliyyət daşıyır.

### İnformasiya Texnologiyaları Komitəsi

Tərkibi

**Nihat Şenyuva**
Baş informasiya inzibatçısı,
Komitənin sədri

**Mayya Dursunova**
Data texnologiyaları departamentinin direktoru, Komitənin üzvü

**Samir Ağamaliyev**
Proqram təminatı departamentinin direktoru, Komitənin üzvü

**Fariz Rəhimov**
Risklərin idarə edilməsi departamentinin direktoru,
Komitənin üzvü

**Rüstəm Rüstəmli**
İnformasiya təhlükəsizliyi departamentinin direktoru, Komitənin üzvü

**Əsas vəzifələri**

- Bankın Strategiyasına əsasən, İT və İT təhlükəsizliyi sahəsində təşəbbüslərin hazırlanması, baxılması üçün Müşahidə Şurasına təqdim edilməsi və zəruri hallarda bu təşəbbüslərin nəzərdən keçirilməsi üçün Müşahidə Şurasına təkliflərin verilməsi;
- İT büdcəsi Bank tərəfindən təsdiq edildikdən sonra büdcənin icrasına nəzarət;
- Bankın bütün avtomatlaşdırılmış sistemlərinin fasiləsiz fəaliyyətinin və monitorinqinin təmin edilməsi;
- İnformasiya texnologiyaları sahəsində bütün müvafiq qaydaların, cari və fövqəladə hallar prosedurlarının, əməliyyat planlarının hazırlanmasının təmin edilməsi;
- Mühasibat uçotu qeydlərinin və idarəetmə məlumat sistemi məlumatlarının adekvat ehtiyat nüsxələrini (nümunə ehtiyat nüsxələrini) yaratmaq üçün "Fövqəladə Hallar Planı"nın hazırlanmasının təmin edilməsi;
- Bank işçilərinin yüksək rəqəmsal savadlı olmalarını təmin etmək üçün müvafiq təlimlərin həyata keçirilməsinə nəzarət;

**2022-ci il üzrə fəaliyyət**

- Müşahidə Şurasına təqdim etmək üçün Bankın Strategiyasına əsaslanan İT və İT təhlükəsizliyi sahəsində strateji təşəbbüslər hazırlanmış, yenidən işlənmişdir.
- Büdcə təsdiq edildikdən sonra İT büdcəsinin icrasına nəzarət etmişdir.
- Bankın bütün avtomatlaşdırılmış sistemlərinin qüsursuz və fasiləsiz işləməsini təmin etmişdir.
- Bütün müvafiq informasiya texnologiyaları qaydalarının, cari və fövqəladə hallar prosedurlarının və əməliyyat planlarının hazırlanmasını təmin etmişdir.
- Mühasibat uçotu və idarəetmə informasiya sisteminin adekvat ehtiyat nüsxələrinin (ehtiyat nümunələrinin) yaradılması üçün "Fövqəladə hallar planı"nın hazırlanmasını təmin etmişdir.
- Bank əməkdaşlarının yüksək rəqəmsal savadlı olmalarını təmin etmək üçün müvafiq təlimlərin keçirilməsinə nəzarət etmişdir.
- İT layihələri və prosedurları ilə bağlı təhlükəsizlik və inzibati texnologiya məsələlərinə nəzarət etmişdir.

Cədvəl 8. 2022-ci ildə komitələrin iclasları

| Komitələr | Keçirilməsi planlaşdırılan iclasların sayı | Keçirilmiş iclaslar |
|---|---|---|
| Kiçik Kredit Komitəsi | 52 | 203 |
| Orta Kredit Komitəsi | 52 | 92 |
| Böyük Kredit Komitəsi | 52 | 113 |
| Audit Komitəsi | 4 | 30 |
| Strategiya və Risklərin İdarə Edilməsi Komitəsi | 6 | 11 |
| Mükafatlandırma Komitəsi | 1 | 1 |
| Aktiv və Passivlərin İdarə Edilməsi Komitəsi | 52 | 52 |
| İnformasiya Texnologiyaları Komitəsi | 4 | 22 |



## 9.1.6. İdarə Heyəti

İdarə Heyəti Bankın korporativ strukturunda onun gündəlik fəaliyyətinə nəzarət etmək üçün məsul olan ali idarəetmə orqanlarından biri kimi fəaliyyət göstərir. İdarə Heyətinin sədri yenidən seçilmək imkanı ilə Səhmdarların Ümumi Yığıncağı tərəfindən üç ilədək müddətə təyin edilir.

**İdarə Heyətinin tərkibi 2022-ci ildə dəyişməz olaraq qalır.**

Bankın İdarə Heyətinin sədri, Bankın ayrı-ayrı bölmələri tərəfindən həyata keçirilən gündəlik fəaliyyətlərin ABB-nin strategiyası ilə uyğunlaşdırılmasını təmin edir, maliyyə fəaliyyətini planlaşdırır və nəzərdən keçirir, Bankın daxili siyasəti, Müşahidə Şurasının və Səhmdarların Ümumi Yığıncağının qərarlarını icra edir və İdarə Heyəti üzvlərinin vəzifələrini müəyyən edir.

İdarə Heyətinin sədri və İdarə Heyəti işçilər, müştərilər və digər maraqlı tərəflərlə davamlı ünsiyyət və şəffaflığı qoruyaraq vasitəçi rolunu oynayır və ortaya çıxan problemləri təsnifləşdirir. İdarə Heyətinin sədri müvafiq departament və filial rəhbərləri tərəfindən təqdim edilmiş, müxtəlif biznes bölmələrinin nəticələrinə dair dövrü hesabatları nəzərdən keçirərək qiymətləndirir.



# İDARƏ HEYƏTİNİN SƏDRİ



**Abbas İbrahimov**

İdarə Heyətinin sədri

1981-ci ildə anadan olub.
2018-ci ildə ABB-nin İdarə Heyətinin sədri vəzifəsinə təyin edilib.

Təhsil

Ankara Universiteti
İş iqtisadiyyatı üzrə bakalavr

İstanbul Texniki Universiteti
Maliyyə üzrə MBA

## İdarə Heyəti



**İlham Həbibullayev**

İdarə Heyəti sədrinin birinci müavini

1977-ci ildə anadan olub.
2020-ci ildə ABB-nin İdarə Heyəti sədrinin birinci müavini vəzifəsinə təyin edilib.

Təhsil

- Azərbaycan Dövlət İqtisad Universiteti
  Maliyyə və kredit ixtisası üzrə bakalavr
- İstanbul Universiteti Sosial Elmlər İnstitutu
  Sosial elmlər üzrə magistr



**Nəbi Əliyev**

İdarə Heyəti sədrinin müavini, Baş maliyyə inzibatçısı

1984-cü ildə anadan olub.
2018-ci ildə ABB-nin İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Təhsil

- Azərbaycan Dövlət İqtisad Universiteti
  Beynəlxalq iqtisadi münasibətlər üzrə magistr
- Oksford Universiteti
  Biznes idarəçiliyi və menecment üzrə MBA
- Azərbaycan Dövlət İqtisad Universiteti
  İqtisadiyyat üzrə fəlsəfə doktoru



**Aqşin Əmirov**

İdarə Heyəti sədrinin müavini, Baş risk inzibatçısı

1978-ci ildə anadan olub.
2018-ci ildə ABB-nin İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Təhsil

- Azərbaycan Dövlət İqtisad Universiteti
  İqtisadi tənzimləmə üzrə magistr
- London Biznes Məktəbi
  Biznes idarəçiliyi və menecment üzrə MBA



**Elmir Həbibullayev**

İdarə Heyəti sədrinin müavini

1978-ci ildə anadan olub.
2016-cı ildə ABB-nin İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Təhsil

- Azərbaycan Dövlət İqtisad Universiteti
  Maliyyə və kredit ixtisası üzrə bakalavr
- Azərbaycan Dövlət İqtisad Universiteti
  Maliyyə və kredit ixtisası üzrə magistr





**Vasif Əhmədov**

İdarə Heyəti sədrinin müavini

1961-ci ildə anadan olub.
2018-ci ildə ABB-nin İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Təhsil

- SSRİ DTK-nın ali məktəbi
  Beynəlxalq münasibətlər üzrə bakalavr
- Rusiya Federasiyası XİN-in Diplomatiya Akademiyası
  Beynəlxalq münasibətlər üzrə magistr



**Taleh Tahirli**

İdarə Heyəti sədrinin müavini, Baş transformasiya inzibatçısı

1981-ci ildə anadan olub.
2019-cu ildə ABB-nin İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Təhsil

- Bakı Mühəndislik Universiteti
  Biznesin təşkili və idarə edilməsi üzrə bakalavr
- Göteborq Universiteti
  Biznes və İqtisadiyyat Məktəbində Menecment üzrə magistr
- HEC Paris
  İnnovasiyaların idarə edilməsi və sahibkarlıq üzrə magistr

## Baş direktorlar



**Nərgizxanım Biləndərli**

Baş direktor

1972-ci ildə anadan olub.
2018-ci ildə ABB-nin Baş direktoru vəzifəsinə təyin edilib.

Təhsil

- Azərbaycan Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu
  Bakalavr
- Azərbaycan Dövlət İqtisad Universiteti
  Maliyyə və kredit üzrə magistr



**Fuad İslamov**

Baş direktor

1969-cu ildə anadan olub
2011-ci ildə ABB-nin Baş direktoru vəzifəsinə təyin edilib.

Təhsil

- Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
  Neft və qaz hasilatının fiziki prosesləri üzrə bakalavr
- Azərbaycan Dövlət İqtisad Universiteti
  Beynəlxalq İqtisadi münasibətlər üzrə magistr



**Aynur Süleymanlı**

Baş direktor

1979-cu ildə anadan olub.
2018-ci ildə ABB-nin Baş direktoru vəzifəsinə təyin edilib.

Təhsil

- Azərbaycan Dövlət İqtisad Universiteti
  Əməyin iqtisadiyyatı və sosiologiyası üzrə bakalavr
- Azərbaycan Dövlət İqtisad Universiteti
  Personalın idarə edilməsi üzrə magistr



**Nihat Şenyuva**

Baş informasiya inzibatçısı

1977-ci ildə anadan olub.
2020-ci ildə ABB-nin Baş direktoru vəzifəsinə təyin edilib.

Təhsil

- Ege Universiteti
  Kompüter mühəndisliyi üzrə bakalavr
- Yeditepe Universiteti
  MBA

ABB-də biz yüksək təcrübə səviyyəsini təmin etməyə və bütün səviyyələrdə maraqlı tərəflərin gözləntilərini doğrultmağa çalışırıq. Bunu təmin etmək üçün Müşahidə Şurası hər il İdarə Heyəti üzvlərinin qiymətləndirilməsini həyata keçirir.

ABB-nin aşağıdakı rəhbər vəzifələrində biz həm orta rəhbər, həm də digər rəhbər vəzifələrdə müsbət tendensiyalar müşahidə edirik. ABB hesab edir ki, işçilərin karyera irəliləyişləri Bankı cins, yaş, təcrübə və şəxsi baxımdan daha balanslı iş mühitinə aparacaq.

**İdarə Heyətinin üzvləri Bankın səhmlərinə malik deyillər.**

Cədvəl 9. İdarəetmə orqanının müxtəlifliyi, yaş

| Müvafiq qrupda çəki % | 2021 | | | 2022 | | |
|---|---|---|---|---|---|---|
| | <30 | 30-50 | >50 | <30 | 30-50 | >50 |
| İdarə Heyətində olan şəxslərin yaş nisbəti | 0% | 82% | 18% | 0% | 73% | 27% |
| Orta menecmentdə olan şəxslərin yaş nisbəti | 2% | 83% | 15% | 0% | 85% | 15% |
| Rəhbər vəzifələrdə olan digər şəxslərin yaş nisbəti | 7% | 82% | 11% | 7% | 83% | 10% |

## 9.1.7. Mükafatlandırma sistemi

Mükafatlandırma funksiyası və strukturu ABB-nin Mükafatlandırma Siyasətində müəyyən edilir. Siyasət Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən hazırlanıb. Ən yaxşı beynəlxalq təcrübələri nəzərə alan Siyasət müasir korporativ mədəniyyəti və işçilər arasında sağlam rəqabəti təşviq edir. Mükafatlandırma siyasəti ildə bir dəfə Mükafatlandırma və Risklərin İdarə edilməsi Komitələri tərəfindən qiymətləndirilir. Qiymətləndirmə zamanı ödəniş və mükafatlandırma sisteminin Bankın strategiyası ilə uyğunluğu yoxlanılır. Mükafatlandırma sisteminin əsas məqsədləri aşağıdakılardır:

- Bankın strateji və biznes məqsədlərinin işçilərin fərdi məqsədləri ilə uyğunlaşması
- İxtisaslı və istedadlı işçilərin cəlb edilməsi, saxlanılması və motivasiya edilməsi
- İşçilərin şəxsi və peşəkar inkişafı üçün uyğun mühitin yaradılması



Şəkil 25. Mükafatlandırma siyasətinin əsas iştirakçıları




**Müşahidə Şurası**

- Toplanmış rəyləri təhlil edir, mükafatlandırma prinsiplərini müəyyənləşdirir.
- Əmək haqqını tənzimləyən normativ sənədləri təsdiq edir.
- Audit Komitəsinin üzvləri, İdarə Heyətinin üzvləri və departament rəhbərləri üçün qiymətləndirmə parametrlərini müəyyən edir.

**İdarə Heyəti**

- Əsas Fəaliyyət Göstəricilərinin (ƏFG) müəyyənləşdirilməsi və təsdiqlənməsi;
- Sistemin qanunvericiliyə və qabaqcıl təcrübəyə uyğunluğunun təmin edilməsi;
- İnzibati sənədlərin təsdiqlənməsi;
- Qiymətləndirmə parametrlərinin müəyyən edilməsi;

**Maliyyə menecmenti**

- ƏFG-ləri müəyyənləşdirir və hesablayır.
- Müəyyən edlmiş mükafatın ödənişini həyata keçirir.

**İnsan resurslarının idarə edilməsi**

- İşçilər haqqında tələb olunan məlumatları təqdim edir.
- İşçilərin illik qiymətləndirilməsini təşkil edir.
- Fəaliyyətin qiymətləndirilməsi sistemini hazırlayır və tətbiq edir.

**Mükafatlandırma Komitəsi**

- Kompensasiya prosesinə nəzarət edir
- Bankın Kompensasiya Siyasətini hazırlayır
- Qiymətləndirmənin nəticələri barədə hesabat verir və Müşahidə Şurasına mükafatlandırma ilə bağlı təkliflər təqdim edir.

## Mükafatlandırma alətləri

Bankın mükafatlandırma strukturu istedadlı və ixtisaslı şəxsləri cəlb etmək üçün sabit mükafatlandırma, korporativ hədəflərə nail olmaq və işçiləri gələcək inkişafa motivasiya etmək üçün qeyri-sabit mükafatlandırmadan ibarətdir. Sabit gəlirə əmək haqqı və onunla bağlı əlavə ödənişlər daxildir. Qeyri-sabit mükafatlandırma isə fəaliyyət nəticələrinin qiymətləndirilməsi əsasında bonuslar və illik mükafatlandırma əsasında formalaşır.

İşçilərin funksiyaları və ƏFG-lərdən asılı olaraq biz aylıq, rüblük və illik fəaliyyət qiymətləndirmələri aparırıq. Hər bir işçini ədalətli qiymətləndirmək və mükafatlandırmaq məqsədilə Mükafatlandırma siyasəti həm keyfiyyət, həm də kəmiyyət meyarlarını nəzərə alır. Mükafat Siyasəti, Bankın icraçı rəhbərliyi (Audit Komitəsi və İdarə Heyəti) daxil olmaqla bütün işçilərə tətbiq edilir. Müşahidə Şurası, Audit Komitəsi, İdarə Heyətinin üzvləri (o cümlədən sədrlər) üçün illik mükafatlandırma Səhmdarların İllik Ümumi Yığıncağında müəyyən edilir. İdarə Heyəti üzvləri və baş direktorlar üçün uyğun və ədalətli mükafatlandırmanı təmin etmək üçün biz bütün işçilərə tətbiq olunan ümumi meyarlarla yanaşı, əlavə qiymətləndirmə parametrlərini də tətbiq edirik. Aşağıdakı prudensial göstəricilər, mükafatlandırma haqqında qərar verildiyi tarixdə müvafiq requlyativ tələblərə cavab verməlidir:

- Cəmi kapitalın minimal məbləği
- Kapitalın adekvatlığı əmsalı
- Aktivlər üçün yaradılmış xüsusi ehtiyatlar

İcra kateqoriyaları üzrə mükafatlar müəyyən edilərkən biz Bankın əməliyyat nəticələrini və Tənzimləyicinin bank sektoru üçün müəyyən etdiyi qeyri-işlək aktivlərin ümumi aktivlərə nisbətini nəzərə alırıq. Bizim mükafatlandırma sistemimiz performans nəticələrinə əsaslanan cüzi dəyişikliklərlə bütün işçi kateqoriyaları üzrə rəqabətli ödəniş təklif edir. ABB-nin mükafatlandırma mexanizmində bərabərsizlikləri minimuma endirmək, maksimum şəffaflığı və ədalətliliyi təmin etmək üçün müntəzəm olaraq təhlillər, təkmilləşdirmələr aparılır.

**Cədvəl 10.** Bankda minimum əmək haqqı səviyyəsinin ölkədəki minimum əmək haqqına nisbəti

| İllər üzrə əmək haqqı nisbəti | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Nisbət | 2.26 | 2.26 | 1.9 |

## 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi

ABB olaraq biz prosedurlarımızın qanunvericilik və ən yaxşı təcrübələrə uyğun qurulmasını təmin etmək üçün komplayns və funksional maliyyə monitorinq sisteminə xüsusi önəm veririk. Uyğunluq faktiki olaraq fəaliyyət lisenziyamızdır və biz bu məsələni ciddi qəbul edirik. Eyni zamanda, tənzimləyici qaydalarla uyğunlaşa bilmək üçün potensialımızı artırırıq.

Biz bilirik ki, maraqlı tərəflərimiz bankçılığın etibarlı olmasını gözləyir, məhz buna görə biz maliyyə cinayətləri, korrupsiya və məlumatların məxfiliyi üçün təhdidlərlə mübarizəyə bu qədər önəm veririk.
Bank Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM ) strukturunda fəaliyyət göstərən Maliyyə monitorinqi şöbəsi əsasında 2019-cu ildə Maliyyə monitorinqi və komplayns departamentini yaradıb. Görülən tədbirlər bu sahədə daha əhatəli və etibarlı sistemin qurulmasına, habelə müvafiq daxili siyasətlərin işlənib hazırlanmasına, təkmilləşdirilməsinə imkan verib.

ABB-nin maliyyə monitorinqi və komplayns sistemi, əsasən, aşağıdakı üç məsələyə diqqət yönəldir:

- Komplayns riskinin idarə edilməsi
- Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM)
- Xarici hesablar üzrə vergi tələblərinə əməletmə aktı (FATCA) və Ümumi Hesabatlılıq Standartı (CRS)



## Komplayns və monitorinq sistemini tənzimləyən daxili sənədlər

| Komplayns | ƏL/TMM | FATCA və CRS |
|---|---|---|
| Komplayns siyasəti | • Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə | Hüquqi şəxslərin vergi rezidentliyinin müəyyən edilməsi üçün özünüqiymətləndirmə sorğu forması |
| İnsayder məlumatlarından sui-istifadə və bazar manipulyasiyası | • Müştərinin tanınması siyasəti | Fiziki şəxslərin özünüqiymətləndirmə sorğu anketi |
| Maraqlar toqquşmasının qarşısının alınması siyasəti | • ƏL/TMM ilə bağlı xarici banklar vasitəsilə aparılan əməliyyatların qiymətləndirilməsinə dair metodiki göstərişlər | W-9 Formaları/W-8BEN/W-8BEN-E təlimatları – ABŞ-da vergi hesabatları üçün hüquqi və fiziki şəxslərin statusunu təsdiq edən formalar |
| Etik Məcəllə | • ƏL/TMM-yə əsasən müştərilərin risklərinin qiymətləndirilməsi üçün metodik təlimatlar | Xarici şəxslərin hesabları üzrə identifikasiya qaydaları |
| Antikorrupsiya siyasəti | • ABB-nin xidmətlərindən faydalanan vergi ödəyicisi fiziki şəxs müştərilər tərəfindən nağd əməliyyatlar üzrə təlimatlar | Hesabın açılması və əməliyyatların aparılması üzrə identifikasiya prosesinə dair qaydalar |
| Əlaqədar şəxslər üzrə məlumatların toplanması qaydaları | • ABB müştəriləri tərəfindən əvvəlcədən ödənişlər üzrə təlimatlar | Mövcud deyil |
| Korrupsiya siyasəti | • AR MMX-ya təqdim olunan məlumatların təsdiqlənməsi qaydaları | Mövcud deyil |

Ümumiyyətlə, tətbiq olunan qanunvericilik və daxili siyasətlə uyğunluq Maliyyə monitorinqi və komplayns departamenti tərəfindən aşağıdakı fəaliyyətlər vasitəsilə təmin edir:

- Komplayns məsələləri ilə əlaqədar yeni və ya dəyişdirilmiş bank məhsullarının nəzərdən keçirilməsi
- Normativ sənədlərin işlənib hazırlanması
- Komplayns məsələləri ilə əlaqədar potensial tərəfdaşlıqlar və müştəri münasibətlərinin təhlili
- Daxili bazar qaydalarının maliyyə bazarı tənzimləyicisinin tələblərinə uyğunluğu baxımından müntəzəm olaraq nəzərdən keçirilməsi
- Qanunvericiliyə edilən dəyişikliklərin mütəmadi təhlili, eyni zamanda daxili qaydalar və standartların uyğunlaşdırılması
- Müvafiq orqanların tələblərinə və beynəlxalq standartlara uyğun olaraq proseslərin inkişafı, izlənməsi

2022-ci ildə Bank mükəmməllik və uyğunluq axtarışı ilə bir neçə əsas mərhələni uğurla başa vurdu. Kənar audit və skrininq sisteminin sınaqdan keçirilməsi, axtarış alqoritmlərinin dəqiq tənzimlənməsi ilə nəticələndi. Siron sisteminin ən son versiyasına (versiya 19) qüsursuz keçid təmin olundu. Bu versiya beynəlxalq sanksiyalardan yayınmağa qarşı səyləri gücləndirir, qanuni tələbləri təmin etmək üçün nəzərdə tutulmuş yeni ssenarilərin və göstəricilərin tətbiqini təmin edir.

Biz müştəri məlumatlarının səmərəli və mərkəzləşdirilmiş emalı, monitorinqi, yenilənməsi və saxlanması mexanizmlərinin təkmilləşdirilməsinə böyük diqqət yetirdik. Səhvləri əhəmiyyətli dərəcədə azaltdıq, ümumi əməliyyatları optimallaşdırdıq. Bu tədbirlər müştərilər üçün daha rahat və effektiv bank təcrübəsinə töhfə verdi. Bankın davamlı təkmilləşməyə sadiqliyi və hərtərəfli diqqəti daha böyük uğur üçün möhkəm zəmin yaradır.

## Antikorrupsiya siyasəti

ABB-də korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, beynəlxalq sanksiyalarla bağlı aydın prosedurlarımız və siyasətlərimiz var. ABB-nin Daxili nəzarət departamenti Bankın Korrupsiyaya Qarşı Mübarizə Siyasətinə uyğun olaraq prosesləri tətbiq etməklə potensial pozuntuları vaxtında müəyyən edir və qarşısını alır. Biz maraqlı tərəfləri antikorrupsiya Qaynar Xəttimiz (493 00 91, daxili: 2828) vasitəsilə hər hansı şübhələr barədə məlumat verməyə dəvət edirik.

**2022-ci ildə heç bir korrupsiya halı qeydə alınmayıb.**

Biz işçilərin maarifləndirilməsini artırır, etik standartlarımıza və qüvvədə olan qanunvericiliyə uyğunluğu təmin etmək üçün təlimlər verir, onlara rəhbərlik edirik. Bu cür təlimlərə yeni işə qəbul olunanlar üçün hazırlanmış "Welcome on Board" proqramı daxildir. Məqsədimiz gələcəkdə daha çox işçini əhatə etmək üçün antikorrupsiya təlimlərinin əhatə dairəsini genişləndirməkdir.

## ƏL/TMM

Çirkli pulların yuyulması və terror təşkilatlarının maliyyələşdirilməsi riskləri (ƏL/TMM) maliyyə institutlarının nüfuzuna və milli iqtisadiyyatın iqtisadi göstəricilərinə əhəmiyyətli təsir göstərir. ABB-də biz ümumən ölkəmizin bank sisteminin bütövlüyünü, reputasiyasını və sabitliyini təmin etmək üçün ƏL/TMM-yə daxili nəzarət sistemimizi təkmilləşdiririk.

ƏL/TMM monitorinqi və idarəetmə sistemimiz müvafiq qanunlara, qaydalara və beynəlxalq standartlara əsaslanır:

- ƏL/TMM-yə dair Azərbaycan Respublikasının qanunvericiliyi
- AMB-nin Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair təlimatları
- FATF-ın tövsiyələri
- Bazel komitəsinin hazırladığı, effektiv bank nəzarəti üçün əsas prinsiplər
- Wolfsberg qrupunun pul vəsaitlərinin leqallaşdırılması prinsipləri



Müştərilərlə işgüzar münasibətlər qurmazdan əvvəl müəyyənləşdirmə və yoxlama tədbirlərini həyata keçiririk. Şübhəli əməliyyatları vaxtı-vaxtında müəyyənləşdirmək və ABB-nin qanunsuz əməliyyatlara cəlb olunmasının qarşısını almaq üçün müştərilər və ya benefisiarlar (yəni ticarət müəssisələri) tərəfindən təqdim olunan sənədlərin və məlumatların hərtərəfli araşdırılması aparılır. Bundan əlavə "Öz müştərini tanı" (KYC) prinsipi əsasında əlavə məlumatlar tələb edilə bilər. Uyğun ƏL/TMM prosedurları olmayan və ya fəaliyyət göstərdiyi yerlərdə ofisi olmayan maliyyə təşkilatları ilə iş münasibətləri qurmuruq. KMM departamenti Bankın ƏL/TMM üzrə fəaliyyətinin nəticələrinə dair illik hesabatları AMB-yə təqdim edir.

2022-ci ildə biz ƏL/TMM üzrə təlimlərə üstünlük verdik. İdarə Heyətinin sədri tərəfindən təsdiq edilmiş təlim proqramı dörd kursdan ibarət oldu. İl ərzində yeni işə götürdüyümüz əməkdaşlar üçün daha effektiv bacarıqların inkişafı prosesini sürətləndirən təlimlər keçirməyə başladıq. Yeni təlim yanaşması ilə planlaşdırılan sessiyaların təsirini artırdıq.

### FATCA-CRS

Azərbaycan Respublikası hökuməti beynəlxalq vergitutma ilə bağlı təşəbbüsləri, bank hesabları və maliyyə əməliyyatları üzrə qarşılıqlı məlumat mübadiləsi vasitəsilə hökumətlərarası razılaşmaları və beynəlxalq standartlar əsasında uyğunluq və vergi şəffaflığının təmin olunmasını fəal şəkildə dəstəkləyir. 2015-ci ildə Azərbaycan Respublikası Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktına (FATCA) qoşulmuşdur.

2016-cı ildə Hökumət CRS (Ümumi Hesabat Standartı) əsasında 100-dən çox ölkə ilə vergi məqsədləri üçün məlumat mübadiləsinə imkan verən "Səlahiyyətli Orqanlar arasında Maliyyə Hesabları üzrə Məlumatın Avtomatik Mübadiləsi üzrə Çoxtərəfli Saziş"i imzalamışdır.

Müştərilərimiz haqqında status, rezidentlik və digər mühüm məlumatlar Özünüqiymətləndirmə forması, eləcə də müştərilər tərəfindən doldurulmalı olan W-8BEN, W-8BEN-E və W9 formaları vasitəsilə yoxlanılır. Bundan əlavə, bu formalarda toplanan məlumatlar əsasında hesabatlar avtomatik olaraq hazırlanır və hər il Dövlət Vergi Xidmətinə təqdim olunur.

**2021**

**435** ƏL/TMM təlimlərində iştirak etmiş əməkdaş sayı

**2022**

**1,374** ƏL/TMM təlimlərində iştirak etmiş əməkdaş sayı

Təlimlər Bankın aşağıdakı təşkilati strukturları üzrə keçirilib:

- Bankın rəhbərliyi (İdarə Heyətinin sədri və üzvləri, Baş direktorlar, İdarə Heyəti sədrinin Aparat rəhbəri)
- Bütün filialların rəhbərləri və müavinləri
- Bir neçə təşkilati strukturdan cəlb olunmuş rəhbərlər, baş mütəxəssislər, aparıcı mütəxəssislər

Növbəti illərdə hər bir işçinin Bankın fəaliyyət standartlarını başa düşməsinə və gündəlik vəzifələrini yerinə yetirərkən tətbiq olunan bütün siyasətlərə əməl etməsinə təminat yaratmaq üçün təlim proqramlarının sayını genişləndirmək və daha çox işçini uyğunluq təlimlərimizə cəlb etmək məqsədimiz var.

## 9.1.9. Daxili və kənar audit

### Daxili auditor

Yenidən işlənmiş rəqəmsal strategiyamızın bir hissəsi kimi yeni nəzarət mexanizmlərini tətbiq etməklə fırıldaqçılıq və çirkli pulların yuyulması risklərini azaltmaq məqsədilə daxili nəzarət sistemlərimizi saxlamaq və təkmilləşdirmək üçün səylə çalışırıq. Daxili audit proseslərimiz aşağıdakı iki struktur bölmə tərəfindən idarə olunur:

- **Audit Komitəsi**
- **Daxili audit departamenti**

DAD-ın məqsədi, Bankın fəaliyyətinə dəyər qatmaq və inkişaf etdirmək üçün hazırlanmış müstəqil, obyektiv təminat və məsləhət xidmətləri göstərməkdir. Daxili auditin missiyası, riskə əsaslanan və obyektiv zəmanət, məsləhət və anlayış təmin edərək təşkilati dəyəri artırmaq və qorumaqdır. Bankın daxili audit fəaliyyətinin kənarda müstəqil qiymətləndirilməsi EY tərəfindən aparılmışdır. Qiymətləndirmə başa çatdıqdan sonra ətraflı inkişaf planı olan "Yol Xəritəsi" təqdim olunmuş və Müşahidə Şurası tərəfindən təsdiq edilmişdir. Nəticədə, daxili audit funksiyası Beynəlxalq Daxili Audit Standartlarına uyğunlaşdırılmışdır.

Daxili audit prosedurları DAD tərəfindən Komitənin təsdiq etdiyi illik daxili audit planına uyğun olaraq həyata keçirilir və İdarə Heyəti tərəfindən irəli sürülən risklərə əsaslanır. Bu yolla ABB aktivlərini potensial sui-istifadədən qorumağı bacarır və Bank daxilində sağlam ekosistemi qoruyub saxlayır.

2022-ci ildə daxili yoxlamalar müxtəlif funksional sahələrin fəaliyyətini əhatə etmişdir. Bunlara aşağıdakılar daxildir:

- Daxili nəzarət mexanizmlərinin adekvatlığı
- İdarəetmə və risklərin idarə edilməsi sisteminin effektivliyi
- Yeni proseslərin, əməliyyatların və sistemlərin keyfiyyət standartlarına uyğunluğu
- Maliyyə məlumatlarının etibarlılığı və dəqiqliyi
- Törəmə müəssisələrin fəaliyyəti

### Daxili audit

Keçirilmiş audit yoxlamalarının nəticələrinə əsasən müəyyənləşmiş boşluqları əks etdirən hesabatlar hazırlanaraq əvvəl Audit Komitəsinə, daha sonra Müşahidə Şurasına təqdim edilir. Biz gələcəkdə yeni, daha davamlı və innovativ proseslər tətbiq etməklə daxili nəzarət və audit prosedurlarının təkmilləşdirilməsini davam etdirməyi planlaşdırırıq.

### Kənar auditor

Maraqlı tərəflərimiz üçün etibarlı tərəfdaş kimi xidmət etmək missiyamıza uyğun olaraq, şəffaflıq və etibarlılıq dəyərlərimizi fəaliyyətimizdə daim əks etdiririk. Bankın maliyyə hesabatlarının yerli və beynəlxalq hesabat standartlarına və tələblərinə uyğun olaraq nəzərdən keçirilməsi və yoxlanılması üçün müstəqil auditor cəlb edirik.

Kənar auditor üç ildə bir dəfə açıq tender yolu ilə seçilir. EY, ABB-nin 2017, 2018 və 2019 hesabat illəri üçün maliyyə hesabatlarının müstəqil təminatçısı olmuşdur. 2020-ci ildə Səhmdarların Ümumi Yığıncağı növbəti üç maliyyə ili üçün, (2020 - 2022) EY-ın yenidən kənar auditor vəzifəsində qalmasını təsdiqləmişdir.

Audit Komitəsi daxili audit nəticələrinin effektivliyini nəzərdən keçirir və daxili nəzarət sistemini təkmilləşdirir. Kənar auditorlar bütün müvafiq audit, etik, peşə və tənzimləmə tələblərinə cavab verməlidir. Kənar auditin effektivliyi və keyfiyyətini aşağıdakı tədbirləri həyata keçirməklə təmin edirik:

- Audit şirkətinin obyektivliyinin, müstəqilliyinin və peşəkar qərarının qiymətləndirilməsi
- Kənar audit komandasının peşəkarlığının və keyfiyyətinin qiymətləndirilməsi
- Audit Komitəsi ilə kənar auditorlar arasında müntəzəm əlaqənin qurulması
- Audit təqdimatlarını və əlaqələrini nəzərdən keçirərək kənar auditorların illik qiymətləndirilməsinin həyata keçirilməsi
- Audit planına uyğun olaraq yerinə yetirilməli olan məsələlərin nəzərdən keçirilməsi




Son illər ərzində məcburi hesabatlılıq tələbləri ilə bağlı yerli qaydaların sərtləşdirildiyini müşahidə edirik. Üstəlik, tənzimləyici hesabatlılıq yerli qanunvericilik tələblərinə və maraqlı tərəflərin gözləntilərinə uyğunlaşmağımız üçün daxili hesabat mexanizmlərimizi və korporativ idarəetmə sistemimizi inkişaf etdirməyi təşviq edən son tarix tələblərini nəzərdə tutur.

## 9.2. Risklərin idarə edilməsi

ABB riskləri proaktiv şəkildə idarə etmək və azaltmaq üçün risklərin idarə edilməsi çərçivəsinə yüksək üstünlük verir. Proses ABB-nin Risklərin İdarə Edilməsi Siyasətinə uyğunlaşdırılan və "Üç Müdafiə Xətti" modelinin rəhbər tutulduğu risklərin müəyyən edilməsini, qiymətləndirilməsini, cavablandırılmasını, monitorinqini və hesabatını əhatə edir.

ABB-nin risk idarəetməsində əsas addımlar:

**Müəyyənləşdirmə:** Təşkilatın məqsədlərinə və əməliyyatlarına təsir edə biləcək potensial risklərin müəyyən edilməsi.

**Qiymətləndirmə:** Müəyyən edilmiş risklərin ABB-nin əməliyyatları üçün əhəmiyyətinin və potensial təsirinin qiymətləndirilməsi.

**Cavab:** Müəyyən edilmiş risklərə effektiv cavab vermək və onları idarə etmək üçün strategiyaların işlənib hazırlanması və həyata keçirilməsi.

**Monitorinq:** Risklərə cavab strategiyalarının effektivliyini müntəzəm olaraq izləmək və qiymətləndirmək.

**Hesabat:** Risklə bağlı məlumatların müvafiq maraqlı tərəflərə şəffaf və vaxtında çatdırılması.

### 9.2.1. ABB-nin Risk idarəetmə sisteminin prinsipləri

Risklərin İdarə Edilməsi Siyasətimizə əsasən, risklərin idarə edilməsi sistemimizi dəstəkləyən səkkiz əsas prinsip var. Bu prinsiplər təşkilatımız daxilində riskə yanaşmamız və onları idarə etməyimiz üçün təməl rolunu oynayır.

Şəkil 26. ABB tərəfindən tətbiq edilən Üçxəttli model






Şəkil 27. ABB-nin Risklərin idarə edilməsi sisteminin 8 əsas prinsipi




### 9.2.2. Risk idarəetmə çərçivəmizin əsas elementləri

Mövcud bazar şərtlərinin qeyri-müəyyənliklərinə cavab olaraq, ABB möhkəmlik və çevikliyi vurğulayan möhkəm Risk İdarəetmə Çərçivəsini işləyib hazırlayıb. Bu çərçivə bizə maraqlı tərəflərin maraqlarını qorumağa və biznesin davamlılığını təmin etməyə imkan verir. Risklərin idarə edilməsi yanaşmamız strateji qərarlara rəhbərlik edir, missiya və baxışımızla uyğunlaşır. Risk İdarəetmə Sistemi Risklərin İdarə Edilməsi Siyasəti və Strategiyasına əsaslanır, təşkilat daxilində riskləri effektiv şəkildə idarə etmək üçün hərtərəfli plan təmin edir.

2022-ci ildə biz pərakəndə müştərilərimiz üçün kredit məhsulları üzrə avtomatlaşdırılmış qərar qəbuletmə mexanizmini işə saldıq. Bu yeniliklə pərakəndə müştərilərimiz kreditlərə daha asan və daha sürətli onlayn çıxış əldə edirlər.

Risklərin idarə edilməsi məqsədləri əməliyyatlarımıza, məqsədlərimizə və maraqlı tərəflərimizə təsir edə biləcək potensial riskləri müəyyən etmək, qiymətləndirmək, azaltmaq və monitorinq etmək üçün ABB tərəfindən həyata keçirilən sistematik və strateji səyləri əhatə edir.

ABB olaraq fərqindəyik ki, daim dəyişən bazar şərtlərini nəzərə alaraq, strateji prioritetlərimizə və ehtiyaclarımıza cavab vermək üçün Risk İdarəetmə Çərçivəmizi davamlı təkmilləşdirmək və dəyişdirmək vacibdir.

Şəkil 28. Risk idarəetmə çərçivəmiz aşağıdakı konsepsiyalar ətrafında qurulub:




### Risk mədəniyyəti

Risk mədəniyyəti bütün Bankda dəyərə əsaslanan yanaşmanı təmsil edir. Burada işçilər Bankın risklərin idarə edilməsi prinsiplərini başa düşürlər və öz fəaliyyət sahələrində yaranan risklərə cavab verirlər.

## Risk iştahı bəyanatı

Risk iştahı bəyanatı daxili qərar qəbuletmə prosesimizi və digər əməliyyatlarımızı istiqamətləndirən mühüm sənəddir.

## Risk kitabı

İllik risklər kitabına hesabat dövründə məsul struktur bölmələr tərəfindən müəyyən edilmiş bütün risklər daxildir.

## Risk istilik xəritəsi

İstilik xəritəsi risklərin qiymətləndirilməsinin nəticələrini vizuallaşdırmaq üçün Risklərin idarə edilməsi departamenti tərəfindən istifadə olunan vasitədir.

## Bizim yanaşmamız: müəyyən et, qiymətləndir, cavab ver, nəzarət et, hesabat ver

ABB risklərin effektiv idarə edilməsinə böyük əhəmiyyət verir. Bank müfəssəl prosedur sənədləri işləyib hazırlayır və hesabatlar vasitəsilə risklərin müəyyən edilməsi, qiymətləndirilməsi, monitorinqi və idarə olunması üçün əlverişli mühitin yaradılması məqsədilə işçilərin məlumatlılığını daim təmin edir. Qabaqcıl dünya təcrübəsinə əsaslanan bu yanaşma işçilərin məsuliyyətinin artırılmasına, işin sabitliyinin təmin edilməsinə və aktivlərimizin qorunmasına kömək edir.

Şəkil 29. Yanaşmamız: müəyyənləşdirmək, çıxış, cavab, izləmək, hesabat

**Riskin müəyyənləşdirilməsi**
- Risk xəritələrinin hazırlanması
- Sorğuların aparılması
- Empirik tədqiqatların aparılması
- Erkən xəbərdarlıq sistemlərinin tətbiqi

**Riskin qiymətləndirilməsi**
- Risk-dəyər modellərinin qiymətləndirilməsi
- Risk portfeli kalkulyatorunun tətbiqi
- Defolt riskinin qiymətləndirilməsi
- Vintage analizinin aparılması
- Stress testlərinin aparılması

**Risk cavabı**
- Əvvəlki addımlardan əldə edilən nəticələrin təhlili
- Riskin qəbulu, minimuma endirilməsi, ötürülməsi və qarşısının alınması prosedurlarının layihələndirilməsi və həyata keçirilməsi

**Risk monitorinqi**
- Risk iştahı ilə bağlı qəbul edilmiş risklərin monitorinqi

**Risk hesabatı**
- Risk məlumatlarının ümumiləşdirilməsi
- Risk hesabatı çərçivəsinin inkişafı



## 9.2.3. 2022-ci ildə Risklərin idarə edilməsi prosesinin nəticələri

Həyata keçirilən risklərin qiymətləndirilməsi prosedurlarına əsasən, ABB aşağıdakı risk kateqoriyalarını müəyyənləşdirərək idarə edir:

Cədvəl 11. Risklərin idarə edilməsi prosesi

| # | Risklərin klassifikasiyası | Risklərin idarə edilməsi üçün istifadə olunan nəzarət tədbirləri |
|---|---|---|
| | **Kredit riskləri** | **Borcalanın bank qarşısında əsas borcun, faizlərin və digər haqların vaxtında və tam şəkildə qaytarılması üzrə öhdəliklərini yerinə yetirməməsi nəticəsində yaranan risklər.** |
| 1 | Kredit fokuslu risk | • Kredit portfelinin kəmiyyət qiymətləndirilməsinin aparılması |
| 2 | Qarşı tərəfin defolt riski | • Limitlərin təyin edilməsi, müntəzəm sapmaların yoxlanılması və onların Bankın risk iştahına daxil edilməsi |
| 3 | Ölkə riski | • Kreditlərin müntəzəm monitorinqi |
| | **Bazar riskləri** | **Faiz dərəcələrinin mənfi dəyişməsi, valyuta məzənnələrində və ya Bank tərəfindən alınmış qiymətli kağızların dəyərində, bazarda ümumi əmtəə qiymətlərində əlverişsiz dəyişikliklərlə bağlı risklər** |
| 4 | Faiz dərəcəsi riski | • Risk dərəcəsinin hesablanması;<br>• Nəzarət üsullarının tətbiqi; |
| 5 | Valyuta riski | • Xarici valyutalarda açıq mövqelərin gündəlik təhlili;<br>• Müəyyən edilmiş limitlərə nəzarət etmək üçün gündəlik hesabatların hazırlanması;<br>• Bankın açıq valyuta mövqeyinə nəzarət;<br>• Valyuta risklərinin təsirinin təhlili; |
| 6 | Kapital riski | • Kapital riski limitlərinin müəyyən edilməsi;<br>• Müəyyən edilmiş limitlərin monitorinqi;<br>• Qiymətli kağızlara investisiya təkliflərinin qiymətləndirilməsinə dair rəylərin verilməsi; |

| # | Risklərin klassifikasiyası | Risklərin idarə edilməsi üçün istifadə olunan nəzarət tədbirləri |
|---|---|---|
| | **Likvidlik riskləri** | **Planlaşdırılmış və gözlənilməz öhdəliklərin vaxtında və təsirli şəkildə yerinə yetirilməməsindən qaynaqlanan risklər** |
| 7 | Tənzimləyici likvidlik riski | • Likvidlik təhlili və kəmiyyət göstəricilərinin monitorinqi;<br>• Likvidlik riskinin vəziyyətinə və ölçüsünə təsir göstərən bankdaxili prosedurların struktur bölmələrin əməkdaşları tərəfindən icrası üzərində daimi nəzarət;<br>• Erkən xəbərdarlıq sistemi vasitəsilə likvidlik riskinin daimi monitorinqinin aparılması;<br>• Bankın fəaliyyətinin təsdiq olunmuş likvidlik standartları çərçivəsində həyata keçirilməsinə nəzarət;<br>• Likvidlik riskini minimuma endirmək üçün müvafiq tədbirlərin həyata keçirilməsinə nəzarət;<br>• Hər valyuta üçün proqnozlaşdırılan nağd pul axınına nəzarət;<br>• Yerləşdirmə və likvidlik riski göstəricilərinə limitlərin qoyulması |
| 8 | Fiziki likvidlik riski | |
| 9 | Struktur likvidlik riski | |
| | **Əməliyyat riskləri** | **Standart əməliyyat prosedurlarına riayət edilməməsi nəticəsində yaranan risklər** |
| 10 | İnformasiya texnologiyaları riski | • Bankın əsas əməliyyat sistemlərindəki fasilələr və səhvlər üçün limit nisbətlərinin Risk İştahası Bəyannaməsi Risk xəritəsi tərtibində əks olunması;<br>• Səlahiyyət və qərar qəbuletmə həddinin müəyyən edilməsi;<br>• İT risk göstəricilərinin qeydiyyatı və monitorinqi |
| 11 | Xarici risk | • Yan təsirlər və fövqəladə hallar üçün stress-testlərin aparılması;<br>• Kiber hücum risklərini ölçmək üçün nüfuzetmə testlərinin nəticələrini təhlil etmək və nəticələri barədə müvafiq strukturlara məlumat vermək |
| 12 | İmic riski | • Bank, ictimaiyyət, media və sosial şəbəkələrdə xəbərlərin mütəmadi olaraq izlənməsi, müştəri məmnuniyyətini ölçmək üçün vaxtaşırı sorğular;<br>• Şikayətlərin qeydiyyatı, araşdırılması və nəticələri ilə bağlı tədbirlər görülməsi |



| # | Risklərin klassifikasiyası | Risklərin idarə edilməsi üçün istifadə olunan nəzarət tədbirləri |
|---|---|---|
| | **Digər** | **Mövcud hüquqi aktların qəsdən və ya istənilmədən pozulması, bank işçiləri tərəfindən bank əməliyyatlarının həyata keçirilməsində buraxılan səhv və ya Bankın planlaşdırılan layihələri həyata keçirə bilməməsindən irəli gələn risklər** |
| 13 | İnsan resursları riski | • Namizədlərin seçilməsi, işəqəbulu və MM-lərin tətbiqi üçün bankdaxili qaydalar;<br>• İşçi heyətin təhlükəsizliyi məsələləri, iş proseslərinin qurulması və aparılması, müvafiq məlumatların qorunması barədə işçilərə təlimat vermək;<br>• Müntəzəm olaraq daxili tədqiqat aparmaq |
| 14 | Strateji risk | • Daxili və kənar audit strukturları tərəfindən həyata keçirilən audit tapşırıqları;<br>• Nəticələr barədə hesabatların təqdim edilməsi |
| 15 | Hüquq riski | • Bankın risk iştahasında qəbul edə biləcəyi qanuni risk limitlərinin müəyyən edilməsi;<br>• Səlahiyyət və qərar qəbuletmə sisteminin qurulması;<br>• Əməliyyat risk göstəricisi monitorinq sistemi;<br>• Effektiv nəzarət sisteminin qurulması |
| 16 | Komplayns riski | • Bankın fəaliyyətinin, məhsul və xidmətlərinin, eləcə də işçilərinin fəaliyyətinin mövcud qanunvericiliyin (qanunlar, qaydalar, standartlar və digər normativ aktlar) tələblərinə uyğunluğunun təmin edilməsi;<br>• Uyğunluq riski hadisələri haqda qeydlərin aparılması, izahatlar alınması, baş vermə ehtimalının müəyyənləşdirilməsi;<br>• Bankın rüşvət və korrupsiya ilə mübarizə məqsədi daşıyan daxili sənədlərinin tələblərə uyğunluğunun izlənməsi |
| 17 | Layihə riski | • İcra ediləcək layihələrin risk əsaslı prioritetlərinin icrası və icra müddətində icra vəziyyətinə və qalıq risklərə nəzarət;<br>• İcra strukturları ilə əlaqə və metodiki idarəetmə fəaliyyətlərində iştirak;<br>• Empirik təhlil, erkən xəbərdarlıq sistemləri, müəyyən edilmiş risklər barədə hesabatlar, analitik təhlil hesabatları |

# 9.3. Məlumat məxfiliyi və kibertəhlükəsizlik

Rəqəmsallaşmaya sürətli keçidlə bank sektorunda kibertəhlükəsizlik məsələləri kritik problemə çevrilib. Daim dəyişən qlobal rəqəmsal məlumat mühitində gözlənilməz məlumat pozuntuları və insidentlər hər an baş verə bilər. Güclü kibertəhlükəsizlik mədəniyyətinin yaradılması, müştərilərin informasiya təhlükəsizliyinin sabit şəkildə qorunması bank sektorunda son dərəcə vacibdir. ABB-də bu məsələyə xüsusi diqqət yetiririk. Hesabat ilində məlumatların təhlükəsizliyinə nəzarəti gücləndirdik. ABB brendinə inam üçün böyük sərmayələr yatırdıq. Riskləri effektiv şəkildə idarə etməkdən ötrü möhkəm nəzarət mühiti formalaşdırdıq.

## Məlumat məxfiliyi və qorunması

Biz Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin hazırladığı - 2019-2022-ci illər üçün Kibertəhlükəsizlik Strategiyasında müəyyən edilmiş prioritetləri nəzərdən keçirdik. Fəaliyyətimizi bu strategiyaya uyğunlaşdırmağımızda məqsəd inkişaf edən kibertəhlükəsizlik tendensiyalarına və çağırışlara qarşı dayanıqlılığımızı, hazırlığımızı daim artırmaqdır.

Şəkil 30. Məlumatların məxfiliyi və qorunması




ABB-nin İnformasiya Təhlükəsizliyi Konsepsiyasına uyğun olaraq, məlumatların qorunmasında ardıcıllığı saxlayırıq. Məxfiliyi və bütövlüyü qorumaq üçün nəzarəti gücləndiririk. Məlumat təhlükəsizliyi yanaşmamız 3 əsas istiqamətə əsaslanır:

**Məxfilik**

Məxfi məlumatların səlahiyyətsiz şəxs tərəfindən açıqlanmasının qarşısının alınması, konfidensiallığın təmin edilməsi Bankın maliyyə, hüquqi əməliyyatlarına və reputasiyasına dəyən zərər riskini azaltmaq üçün zəruridir.

**Tamlıq**

Tamlıq məlumatın yalnız əvvəlcədən razılaşdırılmış və icazə verilən şəkildə dəyişdirilməsini təmin edir. Tamlığın təmin edilməsi məlumatların təhrif edilməsi və ya icazəsiz dəyişdirilməsi riskini azaldır.

**Əlçatanlıq**

Biznesin tələblərinə uyğun olaraq informasiya sistemlərinə çıxışın təmin edilməsi üçün effektiv mexanizmlərin yaradılması.

Konsepsiya "Banklar haqqında", "Dövlət sirri haqqında", "İnformasiya, informasiyalaşdırma və məlumatların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunları əsasında hazırlanmışdır və İSO/IEC 17799 Beynəlxalq standartına uyğundur.

Ayrı-ayrı informasiya sistemlərinin istismarı və məlumatların emalı prosedurları ilə bağlı bütün əməliyyat sənədləri İnformasiya Təhlükəsizliyi Konsepsiyası ilə müəyyən edilmiş qaydalara uyğun olmalıdır. İnformasiya Təhlükəsizliyi Konsepsiyasında qeyd olunan müddəalar informasiya sistemlərinin fəaliyyəti ilə bağlı



hər hansı digər sənədlərdən üstündür. Bu iyerarxik struktur İnformasiya Təhlükəsizliyi Konsepsiyasında müəyyən edilmiş prinsip və siyasətlərin ən yüksək üstünlük təşkil etməsini təmin edir. Bankın informasiya resurslarının bütövlüyünü və təhlükəsizliyini qorumaq üçün onlara əməl edilməlidir.

## Məxfilik və qorunma üzrə daxili qaydalar:

Təhlükəsizlik və məxfilik dəyərlərini müəyyən edən əsas sənəd ABB-nin Etik Kodeksidir.

2022-ci ildə təsdiqlənmiş "İnformasiya insidentlərinin idarə edilməsi üzrə Metodik Təlimatlar" "ABB-nin İnformasiya Təhlükəsizliyi Konsepsiyası" və informasiya təhlükəsizliyi üzrə təkmil idarəetmə sistemləri əsasında qurulub. Bu təlimatlar qabaqcıl təcrübələrə əsaslanaraq hazırlanıb. İnformasiya prosesləri və texnologiyaları ilə işləyərkən istifadəçilər üçün zəruri prosedurları, davranışları müəyyənləşdirir. Bu metodik göstərişlərin əsas məqsədi ən yüksək keyfiyyət səviyyəsini təmin etməklə insidentləri operativ və effektiv şəkildə həll etməkdir. Yekun məqsəd bu hadisələrin biznes əməliyyatlarına göstərə biləcəyi hər hansı mənfi təsiri minimuma endirməkdir.

## Fırıldaqçılığın qarşısının alınması və kibertəhlükəsizlik

ABB potensial olaraq kiber fırıldaqçılıq hücumlarına, həm bankdaxili, həm də xarici İT əməliyyatlarında fasilələrə, bankomat hücumlarına və kredit fırıldaqlarına səbəb ola biləcək artan xarici təhlükələrin fərqindədir. Fırıldaqçılıqdan və onun potensial maliyyə itkilərindən qorunmaq üçün ABB saxtakarlıq fəaliyyətlərinə qarşı ciddi tədbirlər görür. Bu tədbirlər icazəsiz pul köçürmələrinin, xüsusən də müştərilərin razılığı olmadan həyata keçirilən pul köçürmələrinin qarşısının alınmasını nəzərdə tutur. Bundan əlavə, ABB xidmət mərkəzləri və ya işçilərin qeyri-qanuni əməliyyatlara cəlb edilməsinin qarşısını almaq üçün tədbirlər həyata keçirir.

Məlumatların qeyri-adekvat mühafizəsi və idarə edilməsi də maliyyə institutlarında kritik risk faktorları kimi tanınır. Buna cavab olaraq, ABB bu cür riskləri effektiv şəkildə azaltmaq üçün risk limiti sistemini işləyib hazırlayıb. Bu sistem Erkən Xəbərdarlıq Sistemi (EWS) əsasında risk limitlərinin avtomatlaşdırılmasına imkan verir. Bu yanaşmadan istifadə etməklə Bank məlumatların pozulması ehtimalını və məlumatla bağlı digər zəiflikləri minimuma endirməklə, potensial riskləri fəal şəkildə həm müəyyən, həm də həll edə bilir.

ABB Azərbaycanın bank sektorunda kibertəhlükəsizlik sahəsində qabaqcıl mövqe tutduğundan, Bankımız öz müştərilərini müxtəlif kibertəhlükələrdən, o cümlədən fişinq hücumlarından qorumaq üçün ən müasir xidmətlər təqdim etmək imkanındadır. Bankın təhlükəsizliyə proaktiv yanaşması onun rəqəmsal bankçılıq xidmətlərinə inamı qoruyur.

ABB təhlükəsizlik problemlərini strateji şəkildə həll etməklə proaktiv təhlükəsizlik yanaşmasını mənimsəyir. Rəqəmsal ödənişləri maksimum dərəcədə artırmaqla yanaşı, rəqəmsal bankçılıqda tam təhlükəsiz mühit yaradır. Bu hərtərəfli strategiya vasitəsilə Azərbaycanın rəqəmsal bankçılıq ekosisteminin ümumən böyüməsinə və tərəqqisinə töhfə verir. Müştərilərin etibarını artırır, həssas məlumatları qoruyur.

ABB müştəriləri kiberhücumlardan qorumaq üçün müxtəlif ciddi tədbirlər görür. Məsələn:

- Müştərilərin kartlarında fırıldaqçılıq risklərinin minimuma endirilməsi üçün 3D Secure parolu vasitəsilə 3D Secure texnologiyasının tətbiqi
- SMS bildirişi bütün müştəri əməliyyatları, yeni əməliyyatlar, tranzaksiya uğursuzluqları və bu əməliyyat uğursuzluqlarına səbəb olan potensial şübhəli əməliyyatlar üçün təmin edilir
- Mobil telefonun biometrik autentifikasiya funksiyası varsa, əlavə təhlükəsizlik kodunun daxil edilməsi tələbi yüksək məbləğdə əməliyyatlar üçün xüsusilə təhlükəsiz olan NFC texnologiyası
- Sistemin rəqəmsal bankçılıq xidmətlərinin səmərəliliyini artırmağa kömək etdiyini nəzərə alaraq, korporativ bankçılıqda Ani Ödəniş Sisteminin optimallaşdırılması

## Ümumi Məlumatların Qorunması Qaydasının (GDPR) ABB-yə təsiri

Bankdaxili proseslərin və müştərilərin şəxsi məlumatlarının kibercinayətkarlıqdan qorunmasında, bununla münasibətlərin effektiv idarə olunmasında Avropa Birliyinin Ümumi Məlumatların Qorunması Qaydası (GDPR) banklara dəyərli təlimatlar verir. GDPR bankın xüsusiyyətlərini, müştərilərin şəxsi məlumatlarının emalından asılılığını və digər maliyyə bazarı qaydalarına uyğunluğunu nəzərə alaraq, bankların məhsul və xidmətləri necə dizayn və təklif etməli olduğunun təsvirini verir. Bu qaydaların hazırda ən yaxşı təcrübə sayıldığını nəzərə alaraq, biz boşluqları müəyyənləşdirmək, məlumatların mühafizəsi təcrübəmizi daha da təkmilləşdirmək üçün GDPR tələblərini dərindən öyrənirik.

İnformasiya Təhlükəsizliyi Konsepsiyası risk və təhdidlərə hazır olmaq, onlara cavab vermək üçün aşağıdakı tədbirlər vasitəsilə informasiya təhlükəsizliyi proseslərində bizə rəhbərlik edir:

- Fövqəladə və gözlənilməz hallarla bağlı müxtəlif risk və təhdidlərin Bankın əməliyyat fəaliyyətinə təsirinin qiymətləndirilməsi
- İnformasiya sistemlərinin bərpası strategiyasının müəyyən edilməsi
- Fövqəladə halların ayrı-ayrı variantları zamanı müxtəlif davranış ssenariləri
- İnformasiya sistemlərinin bərpası üzrə işlərin qarşılıqlı əlaqəsi və əlaqələndirilməsi sxemi
- Planın sınaq sxemi və onun dövriliyi
- İnformasiya sistemlərinin bərpası prosesində iştirak edən bütün Bank işçilərinin məcburi təlimatlandırılması



# 10. Yekun qeydlər və məsuliyyət həddi

ABB, gələcəyə hesablanmış bəyanatları ehtiva edən Hesabatında verilən məlumatların düzgünlüyünü təmin etmək üçün böyük səy göstərmişdir.

ABB bu Hesabatda perspektivli bəyanatların yenilənməsinə görə, eləcə də hər hansı tərəfin onlara etibar etməsi nəticəsində dəymiş hər hansı itki və zərərə, o cümlədən mənfəət və qazanc zərərinə görə məsuliyyət daşımır.

Biz hesabatlarımızı təkmilləşdirməyə kömək edəcək hər hansı irad və tövsiyələri faydalı rəy kimi alqışlayırıq. Bütün maraqlı tərəfləri dinləməyə, onların bu Hesabatla, eləcə də dayanıqlılıq üzrə fəaliyyətimizin hər hansı bir hissəsi ilə bağlı rəylərini almağa hazırıq. Hər hansı rəy və təkliflərinizlə bağlı **yedgar.jafarov@abb-bank.az** elektron ünvanı ilə əlaqə saxlaya bilərsiniz.

# 11. GRI standartlarına uyğunluq cədvəli

| | |
|---|---|
| İstifadə bəyanatı | ABB 01.01.2022-31.12.2022-ci il tarixləri üçün GRI standartlarına uyğun hesabat vermişdir. |
| GRI 1 istifadə olunur | **GRI 1:** Əsas - 2021 |

| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Ümumi açıqlamalar** | | | | |
| **GRI 2: Ümumi açıqlamalar 2021** | 2-1 Təşkilati təfərrüatlar | ✓ 2. Haqqımızda | səh. 10-17 | |
| | 2-2 Təşkilatın dayanıqlı inkişaf hesabatına daxil edilən qurumlar | ✓ 3.1. Hesabatın profili | səh. 20-25 | |
| | 2-3 Hesabat dövrü, tezliyi və əlaqə | ✓ 3.1. Hesabatın profili | səh. 20-25 | |
| | 2-4 Məlumatın yenidən təqdim edilməsi | ✓ 3.1. Hesabatın profili | səh. 20-25 | |
| | 2-5 Kənar əminlik | ✓ 12. Müstəqil Əminlik Bəyannaməsi | səh. 137-138 | |
| | 2-6 Fəaliyyətlər, dəyər zənciri və digər işgüzar əlaqələr | ✓ 2.1. Bank haqqında qısaca<br>✓ 2.2. Missiya və strateji baxışımız<br>✓ 2.3. Dəyərlərimiz | səh. 11<br>səh. 12<br>səh. 13 | |
| | 2-7 Əməkdaşlar | ✓ 8.2. Əməkdaşlarımız üçün üstünlüklərin artırılması | səh. 66-71 | |
| | 2-8 Əməkdaş olmayan digər işçilər üzrə məlumat | ✗ Mövcud deyil | | |



| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Ümumi açıqlamalar** | | | | |
| **GRI 2: Ümumi açıqlamalar 2021** | 2-9 İdarəetmə strukturu və tərkibi | ✓ 9.1.6. İdarə Heyəti | səh. 101-104 | |
| | 2-10 Ali idarəetmə orqanına namizədlik və seçim | ✓ 9.1.6. İdarə Heyəti | səh. 101-104 | |
| | 2-11 Ali idarəetmə orqanının sədri | ✓ 9.1.6. İdarə Heyəti | səh. 101-104 | |
| | 2-12 Təsirlərin idarə olunmasına nəzarətdə ali idarəetmə orqanının rolu | ✓ 9.1.6. İdarə Heyəti | səh. 101-104 | |
| | 2-13 Təsirlərin idarə edilməsi üçün səlahiyyətin ötürülməsi | ✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh.72 | |
| | 2-14 Dayanıqlı inkişaf hesabatında ali idarəetmə orqanının rolu | ✓ 9.1.1. Korporativ idarəetmə | səh. 88-89 | |
| | 2-15 Maraqların toqquşması | ✓ 9.1. İdarəetmə | səh. 104-110 | |
| | 2-16 Vacib məsələlər haqqında ali idarəetmə orqanının məlumatlandırılması | ✓ 9.1.9. Daxili və kənar audit<br>✓ 8.2. Əməkdaşlarımız üçün üstünlüklərin artırılması<br>✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh. 110-112<br>səh. 66-71<br>səh.72 | |
| | 2-17 Ali idarəetmə orqanının kollektiv biliyi | ✓ 8.1. Məsuliyyətli maliyyəyə yanaşmamız<br>✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh. 64-66<br>səh.72 | |
| | 2-18 Ali idarəetmə orqanının fəaliyyətinin qiymətləndirilməsi | ✓ 9.1.7. Mükafatlandırma sistemi | səh. 104-106 | |
| | 2-19 Mükafatlandırma siyasətləri | ✓ 9.1.7. Mükafatlandırma sistemi | səh. 104-106 | |

| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Ümumi açıqlamalar** | | | | |
| GRI 2: Ümumi açıqlamalar 2021 | 2-20 Mükafatlandırmanı müəyyən edən proses | ✓ 9.1.7. Mükafatlandırma sistemi | səh. 104-106 | |
| | 2-21 İllik kompensasiya nisbəti | Konfidensiallıq məhdudiyyətləri | | Bu məlumat ABB tərəfindən məxfi hesab edildiyi üçün açıqlanmır. |
| | 2-22 Dayanıqlı inkşaf strategiyası haqqında bəyanət | ✓ 1. İdarə Heyəti Sədrindən | səh. 5-7 | |
| | 2-23 Siyasi öhdəliklər | ✓ 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi | səh. 106-109 | |
| | 2-24 Siyasi öhdəliklərin daxil edilməsi | ✓ 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi<br>✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi<br>✓ 8.1 Məsuliyyətli maliyyəyə yanaşmamız | səh. 106-109<br>səh.72<br>səh. 64-66 | |
| | 2-25 Mənfi təsirləri aradan qaldırmaq üçün proseslər | ✓ 8.2. Əməkdaşlarımız üçün üstünlüklərin artırılması<br>✓ 8.1. Məsuliyyətli maliyyəyə yanaşmamız | səh. 66-71<br>səh. 64-66 | |
| | 2-26 Məsləhət axtarmaq və problemləri bildirmək üçün mexanizmlər | ✓ 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi | səh. 106-110 | |
| | 2-27 Qanun və qaydalara uyğunluq | ✓ 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi | səh. 106-110 | |



| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Ümumi açıqlamalar** | | | | |
| GRI 2: Ümumi açıqlamalar 2021 | 2-28 Üzvlük assosiasiyaları | ✓ 2. Haqqımızda | səh. 10-17 | |
| | 2-29 Maraqlı tərəflərin cəlb edilməsinə yanaşma | ✓ 9.1.3. İnvestor və səhmdar münasibətləri | səh. 89-91 | |
| | 2-30 Kollektiv əmək müqavilələri | ✓ 8.2. Əməkdaşlarımız üçün üstünlüklərin artırılması | səh. 66-71 | |
| **Əhəmiyyətli mövzular** | | | | |
| GRI 3: Əhəmiyyətli mövzular 2021 | 3-1 Əhəmiyyətli mövzuların müəyyənləşdirilməsi prosesi | ✓ 3.1. Hesabatın profili | səh. 20-25 | |
| | 3-2 Əhəmiyyətli mövzuların siyahısı | ✓ 3.1. Hesabatın profili | səh. 20-25 | |
| **İqtisadi fəaliyyət** | | | | |
| GRI 3: Əhəmiyyətli mövzular 2021 | 3-3 Əhəmiyyətli mövzuların menecmenti | ✓ 3. Hesabat haqqında<br>✓ 4. İdarəetmə təhlili | səh. 20-25<br>səh. 28-29 | |
| GRI 201: İqtisadi fəaliyyət 2016 | 201-1 Əldə edilmiş birbaşa iqtisadi dəyər və onun paylaşdırılması | ✓ 4. İdarəetmə təhlili | səh. 28-29 | |
| | 201-2 İqlim dəyişikliyi ilə əlaqədar maliyyə nəticələri, risklər və imkanlar | ✗ Mövcud deyil | | Biz qarşıdakı dövrlərdə daha da əhatəli məlumat təqdim etmək üçün iqlim dəyişikliyi ilə əlaqədar maliyyə nəticələrimizin, eləcə də digər risk və imkanlarımızın qiymətləndirilməsi üzərində işləyirik. |
| | 201-3 Müəyyən edilmiş imtiyazlar planı üzrə öhdəliklər və digər pensiya planları | ✗ Mövcud deyil | | |
| | 201-4 Hökumətdən alınan maliyyə yardımı | ✗ Mövcud deyil | | |

| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Bazarda mövcudluq** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecmenti | ✓ 9.1. İdarəetmə | səh. 88-110 | |
| **GRI 202: Bazarda mövcudluq 2016** | 202-1 Yerli minimal əmək haqqı ilə müqayisədə cinslər üzrə standart əmək haqqı | ✓ 9.1.7. Mükafatlandırma sistemi | səh. 104-106 | |
| | 202-2 Yerli əhalidən olan rəhbərliyin payı | ✗ Mövcud deyil | | Qarşıdakı dövrlərdə daha da əhatəli məlumat təqdim etməyimizi təmin etmək üçün daxili insan resursları hesabatlarımızın təkmilləşdirilməsi üzərində işləyirik. |
| **Dolayı iqtisadi təsirlər** | | | | |
| **GRI 3: mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecmenti | ✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi<br>✓ 8.4. Ətraf mühitə təsirimizin idarə edilməsi | səh. 72-85<br>səh. 82-85 | |
| **GRI 203: Dolayı iqtisadi təsirlər 2016** | 203-1 İnfrastruktur sərmayələri və dəstəklənən xidmətlər | ✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh. 72-85 | |
| | 203-2 Əhəmiyyətli dolayı iqtisadi təsirlər | ✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi<br>✓ 8.4. Ətraf mühitə təsirimizin idarə edilməsi | səh. 72-85<br>səh. 82-85 | |
| **Satınalma təcrübəsi** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecmenti | ✓ 8.1. Məsuliyyətli maliyyəyə yanaşmamız | səh. 64-66 | |
| **GRI 204: Satınalma təcrübələri 2016** | 204-1 Yerli təchizatçılara xərclənən vəsaitlərin ümumi büdcəyə nisbəti | ✗ Mövcud deyil | | |



| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Antikorrupsiya** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecementi | ✓ 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi | səh. 106-110 | |
| **GRI 205: Anti-korrupsiya 2016** | 205-1 Korrupsiya riski üzrə qiymətləndirilmiş əməliyyatlar | ✓ 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi | səh. 106-110 | |
| | 205-2 Anti-korrupsiya siyasəti və prosedurları üzrə keçirilmiş təlim və kommunikasiya | ✓ 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi | səh. 106-110 | |
| | 205-3 Qeydə alınmış korrupsiya halları və bu halların qarşısını almaq üçün həyata keçirilmiş tədbirlər | ✓ 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi | səh. 106-110 | |
| **Antirəqabət davranışı** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecementi | ✓ 8.2 Əməkdaşlarımız üçün üstünlüklərin artırılması<br>✓ 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi | səh. 106-110<br>səh. 66-7 | |
| **GRI 206: Antirəqabət davranışı 2016** | 206-1 Sağlam olmayan rəqabət davranışları, etimadsızlıq və monopoliya təcrübələri üzrə hüquqi tədbirlər | ✓ 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi<br>✓ 8.2. Əməkdaşlarımız üçün üstünlüklərin artırılması | səh. 106-110<br>səh. 66-71 | |
| **Vergi** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecementi | ✓ 2.5. Nizamnamə kapitalının strukturu<br>✓ 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi<br>✓ 9.2. Risklərin idarə edilməsi | səh. 15-17<br>səh. 106-110<br>səh. 112-110 | |
| **GRI 207: Vergi 2019** | 207-1 Vergiyə yanaşma | ✗ Mövcud deyil | | |
| | 207-2 Vergi idarəçiliyi, nəzarət və risklərin idarə edilməsi | ✓ 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi<br>✓ 9.2. Risklərin idarə edilməsi | səh. 106-110<br>səh. 112-120 | |

| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Vergi** | | | | |
| GRI 207: Vergi 2019 | 207-3 Maraqlı tərəflərin cəlb edilməsi və vergi ilə bağlı narahatlıqların idarə edilməsi | ✓ 9.1.8. Komplayns və maliyyə monitorinqi sistemi | səh. 106-110 | |
| | 207-4 Ölkə üzrə hesabat | ✓ 2.5. Nizamnamə kapitalının strukturu | səh. 15-17 | |
| **Materiallar** | | | | |
| GRI 301: Materiallar 2016 | 301-1 İstifadə olunan materiallar, həcm və ya çəki ilə | × Mövcud deyil | | |
| | 301-2 Təkrar istifadə olunan materiallar | × Mövcud deyil | | |
| | 301-3 Geri toplanmış məhsullar və qablaşdırma materialları | × Mövcud deyil | | |
| **Energi** | | | | |
| GRI 3: Əhəmiyyətli mövzular 2021 | 3-3 Əhəmiyyətli mövzuların menecementi | ✓ 8.4. Ətraf mühitə təsirimizin idarə edilməsi | səh. 82-85 | |
| GRI 302: Enerji 2016 | 302-1 Təşkilat üzrə enerji sərfiyyatı | ✓ 8.4. Ətraf mühitə təsirimizin idarə edilməsi | səh. 82-85 | |
| | 302-2 Təşkilat xaricində enerji istehlakı | × Mövcud deyil | | Biz təşkilatımızdan kənarda enerji istehlakı ilə bağlı məlumatları konsolidə etmirik. |
| | 302-3 Enerji intensivliyi əmsalı | × Mövcud deyil | | |
| | 302-4 Enerji sərfiyyatının azaldılması | ✓ 8.4. Ətraf mühitə təsirimizin idarə edilməsi | səh. 82-85 | |
| | 302-5 Məhsul və xidmətlərin enerjiyə olan tələbatının azaldılması | × Mövcud deyil | | |



| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Su və tullantılar** | | | | |
| GRI 3: Əhəmiyyətli mövzular 2021 | 3-3 Əhəmiyyətli mövzuların menecementi | ✓ 8.4. Ətraf mühitə təsirimizin idarə edilməsi | səh. 82-85 | |
| GRI 303: Su və tullantılar 2018 | 303-1 Sudan ortaq resurs kimi birgə istifadə | × Mövcud deyil | | ABB-nin biznes xüsusiyyətlərinə aidiyyəti olmadığı üçün bu məlumat açıqlanmır. |
| | 303-2 Su axıdılması ilə əlaqədar təsirlərin idarə edilməsi | × Mövcud deyil | | Əhəmiyyətli deyil |
| | 303-3 Su çəkilməsi | × Mövcud deyil | | Əhəmiyyətli deyil |
| | 303-4 Su axıdılması | × Mövcud deyil | | Əhəmiyyətli deyil |
| | 303-5 Su sərfiyyatı | ✓ 8.4. Ətraf mühitə təsirimizin idarə edilməsi | səh. 82-85 | |
| **Biomüxtəliflik** | | | | |
| GRI 304: Biomüxtəliflik 2016 | 304-1 Qorunan ərazilər və yüksək biomüxtəliflik dəyəri olan ərazilərdə və ya bitişik ərazilərdə mövcud olan əməliyyat sahələri | × Mövcud deyil | | ABB-nin biznes xüsusiyyətlərinə aidiyyəti olmadığı üçün bu məlumat açıqlanmır. |
| | 304-2 Əməliyyatların, məhsulların və xidmətlərin biomüxtəlifliyə ciddi təsirləri | × Mövcud deyil | | ABB-nin biznes xüsusiyyətlərinə aidiyyəti olmadığı üçün bu məlumat açıqlanmır. |
| | 304-3 Qorunan və ya bərpa edilən yaşayış yerləri | × Mövcud deyil | | ABB-nin biznes xüsusiyyətlərinə aidiyyəti olmadığı üçün bu məlumat açıqlanmır. |
| | 304-4 Əməliyyat sahələrində Beynəlxalq Təbiəti Qoruma İttifaqının Qırmızı Siyahısına düşmüş növlərin mövcudluğu | × Mövcud deyil | | ABB-nin biznes xüsusiyyətlərinə aidiyyəti olmadığı üçün bu məlumat açıqlanmır. |

| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Emissiyalar** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecmenti | ✓ 8.4. Ətraf mühitə təsirimizin idarə edilməsi | səh. 82-85 | |
| **GRI 305: Emissiyalar 2016** | 305-1 İstixana effekti yaradan qazların (İEYQ) birbaşa emissiyası (Sahə 1) | ✓ 8.4. Ətraf mühitə təsirimizin idarə edilməsi | səh. 82-85 | |
| | 305-2 İstixana effekti yaradan qazların (İEYQ) dolayı emissiyası (Sahə 2) | ✓ 8.4. Ətraf mühitə təsirimizin idarə edilməsi | səh. 82-85 | |
| | 305-3 Digər istixana effekti yaradan qazların (İEYQ) dolayı emissiyası (Sahə 3) | ✗ Mövcud deyil | | Qarşıdakı dövrlərdə daha da əhatəli məlumat təqdim etməyimiz üçün korporativ karbon izimizin qiymətləndirilməsinə yanaşmamızı təkmilləşdirmək üzərində işləyirik. |
| | 305-4 İEYQ emissiyalarının intensivlik əmsalı | ✗ Mövcud deyil | | Qarşıdakı dövrlərdə daha da əhatəli məlumat təqdim etməyimiz üçün korporativ karbon izimizin qiymətləndirilməsi işinin təkmilləşdirilməsi üzərində işləyirik. |
| | 305-5 RİEYQ emissiyalarında azalmalar | ✓ 8.4. Ətraf mühitə təsirimizin idarə edilməsi | səh. 82-85 | |
| | 305-6 Ozon qatını məhv edən emissiyalar | ✗ Mövcud deyil | | ABB, maliyyə qurumu olaraq ozon təbəqəsini parçalayan maddələrin istehsalı, istifadəsi və ya birbaşa emissiyası ilə məşğul deyil. |
| | 305-7 NOx, SOx və digər əhəmiyyətli emissiyalar | ✗ Mövcud deyil | | ABB, maliyyə qurumu olaraq, azot oksidləri (NOx) və ya kükürd oksidləri (SOx) kimi əhəmiyyətli hava emissiyalarını birbaşa istehsal etmir. |



| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Tullantılar** | | | | |
| **GRI 306: Tullantılar 2020** | 306-1 Tullantıların yaranması və tullantılarla bağlı əhəmiyyətli təsirlər | ✗ Mövcud deyil | | Əhəmiyyətli deyil |
| | 306-2 Tullantılarla bağlı əhəmiyyətli təsirlərin idarə edilməsi | ✗ Mövcud deyil | | Əhəmiyyətli deyil |
| | 306-3 Yaranan tullantılar | ✗ Mövcud deyil | | Əhəmiyyətli deyil |
| | 306-4 Utilizasiyadan yayındırılmış tullantılar | ✗ Mövcud deyil | | Əhəmiyyətli deyil |
| | 306-5 Utilizasiyaya yönəldilmiş tullantılar | ✗ Mövcud deyil | | Əhəmiyyətli deyil |
| **Təchizatçıların ətraf mühit üzrə qiymətləndirilməsi** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular2021** | 3-3 Əhəmiyyətli mövzuların menecmenti | ✓ 8.1. Məsuliyyətli maliyyəyə yanaşmamız | səh. 64-66 | |
| **GRI 308: Təchizatçıların ətraf mühit üzrə qiymət-ləndirilməsi 2016** | 308-1 Ekoloji meyarlar üzrə qiymətləndirilmiş yeni təchizatçılar | ✓ 8.1. Məsuliyyətli maliyyəyə yanaşmamız | səh. 64-66 | |
| | 308-2 Təchizat zəncirində mənfi ekoloji təsirlər və görülən tədbirlər | ✗ Mövcud deyil | | |
| **Məşğulluq** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzular menecmenti | ✓ 8.2. Əməkdaşlarımız üçün üstünlüklərin artırılması<br>✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh. 66-71<br>səh. 72-85 | |
| **GRI 401: Məşğulluq 2016** | 401-1 Yeni işə götürülən işçilər və işçi dövriyyəsi | ✓ 8.2. Əməkdaşlarımız üçün üstünlüklərin artırılması | səh. 66-71 | |
| | 401-2 Müvəqqəti və yarımştat işçilərə təklif olunmayan, lakin tam ştat işçilərə təqdim olunan əlavə ödəmələr, güzəştlər və imtiyazlar | ✗ Mövcud deyil | | Qarşıdakı dövrlərdə tam ştatlı işçilərə, müvəqqəti və ya yarımştat işçilərə verilən müavinətlər haqqında ətraflı məlumatı da daxil etməklə hesabatımızı genişləndirəcəyik. |

| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Məşğulluq** | | | | |
| **GRI 401: Məşğulluq 2016** | 401-3 Valideyn məzuniyyəti | ✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh. 72-85 | |
| **İşçi və rəhbər əlaqələri** | | | | |
| **GRI 402: İşçi və rəhbər əlaqələri 2016** | 402-1 Əməliyyat dəyişiklikləri ilə bağlı minimal bildiriş müddətləri | ✗ Mövcud deyil | | |
| **Əməyin təhlükəsizliyi və sağlamlıq** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecementi | ✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh. 72-85 | |
| **GRI 403: Əməyin təhlükəsizliyi və sağlamlıq 2018** | 403-1 Əməyin təhlükəsizliyi və sağlamlığı idarəetmə sistemi | ✗ Mövcud deyil | | |
| | 403-2 Təhlükənin müəyyən edilməsi, riskin qiymətləndirilməsi və insidentin araşdırılması | ✗ Mövcud deyil | | Əhəmiyyətli deyil |
| | 403-3 Əməyin mühafizəsi xidmətləri | ✗ Mövcud deyil | | Əhəmiyyətli deyil |
| | 403-4 İşçilərin əməyin mühafizəsi və təhlükəsizliyi ilə bağlı iştirakı, məsləhətləşməsi və ünsiyyəti | ✗ Mövcud deyil | | |
| | 403-5 İşçilərin əməyin mühafizəsi və təhlükəsizliyi üzrə təlimi | ✗ Mövcud deyil | | |
| | 403-6 İşçilərin sağlamlığının təşviqi | ✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh. 72-85 | |
| | 403-7 İşgüzar əlaqələrlə birbaşa əlaqəli olan iş sağlamlığı və təhlükəsizliyinə təsirlərin qarşısının alınması və yumşaldılması | ✗ Mövcud deyil | | |



| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Əməyin təhlükəsizliyi və sağlamlıq** | | | | |
| **GRI 403: Əməyin təhlükəsizliyi və sağlamlıq 2018** | 403-8 Əməyin mühafizəsi və təhlükəsizliyi idarəetmə sistemi ilə əhatə olunan işçilər | ✗ Mövcud deyil | | |
| | 403-9 İşlə əlaqədar xəsarətlər | ✗ Mövcud deyil | | |
| | 403-10 İşlə əlaqədar xəstəlik | ✗ Mövcud deyil | | |
| **Təlim və təhsil** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecmenti | ✓ 8.2. Əməkdaşlarımız üçün üstünlüklərin artırılması | səh. 66-71 | |
| **GRI 404: Təlim və təhsil 2016** | 404-1 Bir əməkdaşın payına düşən illik təlim saatları | ✓ 8.2. Əməkdaşlarımız üçün üstünlüklərin artırılması | səh. 66-71 | |
| | 404-2 İşçi bacarıqlarının artırılması və keçid üzrə təlimlər | ✓ 8.2. Əməkdaşlarımız üçün üstünlüklərin artırılması | səh. 66-71 | |
| | 404-3 Müntəzəm fəaliyyət və karyera inkişafı üzrə gözdən keçirilmiş işçilərin faizi | ✗ Mövcud deyil | | |
| **Müxtəliflik və bərabər imkanlar** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecementi | ✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh. 72-85 | |
| **GRI 405: Müxtəliflik və bərabər imkanlar 2016** | 405-1 İdarəetmə orqanlarının və işçilərin müxtəlifliyi | ✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh. 72-85 | |
| | 405-2 Başlanğıc əmək haqqı və mükafatlandırma üzrə qadınların kişilərə olan nisbəti | ✗ Mövcud deyil | | |

| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Ayrı-seçkiliyin olmaması** | | | | |
| **GRI 406: Ayrı-seçkiliyin olmaması 2016** | 406-1 Ayrı-seçkilik hadisələri və onların qarşısını almaq üçün görülmüş tədbirlər | ✗ Mövcud deyil | | ABB-nin yaşa, dini inanclara, cinsiyyətə və ya rasional/etnik mənşəyə əsaslanmış hər hansı formada ayrı-seçkiliyi açıq şəkildə qadağan edən güclü İnsan resursları siyasəti və Etika Kodeksi var. |
| **Birləşmə azadlığı və kollektiv müqavilələr** | | | | |
| **GRI 407: Birləşmə azadlığı və kollektiv müqavilələr 2016** | 407-1 Fəaliyyət çərçivəsində assosiasiya azadlığını və kollektiv müqavilələrin istifadəsi haqqını risk altına salan əməliyyatlar və təchizatçılar | ✗ Mövcud deyil | | |
| **Uşaq əməyi** | | | | |
| **GRI 408: Uşaq əməyi 2016** | 408-1 Uşaq əməyinin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar | ✗ Mövcud deyil | | |
| **Məcburi əmək** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecementi | ✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh.72 | |
| **GRI 409: Məcburi əmək 2016** | 409-1 Məcburi əməyin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar | ✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh.72 | |
| **Təhlükəsizlik təcrübələri** | | | | |
| **GRI 410: Təhlükəsizlik təcrübələri 2016** | 410-1 Təhlükəsizlik işçilərinin insan haqları üzrə siyasət və prosedurlar üzrə təlim keçməsi | ✗ Mövcud deyil | | |
| **Yerli xalqların hüquqları** | | | | |
| **GRI 411: Yerli xalqların hüquqları 2016** | 411-1 Yerli xalqların haqlarının pozulması insidentləri | ✗ Mövcud deyil | | |



| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Yerli cəmiyyətlər** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecementi | ✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh. 72-85 | |
| **GRI 413: Yerli cəmiyyətlər 2016** | 413-1 Yerli cəmiyyətlərin cəlb olunması, təsirlərin qiymətləndirilməsi və inkişaf proqramları | ✓ 8.3. Cəmiyyətə müsbət təsirlərin təşviqi | səh. 57-65 | |
| | 413-2 Yerli cəmiyyətlərə mövcud və potensial əhəmiyyətli mənfi təsirlərin qiymətləndirilməsi | ✗ Mövcud deyil | | |
| **Təchizatçıların sosial qiymətləndirilməsi** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecmenti | ✓ 8.1. Məsuliyyətli maliyyəyə yanaşmamız | səh. 64-66 | |
| **GRI: 414 Təchizatçıların sosial meyarlar üzrə qiymətlən-dirilməsi 2016** | 414-1 Sosial meyarlar üzrə qiymətləndirilmiş yeni təchizatçılar | ✓ 8.1. Məsuliyyətli maliyyəyə yanaşmamız | səh. 64-66 | |
| | 414-2 Təchizat zəncirində mənfi sosial təsirlər və görülən tədbirlər | ✓ 8.1. Məsuliyyətli maliyyəyə yanaşmamız | səh. 64-66 | |
| **İctimai siyasət** | | | | |
| **GRI 415: İctimai siyasət 2016** | 415-1 Siyasi xarakterli ödənişlər və fəaliyyət | ✗ Mövcud deyil | | |
| **Müştəri sağlamlığı və təhlükəsizliyi** | | | | |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-3 Əhəmiyyətli mövzuların menecmenti | ✓ 8.1. Məsuliyyətli maliyyəyə yanaşmamız | səh. 64-66 | |
| **GRI 416: Müştəri sağlamlığı və təhlükəsizliyi 2016** | 416-1 Məhsul və xidmət kateqoriyalarının sağlamlıq və təhlükəsizlik təsirləri üzrə qiymətləndirilməsi | ✓ 8.1. Məsuliyyətli maliyyəyə yanaşmamız | səh. 64-66 | |
| | 416-2 Məhsul və xidmətlərin sağlamlıq və təhlükəsizlik tələblərinə cavab verməməsi halları | ✗ Mövcud deyil | | |

| GRI standart/ Digər mənbə | Açıqlama | Açıqlama statusu | Səhifə | Şərhlər |
|---|---|---|---|---|
| **Marketinq və etiketləmə** | | | | |
| GRI 417: Marketinq və etiketləmə 2016 | 417-1 Məhsul və xidmətlər üzrə məlumatlandırma və etiketləmə tələbləri | ✗ Mövcud deyil | | Əhəmiyyətli deyil |
| | 417-2 Məhsul və xidmətlər üzrə məlumatlandırma və etiketləmə tələbləri ilə uyğunsuzluq halları | ✗ Mövcud deyil | | Əhəmiyyətli deyil |
| | 417-3 Marketinq kommunikasiyalarında uyğunsuzluq halları | ✗ Mövcud deyil | | Əhəmiyyətli deyil |
| **Müştəri məxfiliyi** | | | | |
| GRI 3: Əhəmiyyətli mövzular 2021 | 3-3 Əhəmiyyətli mövzuların menecmenti | ✓ 9.3. Məlumat məxfiliyi və kibertəhlükəsizlik | səh. 118-120 | |
| GRI 418: Müştəri məxfiliyi 2016 | 418-1 Müştəri konfidensiallığının pozulması və müştəri məlumatlarının itirilməsinə dair əsaslandırılmış şikayətlər | ✓ 9.3. Məlumat məxfiliyi və kibertəhlükəsizlik | səh. 118-120 | |



EY
Building a better working world

Ernst & Young Holdings (CIS) B.V.
Port Baku Towers Business Centre
South Tower, 9th floor,
153, Neftchilar Ave.
Baku, AZ1010, Azerbaijan
Tel: +994 (12) 490 70 20
www.ey.com/az

Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Port Baku Tauers Biznes Mərkəzi
Cənub Qülləsi, 9-cu mərtəbə
Neftçilər prospekti, 153
Bakı, AZ1010, Azərbaycan
Tel: +994 (12) 490 70 20

## Müstəqil Əminlik Bəyannaməsi

### ABB ASC-nin İdarə Heyətinə və Müşahidə Şurasına

***Mövzunun müəyyən edilməsi və təsviri***

ABB ASC-nin (bundan sonra "ABB") razılığı ilə biz, Əminlik Tapşırığına Dair Beynəlxalq Standartlara uyğun ABB-nin 1 yanvar 2022-ci il tarixindən 31 dekabr 2022-ci il tarixinədək olan dövr üzrə Dayanıqlı İnkişaf haqqında Hesabatında (bundan sonra "Hesabat") açıqlanmış əhəmiyyətli qeyri-maliyyə göstəricilərinə dair (bundan sonra "Mövzu") məhdud əminlik tapşırığını (bundan sonra "Tapşırıq") yerinə yetirdik. Məhdud əminlik prosedurları aşağıdakı göstəriciləri əhatə etmişdir:

- ✓ Aktiv korporativ müştərilərin sayı
- ✓ Aktiv pərakəndə müştərilərin sayı
- ✓ Aktiv ABB mobile istifadəçilərinin sayı
- ✓ Aktiv İnternet Bankçılıq istifadəçilərinin sayı
- ✓ Ümumi işçi sayı
- ✓ İşçilərin dövriyyə nisbəti
- ✓ İşə qəbul olunmuş işçilərin ümumi sayı
- ✓ Ümumi təlim saatı
- ✓ İstehlak olunmuş yanacağın həcmi
- ✓ İstehlak olunmuş elektrik enerjisinin həcmi
- ✓ İstehlak olunmuş təbii qazın həcmi
- ✓ İstehlak olunmuş suyun həcmi
- ✓ Birbaşa emissiyaların həcmi
- ✓ Dolayı emissiyaların həcmi

Biz Tapşırığın mövzusunu əks etdirən əvvəlki paraqrafda göstərildiyindən əlavə göstəricilər, hadisələr və ya planlaşdırılan tədbirlər kimi gələcək bəyanatlara dair Hesabatda olan digər məlumatlara əminlik prosedurlarını icra etməmişik və, müvafiq olaraq, bu məlumat üzrə əminlik təmin etmirik.

***ABB tərəfindən tətbiq edilən meyarlar***

Hesabatlılıq üzrə Qlobal Təşəbbüsün dayanıqlı inkişaf sahəsində hesabatların hazırlanması standartları (bundan sonra "GRI Standartları") və Hesabatın "Hesabat haqqında" bölməsində göstərilmiş dayanıqlı inkişaf hesabatlarının hazırlanması üzrə digər prinsiplər ABB tərəfindən hesabatlılıq meyarları (bundan sonra "Meyarlar") kimi qəbul olunmuşdur.

***ABB-nin məsuliyyəti***

ABB-nin rəhbərliyi meyarların müəyyən olunmasına və bütün Mövzunun meyarlara uyğun olaraq təqdim edilməsinə görə məsuliyyət daşıyır. Bu məsuliyyətə saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin qarşısını almaq məqsədilə Mövzunun hazırlanması üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; münasib hesabat prinsiplərinin seçilməsi və tətbiqi; mövcud şəraitə uyğun olan ölçmə metodları və qiymətləndirmələrin istifadə edilməsi daxildir.

***Bizim məsuliyyətimiz***

Bizim məsuliyyətimiz, əldə etdiyimiz dəlillərə əsaslanaraq Mövzunun təqdim edilməsi ilə bağlı rəy bildirməkdir.

Əminlik tapşırığı *"Tarixi Maliyyə Məlumatlarının Auditindən və Rəylərindən Başqa Etibarlılıq Təchizatı üzrə Beynəlxalq Standart"* (bundan sonra "ISAE 3000") Beynəlxalq Standartına (yenidən baxılmış) və 15 sentyabr 2020-ci il tarixində ABB ilə razılaşdırılmış müqavilənin şərtlərinə uyğun olaraq həyata keçirilmişdir. ISAE 3000, Mövzunun bütün əhəmiyyətli aspektlər baxımından Meyarlara uyğun olaraq təqdim edilib-edilməyəcəyinə və Hesabatda əks etdiriləcəyinə dair məhdud zəmanət əldə etmək üçün fəaliyyətimizi planlaşdırmağı və yerinə yetirməyi tələb edir. Seçilən prosedurların təyinatı, vaxtı və miqyası, saxtakarlıq və ya yol verilən səhv nəticəsində əhəmiyyətli təhrif riskinin qiymətləndirilməsi də daxil olmaqla, qərarımızdan asılıdır.

Hesab edirik ki, əldə etdiyimiz dəlillər məhdud əminlik rəyimizə əsas yaratmaq üçün kifayət və uyğundur.

***Müstəqilliyimiz və keyfiyyətin idarə edilməsi***

Biz müstəqillik prinsiplərinin və Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurası tərəfindən qəbul edilmiş Peşəkar Mühasiblərin Etika Məcəlləsinin (IESBA) tələblərinə əməl etdiyimizi, eləcə də Tapşırığın yerinə yetirilməsi üçün lazımi səriştə və təcrübəyə malik olduğumuzu təsdiqləyirik.

Biz həmçinin etik tələblərə, peşə standartlarına və tətbiq olunan qanuni və tənzimləyici tələblərə uyğunluqla bağlı siyasət və prosedurlar daxil olmaqla keyfiyyətin idarə edilməsi sisteminin hazırlanmasını, icra və tətbiq edilməsini tələb edən Keyfiyyətin İdarə Edilməsi üzrə 1 saylı Beynəlxalq Standartını (ISQM 1), Maliyyə Hesabatlarının Auditlərini və ya Yoxlamalarını, Digər Əminlik və ya Aidiyyatı olan Xidmətlər üzrə Tapşırıqları İcra Edən Şirkətlər üçün Keyfiyyətin İdarə Edilməsini tətbiq edirik.

A member firm of Ernst & Young Global Limited

EY
Building a better working world

*Yerinə yetirilmiş işin xülasəsi*

Məhdud əminlik tapşırığı çərçivəsində yerinə yetirilən prosedurların təyinatı, vaxtı və miqyası kifayət qədər əminlik tapşırığı ilə müqayisədə daha məhduddur. Buna görə də, məhdud əminlik tapşırığı nəticəsində daha aşağı əminlik səviyyəsi əldə edilir. Prosedurlarımız əldə olunan məhdud əminliyin əsasında nəticənin formalaşması üçün həyata keçirilmişdir və kifayət qədər əminliyin alınması üçün tələb olunan bütün dəlilləri nəzərə almır.

Prosedurlarımızın mahiyyətini və miqyasını təyin edərkən rəhbərliyin daxili nəzarətinin effektivliyini nəzərə alsaq da, əminlik öhdəliyimiz daxili nəzarət sistemlərinə dair zəmanət vermək üçün nəzərdə tutulmamışdır. Prosedurlarımıza nəzarət sisteminin test olunması və ya IT sistemləri daxilində məlumatların agregasiyası və ya hesablanması ilə bağlı prosedurlar daxil edilməmişdir.

Məhdud əminlik tapşırığı ilk növbədə Mövzunun və əlaqəli məlumatların hazırlanması üzrə məsul şəxslərə sorğuların edilməsi, habelə analitik və digər müvafiq prosedurların yerinə yetirilməsindən ibarətdir.

Yerinə yetirdiyimiz prosedurlar aşağıdakılardan ibarət olmuşdur:

- ABB-nin dayanıqlı inkişaf sahəsində qaydaları, fəaliyyəti, iş nəticələri və müvafiq hesabatların hazırlanmasına görə məsuliyyət daşıyan rəhbərliyinin nümayəndələri ilə müsahibələr,
- ABB-nin dayanıqlı inkişaf sahəsində qaydaları, fəaliyyəti, iş nəticələri və müvafiq hesabatlara aid olan əsas sənədlərin təhlili,
- Hesabatın ABB-nin fəaliyyət istiqamətinə oxşar beynəlxalq miqyasda seçilmiş şirkətlərin hesabatları ilə müqayisə edilməsi,
- ABB-nin 2022-ci il üzrə dayanıqlı inkişaf sahəsində qaydaları, fəaliyyəti, tədbirləri və iş nəticələrinə dair seçilmiş daxili və xarici nəşrlərin təhlili,
- Yuxarıda təsvir olunmuş prosedurlar əsasında əhəmiyyətli problemlərin müəyyən edilməsi və onların Hesabatda əks etdirilməsinin təhlili,
- Hesabat dövrü üzrə orada açıqlanan məlumatların Meyarlara uyğun olaraq düzgün toplanılması, hazırlanması, müqayisə edilməsi və əks etdirilməsini yoxlamaq məqsədilə əsas qeyri-maliyyə göstəriciləri üzrə məlumat nümunələrinə əsaslanaraq testlərinin keçirilməsi,
- ABB-nin Hesabatda göstərilmiş dayanıqlı inkişaf sahəsində qaydaları, fəaliyyəti, tədbirləri və iş nəticələrinə dair məlumatları təsdiq etmək və bununla əlaqədar audit dəlilləri toplamaq məqsədi ilə ABB-nin Baş Ofisi nümayəndələri ilə görüşlər;
- Hesabata daxil edilmiş keyfiyyət və kəmiyyət məlumatlarını əsaslandıran dəlillərin nümunə əsasında toplanması və yoxlanılması,
- Hesabatda məlumatların açıqlanmasının GRI Standartlarının tələbləri ilə uyğunluğunun yoxlanılması.

Aparılan işlər çərçivəsində tələb olunan digər əlavə prosedurlar da həyata keçirilmişdir.

*Nəticə*

Yerinə yetirdiyimiz prosedurlar və əldə etdiyimiz sübutlar nəticəsində, Mövzunun 31 dekabr 2022-ci il tarixinə olan Meyarlara uyğunluğu üçün ona edilməli hər hansı əhəmiyyətli dəyişikliklər barəsində məlumatımız yoxdur.

*Məhdud istifadə*

Bu hesabat yalnız ABB-nin rəhbərliyi və maraqlı tərəflərin məlumatlandırılması və istifadəsi üçün nəzərdə tutulub və burada müəyyən edilən tərəflərdən başqa digər tərəflərin istifadəsi üçün nəzərdə tutulmayıb və onlar tərəfindən istifadə edilməməlidir.

Ernst & Young Holdings (CIS) B.V.

13 oktyabr, 2023-cü il

Bakı, Azərbaycan



A member firm of Ernst & Young Global Limited

ABB
Azərbaycan Beynəlxalq Bankı